RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 280 (9159) CÜMƏ AXŞAMI, 22 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



**Serbiya Prezidenti Aleksandar Vuçiçin Azərbaycana işgüzar səfəri**

## Təkbətək görüş



→ 2

## Prezidentlərin mətbuata bəyanatları



→ 2

## Heydər Əliyev Mərkəzi ilə tanışlıq



→ 3

# "Çox xoşbəxtəm ki, Prezident Əliyevdən bu qədər şey öyrənə bilmişəm"

### Serbiya Prezidenti Aleksandar Vuçiç iki ölkə arasında yeni əməkdaşlıq sahələrinin açılması üçün böyük potensialın olduğuna əmindir



**Azərbaycanın Balkan dövlətlərinin əksəriyyəti ilə sıx əlaqələri var. Bu sırada Serbiya ilə münasibətlər xüsusilə təqdir olunmalıdır. Xüsusən son 10 ildə ikitərəfli əlaqələr əhəmiyyətli dərəcədə inkişaf edib, müxtəlif sahələrdə əməkdaşlığın əsası qoyulub.**

Təbii ki, bu məsələdə dövlət başçılarının qarşılıqlı səfərləri, ikitərəfli hüquqi bazanın gücləndirilməsi əhəmiyyətli rol oynayıb. Serbiya Prezidenti Aleksandar Vuçiçin ölkəmizə işgüzar səfəri bir daha iki dövlət arasındakı yüksək siyasi əlaqələrin təsdiqi oldu.

### Azərbaycanın Balkanlardakı strateji tərəfdaşı

Azərbaycan-Serbiya münasibətlərində diqqət çəkən əsas məqamlar hər iki tərəfin olduqca konstruktiv əməkdaşlıq niyyətinin olması və milli maraqlara qarşılıqlı hörmətdir. Təsadüfi deyil ki, hər iki dövlət beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəkləyir, bütün beynəlxalq əhəmiyyətli məsələlərdə bir-birilərinin mövqeyini müdafiə edirlər. İki dövlət arasındakı münasibətlərə dair qanunvericilik bazası da mükəmməldir. Bunların arasında əlaqələri strateji səviyyəyə çatdıran sənədlər xüsusilə qeyd edilməlidir. Hələ 2018-ci ilin may ayında Prezident Aleksandar Vuçiçin Azərbaycana rəsmi səfəri zamanı "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı" imzalanmışdı.

→ 3

## Qonağın şərəfinə nahar



→ 3

## Birinci vitse-prezident Mehriban Əliyeva Xalq rəssamı Ömər Eldarovun yubileyi ilə əlaqədar paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Xalq rəssamı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarovun yubileyi ilə əlaqədar paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Sizi 95 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram! Öz yaradıcılığınızla milli təsviri incəsənətin gözəl ənənələrini zənginləşdirdiyinizə görə çox sağ olun! Siz Azərbaycanın yüksək mükafatlarına layiq görülmüsünüz. Lakin düşünürəm ki, ən böyük mükafatınız xalqımızın Sizə olan böyük sevgi və hörmətidir. Uca Allah Sizi və doğmalarınızı qorusun!

*Dərin hörmət və sevgilərlə,*
*MEHRİBAN"*

# Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyası iştirakçılarının bəyanatı

Etiraz aksiyası dinc xarakter daşıyır və vətəndaş cəmiyyətinin nümayəndələri Azərbaycanın təbii sərvətlərinin talan edilməsinə və ətraf mühitə bərpası mümkün olmayan zərərin vurulmasına son qoyulması istiqamətində şüarlar səsləndirirlər. BMT Təhlükəsizlik Şurasındakı müzakirələrin haqlı narahatlığımızı nəzərə almamasını vətəndaş cəmiyyətinə sayğısızlıq, qərəzli münasibət və selektiv yanaşma kimi dəyərləndiririk.

Təəssüflə vurğulamaq istəyirik ki, dünyada sülhün və təhlükəsizliyin qorunmasına cavabdeh olan əsas qurum kimi BMT Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycan torpaqlarını 30 il ərzində işğal altında saxlamasına, etnik təmizləmə siyasətinə, Xocalı soyqırımına, 1 milyondan çox azərbaycanlının öz doğma yurdlarından qovulmasına, Azərbaycan xalqının mədəni irsinin məqsədli şəkildə dağıdılmasına və talan edilməsinə, qeyri-qanuni məskunlaşdırma siyasətinə göz yumdu və özünün qəbul etdiyi qətnamələrin icrası istiqamətində heç bir addım atmadı. BMT Təhlükəsizlik Şurasının ikili standartların girovuna çevrilməsi təəssüf doğurur.

→ 7

# Milli mübarizənin nümunəsi



→ 8

# Serbiya Prezidenti Aleksandar Vuçiçin Azərbaycana işgüzar səfəri

## Təkbətək görüş





**Dekabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə işgüzar səfərə gələn Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Prezidenti Aleksandar Vuçiçi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

## Prezidentlərin mətbuata bəyanatları

**Dekabrın 21-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış etdi.**





### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Bir ay bundan əvvəl Prezident Vuçiçin dəvəti ilə mən Serbiyada rəsmi səfərdə olmuşam. Fürsətdən istifadə edərək mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Eyni zamanda təəssüratlarımı bölüşmək istəyirəm. Prezident Vuçiçin rəhbərliyi ilə Serbiyada olan vəziyyət, gedən inkişaf məni çox təsirləndirdi. Prezident Vuçiçin uzaqgörən siyasəti nəticəsində Serbiya hərtərəfli inkişaf edir, həm şəhərsalma sahəsində, eyni zamanda iqtisadi və sənaye inkişafı sahəsində, kənd təsərrüfatı sahəsində. Bu bizim gələcək əməkdaşlığımız üçün yeni imkanlar yaradır. Çünki həm Serbiya, həm Azərbaycan öz resurslarına arxalanan ölkələrdir, müstəqil siyasət aparan ölkələrdir və bir-biri ilə sıx əlaqədə olan ölkələrdir.

Şadam ki, əziz dostum mənim dəvətimi qəbul edib və bir ay keçmədən Bakıya səfər edib. Bu onu göstərir ki, əlaqələrimizin dinamikası, doğrudan da, çox müsbətdir. Biz keçən ay Belqradda qəbul etdiyimiz qərarların tezliklə yerinə yetirilməsini arzulayırıq. Nəinki arzulayırıq və eyni zamanda hökumət üzvlərinə bu qərarların icra edilməsi ilə əlaqədar müvafiq göstərişlər verildi. Bilirəm ki, bu ay ərzində bizim müvafiq strukturların rəhbərləri bir-biri ilə təmasda olmuşlar və bu gün bu təmaslar davam edir. Bir sözlə, biz istəyirik ki, bundan sonra da ikitərəfli əlaqələr sürətlə inkişaf etsin və qəbul edilmiş qərarlar vaxt itirmədən icra olunsun.

Bir çox sahələr üzrə əməkdaşlığın artıq böyük tarixi var. İlk növbədə bildirməliyəm ki, Serbiya və Azərbaycan strateji tərəfdaşdırlar, strateji tərəfdaşlığa dair bir neçə sənəd imzalanmışdır. Biz hər zaman bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləmişik, dəstəkləyirik və bu siyasət dəyişməz olaraq qalacaq. Biz beynəlxalq hüququn tərəfdarıyıq və əminik ki, ölkələr arasında münasibətlər ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında tənzimlənə bilər. Bu sahədə dünyada müşahidə olunan ikili standartların təzahürləri, əlbəttə ki, bizi çox narahat edir. Beynəlxalq hüququn norma və prinsipləri bütün ölkələr üçün əsas olmalıdır.

Belə gözəl strateji tərəfdaşlıq münasibətlərindən və eyni zamanda şəxsi dostluq münasibətlərimizdən istifadə edərək, əlbəttə, biz ümid edirik ki, bütün sahələrdə bunun nəticəsi olacaq, ilk növbədə ticarət sahəsində. Əminəm ki, əldə edilmiş razılaşmaların icrası nəticəsində ticarət dövriyyəsi artacaq, hələ ki, o, istənilən səviyyədə deyil. Nəqliyyat-logistika sahəsində böyük potensial var. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan və Serbiya ərazilərindən beynəlxalq nəqliyyat dəhlizləri keçir, burada da uzlaşma və bağlantının yaradılması üçün bizim müvafiq qurumlar fəal işləməlidir. Aidiyyəti qurumlar arasında təmaslar artıq yaranıbdır.

Təbii ki, energetika sektoru əməkdaşlığımızın bir hissəsidir. Son vaxtlar bu sahə daha böyük əhəmiyyət kəsb edir. Azərbaycanın təbii resursları artıq müxtəlif istiqamətlər üzrə ixrac edilir, həmçinin Avropa qitəsinə, o cümlədən Serbiyaya qonşu olan ölkələrə. Həm təbii qaz, həm elektrik enerjisi ilə əlaqədar əməkdaşlıq üçün imkanlar var, müvafiq danışıqlar aparılmışdır. Gələn ildən başlayaraq Azərbaycanın elektrik enerjisinin Serbiyaya ixrac edilməsi üçün əminəm ki, əməli addımlar atılacaqdır.

Onu da bildirməliyəm ki, dörd gün bundan əvvəl Azərbaycanın elektrik enerjisinin Avropaya çatdırılması üçün müvafiq saziş imzalanmışdır. Qara dənizin dibi ilə çəkiləcək kabel Azərbaycanı bu sahədə də Avropa üçün önəmli təchizatçı kimi təsdiqləyəcək. Bütün bunlar yeni imkanlar, yeni üfüqlər açır və biz bu sahədə, əlbəttə ki, ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq edəcəyik.

Serbiyada səfərdə olarkən biz eyni zamanda müdafiə sənayesi sahəsi ilə bağlı müvafiq göstərişlər verdik. Bu sahədə də hər iki ölkədə potensial var və bu potensialın birləşdirilməsi üçün praktiki addımların atılması da gözlənilir.

Bir sözlə, ikitərəfli əlaqələrə bir daha nəzər salarkən görürük ki, bütün sahələrdə bu əlaqələr dostluq və qarşılıqlı anlaşma üzərində qurulmuşdur. Əminəm ki, biz gələn ili də bu ab-hava şəraitində keçirəcəyik. Çünki bu il ikitərəfli əlaqələrimiz üçün çox uğurlu olub. Həm qarşılıqlı iki səfər, eyni zamanda bizim nümayəndə heyətlərinin üzvlərinin təmasları və bütövlükdə Serbiya-Azərbaycan əlaqələrinin gələcəyi ilə bağlı ancaq nikbin fikirdə olmaq olar. Buna görə də biz çox şadıq və əziz dostum Prezident Vuçiçə də bu dostluğa görə təşəkkürümü bildirirəm. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra Serbiya Prezidenti Aleksandar Vuçiç bəyanatla çıxış etdi.

### Prezident Aleksandar Vuçiçin bəyanatı

- Hörmətli Prezident Əliyev, əziz dost.

Hər dəfə Azərbaycana gələndə, Bakını ziyarət edəndə böyük dəyişikliklərin şahidi oluram. Azərbaycandan olan birisi üçün bu bir qədər qeyri-adi görünə bilər. Lakin bu, həqiqətən də, belədir. Çünki bir ölkədə yaşayan insanlar həmin ölkənin nə qədər dəyişdiyini görə bilmirlər. Hər dəfə Bakıya gələndə mən, həqiqətən də, böyük tərəqqinin şahidi oluram. Deyərdim ki, inanılmaz tərəqqini görürəm. Buna görə də mənim dostum, Sizi təbrik etmək istəyirəm. Bu tərəqqiyə görə Azərbaycan vətəndaşlarını təbrik etmək istəyirəm. Mən Sizin nailiyyətlərinizə görə sevinirəm. Həm mənim nümayəndə heyətim, həm də mən özüm Azərbaycan xalqının və cənab Prezident, şəxsən Sizin səmimi dostunuzuq. Nə üçün mən qısa çıxışıma bununla başladım? Çünki Azərbaycanda gördüyümüz belə sürətli inkişafı müasir dünyada yalnız çox az yerdə görmək olar. Bəziləri deyə bilərlər ki, bu, neft və qaza görədir.

Mən Azərbaycandan 10 dəfə çox neft və qaz ehtiyatlarına malik olan ölkələri tanıyıram, onların vəziyyəti Azərbaycanınkından 10 dəfə pisdir. Bu isə ölkə rəhbərliyinin gücündən, Prezident Əliyevin uzaqgörənliyindən, onun Azərbaycanın və müasir dünyanın üzləşdiyi çağırışlara yaxşı bələd olduğundan xəbər verir. Bu, yaxşı baxışa malik olan ölkə rəhbərliyi ilə necə fərq yarada bildiyinizdən xəbər verir. Yenə də qısa bir hekayəni sizinlə paylaşmaq istəyirəm. 1971-1972-ci illərdə Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) olan yaşlı Şeyx Bin Zayed Liviyaya səfəri zamanı demişdi ki, ümid edirəm, 40 ildən sonra onun ölkəsi Liviya kimi olacaq. Liviyanın BƏƏ-dən beş dəfə çox neft ehtiyatı var. Lakin bir ölkənin hansı vəziyyətdə olduğuna, digər ölkənin isə hansı vəziyyətdə olduğuna nəzər salın. Əminəm ki, Prezident Əliyev özü ilə bir çoxlarımızın arasında və dünya miqyasında Azərbaycandan da daha böyük həcmdə təbii ehtiyatlara və xammala malik ölkələr arasında olan fərqi göstərə bildi. Prezident Əliyev kimi ölkəsinə sevgi ilə rəhbərlik etdikdə belə bir vəziyyətin şahidi oluruq. Mən bunu bizə Avropa qədər qaz və elektrik enerjisi lazım olduğuna görə demirəm. Xeyr, bizə daha az həcmdə lazımdır. Bizə bu resurslar lazımdır. Ancaq biz onlar olmadan da yaşaya bilərik. Mən bunu Prezident Əliyevə və onun işinin nəticələrinə səmimi rəğbət bəslədiyimə görə deyirəm. O, Belqradı ziyarət edəndə mənə şəhərin bəzi hissələrini çətinliklə tanıdığını dedi. Onda da mən anladım ki, bir yerdə yaşamayanda həmin yeri ziyarət edəndə siz həmin ölkə və ya şəhərin inkişafının şahidi ola bilirsiniz.

Biz bütün əməkdaşlıq formalarını müzakirə etdik. Bizim aramızda güclü və səmimi dostluq var. Azərbaycanı Serbiyaya, Serbiyanı isə Azərbaycana qarşı yönəltmək mümkün deyil. Bunu etmək mümkün deyil. Heç kimin belə bir əməli etmək imkanı yoxdur, ya da onların üzərində bunu etmək üçün təzyiq yoxdur. Biz bir-birimizin ərazi bütövlüyümüzü dəstəkləyirik. Bu belə olmuşdur və belə də olmağa davam edəcək. Mən Prezident Əliyevə minnətdaram, çünki o, bizim ölkənin ərazisində asayişin qorunması, BMT Nizamnaməsinin tələblərinin müdafiə olunması ilə bağlı üzləşdiyimiz çətinlikləri dəqiqliklə bilir. Həmçinin ondan bilikləri və gələcək haqqında bir çox məsələləri öyrəndiyimə görə də ona minnətdaram. Çünki mən bizi gələcəkdə nələrin gözlədiyini daha real, daha ciddi şəkildə görə bilirəm.

Biz birlikdə əməkdaşlığın mümkün sahələrini təhlil etdik. Sözsüz ki, bizim enerji sahəsi ilə bağlı əməkdaşlıq etməli çox məsələlərimiz var. Biz artıq özümüzün ötürücü sistemlərimizin inşası, inkişafı yollarını müzakirə etdik ki, Rumıniya və Macarıstana sualtı xətlə nəql olunacaq elektrik enerjisini əldə edək və özümüzün necə enerji benefisiarları ola biləcəyimizi nəzərdən keçirək. Biz Bolqarıstan və Şimali Makedoniya ilə birlikdə inşa etməyə hazırlaşdığımız interkonnektorlar vasitəsilə Azərbaycan qazını əldə etməyin yolları barədə müzakirə apardıq. Bütün bunlar bizim üçün vacibdir. Lakin hesab edirəm ki, biz eyni dərəcədə mühüm olan, bəlkə də, daha mühüm olan bəzi yeni əməkdaşlıq sahələri açırıq. Söhbət bizim ümumi fəaliyyətimizdən, müdafiə sənayesində texnologiya mübadiləsindən və üçüncü ölkələrin bazarlarına birlikdə çıxara biləcəyimiz bəzi məhsullar üzərində aparılan işdən gedir. Çünki hesab edirəm ki, əgər buna birgə yanaşmamız olsa, Serbiya və Azərbaycan olaraq bizim böyük potensialımız var. Məhz buna görə də biz bir ayda iki dəfə görüşmüşük. Serbiya nümayəndə heyəti tez-tez Azərbaycana gələcək, eynilə Azərbaycan nümayəndə heyəti bir neçə günə Belqrada səfər edəcək. Mənim müdafiə sənayesi naziri ilə çox məhsuldar müzakirələrim oldu. Hesab edirəm ki, müdafiə sektorunun nümayəndələri ilə biz silahlı qüvvələrin fəaliyyətinə dair, habelə silahlı qüvvələrin strukturu ilə bağlı Azərbaycandan çox şey öyrəndik. Biz çox məsələlərlə bağlı məlumat mübadiləsinə hazırıq. Biz müəyyən yaxşı sursat, silah istehsal edirik. Biz hər şeyi birlikdə müasirləşdirməyin yollarını nəzərdən keçirməyə və özümüzü təmin etmək üçün dünya ilə ayaqlaşmağa hazırıq. Çünki bu çətin dövrdə gördük ki, böyük ölkələr qısa zamanda necə bu qədər güc itirə bilərlər, sanksiyaların təsiri, məhvedici təsiri ola bilər. Biz çox da dinc olmayacaq gələcəkdə ölkələrimizi qorumağa və təhlükəsizliyini təmin etməyə hazır olmalıyıq.

Prezident Əliyev, mən Sizə dostluğa, Serbiyaya səmimi münasibətinizə görə olduqca minnətdaram. Arzu edirəm və ümidvaram ki, Siz tezliklə yenidən Serbiya Respublikasına səfər edəcəksiniz və hər hansı Avropa ölkəsinə səfəriniz zamanı daim Serbiyada dayanacaqsınız və o, Sizin həmişə məmnunluqla baş çəkəcəyiniz ikinci eviniz olacaq. Mən həmişə Bakıya gələndə, həqiqətən də, çox xoşbəxt oluram. Ümidvaram ki, Sizin baxışınız, bizim və xalqınızın səyləri sayəsində əməkdaşlığımız üçün yeni pəncərə açacağıq.

Mən bu səfərdən, həqiqətən də, çox məmnunam. Bu görüşdən gözləntilərim çoxdur. Həqiqətən də, çox xoşbəxtəm ki, Prezident Əliyevdən bu qədər şey öyrənə bilmişəm. Bildiyiniz kimi, mən nə yerli, nə də beynəlxalq ictimaiyyət qarşısında bu cür sözləri deməkdən çəkinmirəm. Dünyada bir çoxları bilir ki, mən kimisə həddindən artıq tərifləməyi xoşlayan birisi deyiləm. Mən bizim ikimizdən daha böyük və güclü olduğunu düşünənləri belə tərifləmirəm.

Prezident Əliyev, müstəsna qonaqpərvərliyinizə görə təşəkkür edirəm. Mən Serbiya Respublikasına münasibətdə dostluğa görə Azərbaycan xalqına minnətdarlığımı bildirmək istəyirəm. Biz gələcəkdə güclü əlaqələrimizi və güclü dostluğumuzu necə quracağımızı bilirik. Mən inanıram ki, biz bunu ən yaxşı şəkildə xalqlarımızın maraqları naminə edəcəyik. Bir daha təşəkkür edirəm, Prezident Əliyev.

# Serbiya Prezidenti Aleksandar Vuçiçin Azərbaycana işgüzar səfəri

## Qonağın şərəfinə nahar



Dekabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin şərəfinə nahar verilib.

## Müdafiə sənayesi naziri ilə görüş

Dekabrın 21-də ölkəmizdə işgüzar səfərdə olan Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev arasında görüş keçirilib.



## Səfər başa çatdı



**Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin Azərbaycan Respublikasına işgüzar səfəri dekabrın 21-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Serbiya Prezidenti Aleksandar Vuçiçi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola salıblar.

## Heydər Əliyev Mərkəzi ilə tanışlıq

**Azərbaycanda işgüzar səfərdə olan Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç dekabrın 21-də Heydər Əliyev Mərkəzində olub.**

AZƏRTAC xəbər verir ki, ali qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verilib. Qeyd olunub ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Mərkəzin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərinin beynəlxalq aləmdə təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət edir.

Mərkəzdə yaradılmış Heydər Əliyev Muzeyi Serbiya Prezidentinin böyük marağına səbəb olub. Ali qonağın diqqətinə çatdırılıb ki, Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində açılmış bu muzeyin "Fotoşəkillərdə əks olunmuş həyat", "Azərbaycanın ictimai-siyasi həyatı", "Dövlətçilik, irs, nailiyyətlər" adlı bölmələrində Ulu Öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur. Hər bir mövzu üzrə materiallar Azərbaycan və ingilis dillərində təqdim edilir.

Aleksandar Vuçiç mərkəzdə "Azərbaycan inciləri" sərgisi ilə də tanış olub. Bildirilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirilir. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, qədim çalğı alətlərimiz orijinal şəkildə - səsli formada təqdim olunur. Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

Sonra Serbiya Prezidenti mərkəzdəki "Klassik avtomobil sərgisi" ilə tanış olub. Azərbaycan Avtomobil Federasiyasının və mərkəzin birgə layihəsi olan bu sərgidə diqqətə çatdırılıb ki, avtomobilin yarandığı ilk dövrlərdən - XIX əsrin sonlarından başlayaraq Almaniya, ABŞ, İtaliya, Fransa, Böyük Britaniya və keçmiş SSRİ-də istehsal olunmuş avtomobillər nümayiş etdirilir. Ziyarətçilər sərgini izləməklə nəqliyyat vasitələrinin istehsalı tarixinə ekskursiya edir, avtomobil sənayesinin ayrı-ayrı inkişaf mərhələləri ilə tanış olmaq imkanı qazanırlar.

Heydər Əliyev Mərkəzi ilə tanışlıq Serbiya Prezidenti Aleksandar Vuçiçdə xoş təəssürat yaradıb.







## "Çox xoşbəxtəm ki, Prezident Əliyevdən bu qədər şey öyrənə bilmişəm"

*Əvvəli 1-ci səh.*

Ötən ay isə Prezident İlham Əliyevin Serbiyaya rəsmi səfəri zamanı dövlət başçıları "Azərbaycan Respublikası Prezidenti ilə Serbiya Respublikası Prezidenti arasında Birgə Bəyanat"ı, "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandum"u və onun əlavəsi olan "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının Əsasnaməsi"ni imzaladılar.

Dünən Aleksandar Vuçiç ilə təkbətək görüş başa çatdıqdan sonra mətbuata bəyanatında Prezident İlham Əliyev bu barədə deyib: "Bir çox sahələr üzrə əməkdaşlığın artıq böyük tarixi var. İlk növbədə bildirməliyəm ki, Serbiya və Azərbaycan strateji tərəfdaşdırlar, strateji tərəfdaşlığa dair bir neçə sənəd imzalanmışdır. Biz hər zaman bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləmişik, dəstəkləyirik və bu siyasət dəyişməz olaraq qalacaq. Biz beynəlxalq hüququn tərəfdarıyıq və əminik ki, ölkələr arasında münasibətlər ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında tənzimlənə bilər. Bu sahədə dünyada müşahidə olunan ikili standartların təzahürləri, əlbəttə ki, bizi çox narahat edir. Beynəlxalq hüququn norma və prinsipləri bütün ölkələr üçün əsas olmalıdır".

### Ticarət dövriyyəsi artacaq

Azərbaycanla Serbiya arasında əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensial mövcuddur. Bu mənada Serbiya Prezidenti Aleksandar Vuçiçin Azərbaycana etdiyi səfər iki ölkə arasındakı münasibətlərin dərinləşdirilməsi üçün yeni imkanların yaradılması baxımından diqqəti çəkir.

Ötən illərdə iki ölkə arasında ticarət dövriyyəsi artan xətlə inkişaf edib. Hətta Azərbaycan şirkətləri Serbiyada infrastruktur layihələrinin həyata keçirilməsində yaxından iştirak ediblər. Lakin bütün bunlar mövcud potensialı tam əks etdirmir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, əldə edilmiş razılaşmaların icrası nəticəsində ticarət dövriyyəsi artacaq, hələ ki, o, istənilən səviyyədə deyil. İki ölkə arasında müzakirə olunan məsələlərin gələcəkdə ticarət dövriyyəsinin artırılmasına gətirib çıxaracağı şübhəsizdir.

Azərbaycanla Serbiya arasında tərəfdaşlığın bir istiqamətini enerji sahəsində əməkdaşlıq təşkil edir. Bu məsələ Prezident İlham Əliyein ötən ay Serbiyaya rəsmi səfəri zamanı da müzakirə edilmişdi. Daha əvvəl Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində Azərbaycan və Serbiya prezidentləri bir araya gəlmiş və Aleksandar Vuçiç İlham Əliyev haqqında yüksək fikirlər söyləmişdi.

Hazırda "Şahdəniz" yatağından hasil olunan Azərbaycanın təbii qazı "Cənub qaz dəhlizi" vasitəsilə Avropa bazarlarına ixrac olunur. Tezliklə Azərbaycandan Avropaya elektrik enerjisi idxal olunacaq ki, bu da ölkəmizlə Serbiya arasında enerji sahəsində əməkdaşlıqda yeni üfüqlər açacaq.

Eyni zamanda iki dövlət arasında yeni əməkdaşlıq sahələri yaranır. Aleksandar Vuçiçin dediyi kimi: "Söhbət bizim ümumi fəaliyyətimizdən, müdafiə sənayesində texnologiya mübadiləsindən və üçüncü ölkələrin bazarlarına birlikdə çıxara biləcəyimiz bəzi məhsullar üzərində aparılan işdən gedir. Çünki hesab edirəm ki, əgər buna birgə yanaşmamız olsa, Serbiya və Azərbaycan olaraq bizim böyük potensialımız var".

### Azərbaycan xalqının və Prezidentinin səmimi dostu

Bu səfər zamanı Aleksandar Vuçiçin söylədiyi fikirlər bir daha Prezident İlham Əliyevin qlobal miqyasdakı nüfuzunun təsdiqi oldu. Serbiya Prezidentinin İlham Əliyevin barəsində dedikləri Azərbaycan Prezidentinin fəaliyyətinə, dövlətlərarası əməkdaşlığa, aktual əhəmiyyət kəsb edən qlobal məsələlərin həllinə töhfələrinə görə verilən yüksək siyasi dəyərdir. Azərbaycan xalqının və Prezidentinin səmimi dostu olduğunu bildirən Aleksandar Vuçiç bir çox məsələləri öyrəndiyinə görə İlham Əliyevə minnətdarlığını ifadə etdi. "Mən bu səfərdən, həqiqətən də, çox məmnunam. Bu görüşdən gözləntilərim çoxdur. Həqiqətən də, çox xoşbəxtəm ki, Prezident Əliyevdən bu qədər şey öyrənə bilmişəm. Bildiyiniz kimi, mən nə yerli, nə də beynəlxalq ictimaiyyət qarşısında bu cür sözləri deməkdən çəkinmirəm. Dünyada bir çoxları bilir ki, mən kimisə həddindən artıq tərifləməyi xoşlayan birisi deyiləm. Mən bizim ikimizdən daha böyük və güclü olduğunu düşünənləri belə tərifləmirəm", - deyə Serbiya Prezidenti bəyan etdi.

Serbiya Prezidentinin Azərbaycana səfəri uğurla inkişaf edən və bir çox sahələri əhatə edən ikitərəfli əlaqələri daha da inkişaf etdirmək və gələcək perspektiv üçün mühüm əhəmiyyət kəsb edir. Səfərin yekunları deməyə əsas verir ki, iki ölkə arasındakı münasibətlər bundan sonrakı mərhələdə daha da sürətlə inkişaf edəcək, daha uğurlu nəticələrə və perspektivlərə yol açacaq. Çünki prezidentlər səviyyəsində mövcud olan yüksək siyasi dialoq və dostluq münasibətləri həm indi, həm də gələcək illərdə əlaqələrin daha da şaxələnməsinə, müxtəlif sahələri əhatə etməsinə və dərinləşməsinə böyük təsir göstərəcək.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

## Serbiya Azərbaycanla iqtisadi tərəfdaşlıqda maraqlıdır



İqtisadiyyat naziri Mikayıl Cabbarov Serbiyanın Baş nazirinin müavini, maliyyə naziri Sinişa Mali və mədən və energetika naziri Dubravka Djedoviçlə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə qarşılıqlı hörmət və etibarlı tərəfdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Serbiya münasibətlərinin, siyasi-iqtisadi əlaqələrin inkişaf etdiyi vurğulanıb. Qeyd edilib ki, ölkələrimiz arasında çoxşaxəli müqavilə-hüquq bazası yaradılıb. Bu, iqtisadi gündəliyimizin genişlənməsinə və potensialımızın reallaşdırılmasına möhkəm zəmin yaradır. İqtisadiyyat naziri ölkəmizdə aparılan iqtisadi islahatlar barədə məlumat verib, ticarət, investisiya, sənaye, energetika, kənd təsərrüfatı, nəqliyyat, turizm, İKT sahələrində əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu vurğulayıb və bu sahələrdə əlaqələrin genişləndirilməsinə dair fikirlərini bölüşüb.

Serbiyanın Baş nazirinin müavini, maliyyə naziri Sinişa Mali ölkəsinin Azərbaycanla tərəfdaşlıqda maraqlı olduğunu diqqətə çatdırıb, Serbiya-Azərbaycan iqtisadi əməkdaşlığının perspektiv istiqamətləri barədə danışıb.

Serbiyanın mədən və energetika naziri Dubravka Djedoviç Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın həyata keçirdiyi layihələrin əhəmiyyətindən bəhs edib, bu günlərdə Rumıniyada imzalanmış "yaşıl enerji" ilə bağlı sazişin önəmini vurğulayıb.

Tərəflər ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, investisiyaların təşviqi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

## YAP Sədrinin müavini:
# "Türk dövlətlərinin ortaq hədəflərə yönəlik təşəbbüsləri olduqca önəmlidir"





Xəbər verildiyi kimi, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Türk Demokratik Partiyasının dəvəti ilə Şimali Makedoniya Respublikasına səfər edib.

Səfər çərçivəsində YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya parlamentinin deputatı və Şimali Makedoniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Beycan İlyas arasında görüş keçirilib.

YAP-nin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Şimali Makedoniya Türk Demokratik Partiyasının Mərkəzi Qərargahında baş tutan görüşdə Beycan İlyas qarşılıqlı səfərlərin istər ölkələr, istərsə də siyasi partiyalar arasında münasibətlərin inkişafı baxımından önəmli olduğunu vurğulayıb. "Bu ilin may ayında Yeni Azərbaycan Partiyasının dəvəti ilə dost, qardaş Azərbaycana səfərimiz çərçivəsində səmərəli görüşlər keçirdik və qarşılıqlı faydalı əməkdaşlığın möhkəm əsaslarını yaratdıq", - deyən Beycan İlyas YAP ilə Şimali Makedoniya Türk Demokratik Partiyası arasında imzalanmış əməkdaşlıq memorandumundan irəli gələn vəzifələrin yerinə yetirilməsinin ikitərəfli əlaqələrin dərinləşdirilməsi baxımından mühüm əhəmiyyətə malik olduğunu bildirib. Partiya sədri cari ilin noyabr ayında Bakıda Yeni Azərbaycan Partiyasının 30-cu ildönümü ilə əlaqədar keçirilən tədbirdə, eyni zamanda ICAPP-ın xüsusi konfransında iştirakını məmnunluqla xatırladıb, Türk Demokratik Partiyasının YAP ilə əlaqələrin gücləndirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

Dəvətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyası ilə Türk Demokratik Partiyasının əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin Azərbaycan-Şimali Makedoniya münasibətlərinə mühüm töhfə olduğunu vurğulayıb. O qeyd edib ki, 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazanan, işğal faktını aradan qaldıraraq ərazi bütövlüyünü bərpa edən Azərbaycan yeni geostrateji reallıqlar yaradıb və yeni mərhələdə dost, tərəfdaş ölkələrlə münasibətlərin inkişafı üçün ardıcıl addımlar atır. Azərbaycanın tarixi Zəfəri türk dövlətləri üçün də yeni imkanlar və perspektivlər yaradıb. Yeni reallıqlar fonunda türk dövlətlərinin ortaq hədəflərə yönəlik birgə təşəbbüsləri olduqca önəmlidir. Bu kontekstdə türk dövlətlərinin siyasi partiyaları arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi də vacibdir. Yeni Azərbaycan Partiyası ilə Türk Demokratik Partiyası bu reallıqları nəzərə alaraq dostluğa və qardaşlığa əsaslanan münasibətlərin inkişafı istiqamətində ardıcıl addımlar atırlar. "2022-ci il mayın 10-da Yeni Azərbaycan Partiyası və Şimali Makedoniya Türk Demokratik Partiyası arasında imzalanmış əməkdaşlıq memorandumu çoxşaxəli işbirliyinin əsas istiqamətlərini və prioritetlərini müəyyənləşdirən çox önəmli sənəddir. Qarşılıqlı səfərlərin həyata keçirilməsi, fikir və təcrübə mübadiləsinin aparılması və bir sıra digər addımlar isə partiyalararası münasibətlərə dinamizm gətirir", - deyən YAP Sədrinin müavini tərəflərin siyasi iradələri əsasında Yeni Azərbaycan Partiyası ilə Türk Demokratik Partiyasının birlikdə mühüm nailiyyətlərə imza atacaqlarına də inamını ifadə edib.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə edilib.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, Azərbaycan-Şimali Makedoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, YAP İdarə Heyətinin üzvü Musa Quliyev, Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli daxildirlər.

## Əhməd İSMAYILOV: "Laçın-Xankəndi yolunun, guya, bağlanması kimi xəbərlər ölkəmizə qarşı dezinformasiya kampaniyasının son nümunəsidir"

Astanada keçirilən və dünyanın müxtəlif ölkələrindən rəsmilər, media və biznes nümayəndələri, siyasi xadimlər, media azadlığı üzrə müdafiəçilər, beynəlxalq təşkilatların medianın inkişafı üzrə təmsilçiləri, həmçinin müasir dövrün qlobal problemləri üzrə alim və ekspertlər də daxil olmaqla 300-dən çox iştirakçının qatıldığı I Mərkəzi Asiya Media Forumunda Azərbaycan nümayəndə heyəti ilə təmsil olunur.




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyindən (MEDİA) AZƏRTAC-a bildiriblər ki, forumun "Vahid media platformasının formalaşdırılması perspektivləri" mövzusunda keçirilən panel sessiyasında çıxış edən Azərbaycan nümayəndə heyətinin üzvü, MEDİA-nın icraçı direktoru Əhməd İsmayılov ölkələrimiz haqqında həqiqətlərin beynəlxalq media vasitəsilə dünya ictimaiyyətinə obyektiv və düzgün çatdırılması məqsədilə Azərbaycan və Türkiyənin birgə media platformasının yaradıldığını, həmçinin Özbəkistan və Qazaxıstanın analoji qurumları ilə anlaşma memorandumlarının imzalandığını qeyd edib. Vurğulanıb ki, dövlətlərimizə və cəmiyyətlərimizə qarşı yönəlmiş dezinformasiya kampaniyalarına qarşı mübarizə kontekstində ölkələrimizin media qurumları arasında sıx əməkdaşlıq son dərəcə vacibdir.

Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın yolunun, guya, Azərbaycan tərəfindən bağlanması kimi xəbərlərin ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyasının son nümunəsi olduğu diqqətə çatdırılaraq bildirilib ki, reallıqda Azərbaycan vətəndaş cəmiyyətinin fəalları ölkəmizin təbii sərvətlərinin qanunsuz istismarına qarşı etiraz aksiyası keçirir və mülki nəqliyyat vasitələrinin keçməsi üçün hər cür şərait yaradırlar. Vurğulanıb ki, bu həqiqəti beynəlxalq auditoriyaya effektiv şəkildə çatdıra bilmək olduqca əhəmiyyətlidir və bunun üçün birlikdə çalışmalıyıq.

Qeyd edək ki, media forumun əsas müzakirə mövzuları "Yeni medianın inkişafı", "İnformasiya təhlükəsizliyinin təmin edilməsi üçün regional və qlobal əməkdaşlıq imkanları", "Media sahəsində süni intellekt texnologiyaları", "Mərkəzi Asiyada yaradıcı sənayenin inkişafı", "Vətəndaş cəmiyyətinin və biznes əlaqələrinin inkişafında medianın rolu"dur.

# Beynəlxalq forum öz işini uğurla yekunlaşdırıb





Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) və "İdrak" İctimai Birliyinin birgə təşkil etdikləri "Müasir çağırışlar kontekstində MDB ölkələrində islamşünaslıq" mövzusunda beynəlxalq forum öz işini uğurla yekunlaşdırıb.

Bağlanış nitqi ilə çıxış edən Aİİ rektoru Aqil Şirinov ikigünlük forumun önəmli mövzuya həsr olunduğunu qeyd edərək tədbirə qatılan elm adamlarına təşəkkürünü bildirib. O qeyd edib ki, forumun əsas mövzusu və istiqamətlərini özündə ehtiva edən məruzələr - MDB dövlətlərindən və dünyanın bir çox ölkəsindən islamşünaslıq sahəsində tanınmış tədqiqatçı alimlərin çıxışları gələcəkdə kitab şəklində çap olunacaq.

A.Şirinov İslam dünyasında elmin inkişafı, MDB ölkələrində islamşünaslığın mövcud vəziyyəti və onun inkişaf perspektivləri barədə də söhbət açıb. Sovet dövründə ölkəmizdə din siyasəti haqqında danışan Aİİ rektoru müasir Azərbaycanda Ulu Öndər Heydər Əliyevin dövlət-din münasibətləri sahəsində həyata keçirdiyi siyasi kursun hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. A.Şirinov vurğulayıb ki, ölkəmiz dünyada dinlərarası dialoqun və tolerant dəyərlərin mövcud olduğu məkan kimi tanınır.

Digər çıxış edənlər qeyd ediblər ki, "Müasir çağırışlar kontekstində MDB ölkələrində islamşünaslıq" mövzusunda baş tutan beynəlxalq forum müxtəlif millətlərə məxsus olan alimlərlə tanış olmağa fürsət yaratdı.

Tədbirin sonunda qonaqlara hədiyyələr təqdim olundu.

***"Azərbaycan"***

# Azərbaycan ilə Türkiyə arasında hərbi-texniki sahədə əməkdaşlığın inkişafı müzakirə edilib

Türkiyədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar ilə görüşüb.




AZƏRTAC xəbər verir ki, görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib, bu istiqamətdə görülən işlərin daha da genişləndirilməsinin vacibliyi qeyd olunub.

İkitərəfli görüşdə hər iki qardaş ölkənin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrə olduğu kimi, hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etdiyi xüsusi vurğulanıb.

Azərbaycan və Türkiyə arasında qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da müvəffəqiyyətlə inkişaf etdiriləcəyinə və möhkəmlənəcəyinə əminlik ifadə olunub.

# Kayseridə Azərbaycan və Gürcüstan müdafiə nazirləri görüşüblər



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov dekabrın 21-də Türkiyədə Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, ikitərəfli görüşdə ölkələrimizin ərazi bütövlüyünün qarşılıqlı şəkildə dəstəklənməsinin vacibliyi qeyd edilib, ikitərəfli hərbi əməkdaşlığın inkişafının bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunmasına töhfə verəcəyi bildirilib.

Tərəflər Azərbaycan və Gürcüstan arasında müdafiə sahəsində əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini xüsusi vurğulayıblar. Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın müxtəlif sahələri üzrə ətraflı fikir mübadiləsi aparılıb, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib

Dekabrın 21-də Türkiyədə Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyənin milli müdafiə naziri Hulusi Akar və Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze arasında üçtərəfli formatda görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, görüşdə hər üç ölkənin müdafiə nazirləri regionda cərəyan edən hərbi-siyasi vəziyyət, üçtərəfli formatda hərbi əməkdaşlığın inkişaf etdirilməsi, ikitərəfli və üçtərəfli birgə təlimlərin keçirilməsinin vacibliyi, eləcə də regional layihələrin təhlükəsizliyinin təmin olunması məsələlərini müzakirə ediblər.

Sonda kütləvi informasiya vasitələri nümayəndələri üçün mətbuat konfransı keçirilib.

# "Azərbaycan Karyera İnkişaf Forumu" keçirilib






Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə "Azərbaycan Karyera İnkişaf Forumu" keçirilib.

AZƏRTAC xəbər verir ki, "Gələcəyə hazır ol!" devizi ilə keçirilən forumda əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, elm və təhsil naziri Emin Əmrullayev, gənclər və idman naziri Fərid Qayıbov, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Milli Məclisin deputatları, dövlət və özəl qurumların nümayəndələri, karyera məsləhətçiləri, yerli və xarici spikerlər, insan resursları mütəxəssisləri, top menecerlər, təhsil ekspertləri, inkişaf mentorları iştirak ediblər.

Forumda çıxış edən S.Babayev Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkəmizdə son illər aparılan sosial islahatlar, əmək bazarının inkişafı, aktiv məşğulluq proqramlarının genişləndirilməsi üçün atılan addımları diqqətə çatdırıb. O, ölkəmizdə hər il əmək bazarına 100 mindən çox gəncin daxil olduğunu, gənclərin daim yenilənən əmək bazarının tələblərinə uyğun peşə və ixtisaslara yiyələnməsinin, ixtisaslı işçi qüvvəsinin artırılmasının məşğulluq sahəsində mühüm hədəflərdən olduğunu qeyd edib.

Peşəyönümü məsləhət xidmətinin gənclərin əmək bazarı ilə bağlı məlumatlılığının artmasında, onların karyera planlamasında önəmli dəstək olduğu vurğulanıb. Məşğulluq xidmətləri sahəsində innovativ həllərin tətbiqi və rəqəmsallaşdırma işlərindən bəhs olunub. Bu ilin may ayında əmək və məşğulluq sahəsində islahatların yeni mühüm mərhələsinə keçidi təmin edən "Əmək və Məşğulluq" altsisteminin (ƏMAS) istifadəyə verildiyi qeyd olunub.

Bildirilib ki, növbəti mərhələ olaraq ölkəmizin məşğulluq xəritəsi, məşğul şəxslərin ölkə üzrə reyestri, qeyri-formal məşğulluğa nəzarət informasiya ehtiyatı, səyyar yoxlama və monitorinq sistemi, elektron əmək birjası və yarmarkası, ictimai işlər portalı (works.gov.az) və BACAR innovativ platformasının istifadəyə verilməsinə hazırlıq işləri görülür.

Peşəyönümü məsləhət xidməti sahəsində bir sıra yeni layihələrin - "Alo Karyera", "CV yarat", "Bacar" platformalarının önəmi diqqətə çatdırılıb. Peşəyönümü məsləhət xidməti və karyera planlamasının rolunun artırılması istiqamətində işlərin də davam etdirildiyi bildirilib.

Qeyd olunub ki, bu forum peşəyönümü məsləhət xidmətinin önəmini və zəruriliyini hədəf qruplarına çatdırmağa, əmək bazarının mövcud vəziyyəti, gələcəyin ən vacib əmək bacarıqları və onlara yiyələnmək yolları barədə məlumatlığı artırmağa, bu mövzuda dövlət, biznes və qeyri-hökumət sektorları üçün ortaq müzakirə platforması yaratmağa imkan verir.

Forumda Türkiyədən Şule Yalçın, Yavuz Yiğit, Kamil Bayar, ABŞ-dən Brayan Hatçison, İtaliyadan Marqareta Nikolovksa, Macarıstandan Tibor Bors Borbeli - Pecze, eləcə də yerli spikerlər iştirak ediblər.

Forum müddətində spikerlər tərəfindən "Karyera mərkəzlərinin yaratdığı fürsətlər", "Peşəkar karyera mühitində yeni çağırışlar", "İş mühitində davamlı inkişafı necə təmin etməli" panelləri üzrə peşəkar zəmində müzakirələr aparılıb.

Xatırladaq ki, "Azərbaycan Karyera İnkişaf Forumu"nun məqsədi əmək bazarında olan aktual problemlərin həlli istiqamətində peşəkar müzakirələr aparmaq, yeni trendlər və çağırışlar barədə məlumatlılığı artırmaq, karyera planlaması istiqamətində düzgün nəticə çıxarmağa imkan yaratmaqdır.

# "Azərbaycan erməni sakinlərinin humanitar ehtiyaclarını həll etməyə hazır olduğunu dəfələrlə bəyan edib"



Dekabrın 20-də BMT Təhlükəsizlik Şurası (TŞ) Laçın yolunda vəziyyətlə bağlı müzakirələr aparıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın bu qurumdan Azərbaycana qarşı manipulyasiya kampaniyası məqsədilə istifadə etmək cəhdlərinə baxmayaraq, BMT Təhlükəsizlik Şurasındakı müzakirələr Azərbaycanın haqlı narahatlıqlarını, o cümlədən Ermənistanın 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanat çərçivəsində üzərinə götürdüyü öhdəliklərlə bağlı qəsdən, davamlı və düzəldilməyən pozuntularla əlaqədar məsələləri qaldırması, habelə bununla əlaqədar beynəlxalq ictimaiyyətin daha geniş məlumatlandırılması üçün növbəti platforma olub.

Azərbaycan nümayəndəsi öz bəyanatında Laçın yolunun, guya, Azərbaycan tərəfindən bağlanması, erməni sakinlərinə qarşı tətbiq edilən "blokada" və "humanitar fəlakət"lə bağlı Ermənistan tərəfindən irəli sürülən bütün iddiaları rədd edərək, onların tamamilə yalan və əsassız olduğunu bildirib. Bəyanatda nə Azərbaycan hökumətinin, nə də etirazçıların Laçın yolunu bağlamadığı qeyd olunub.

Vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin yolboyu hərəkət rejimi dəyişməz olaraq qalır, həmçinin sülhməramlılar yolboyu hərəkətin tənzimlənməsi üzrə vəzifələrini yerinə yetirməkdə davam edirlər. Sosial şəbəkələrdə paylaşılan videogörüntülər təcili yardım maşınları və humanitar yardım karvanları da daxil olmaqla, müxtəlif növ nəqliyyat vasitələrinin maneəsiz keçidini əks etdirir.

Vəziyyətin iddia edilən humanitar nəticələri ilə bağlı fikirlər də eyni dərəcədə yalandır. Yerli sakinlərin istifadəsi üçün malların tədarükü və ya zəruri tibbi xidmətlərin göstərilməsi ilə bağlı heç bir maneə yoxdur. Fakt budur ki, ötən günlərdə Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) avtomobil karvanları heç bir maneə olmadan yoldan keçib.

Azərbaycan hökuməti dəfələrlə erməni sakinlərinin üzləşə biləcəyi bütün humanitar ehtiyacları operativ şəkildə həll etməyə hazır olduğunu bəyan edib. Bundan irəli gələrək Azərbaycan hökuməti BQXK-nin yerli nümayəndəliyi ilə sıx əlaqədədir.

BMT TŞ-nin iclasında Azərbaycan nümayəndə heyəti ölkəmizin bir qrup vətəndaş cəmiyyəti nümayəndəsinin Azərbaycanın təbii sərvətlərinin qeyri-qanuni istismarına etiraz olaraq sülhməramlı kontingentin müvəqqəti yerləşdirildiyi ərazidə nümayiş keçirməsinə səbəb olan hadisələrin gedişatı barədə ətraflı məlumat verib.

Azərbaycan hökuməti dialoq yolu ilə ərazidə faydalı qazıntı yataqlarının qeyri-qanuni istismarının, o cümlədən ağır ekoloji nəticələrin aradan qaldırılması üçün bir sıra addımlar atıb. Dekabrın 3-də və 7-də Azərbaycanın müvafiq qurumları ilə Rusiya sülhməramlı kontingentinin komandanlığı arasında "Qızılbulaq" və "Dəmirli" yataqlarının qeyri-qanuni istismarının ekoloji nəticələrinin monitorinqi və qiymətləndirilməsi üçün azərbaycanlı mütəxəssislərin yerində baxış keçirməsi şərtlərinin müəyyən edilməsi məqsədilə görüşlər keçirilib. Görüşlərdə yerli erməni nümayəndələri də iştirak ediblər və azərbaycanlı mütəxəssislər tərəfindən bu cür fəaliyyətlərin yol xəritəsi ilə bağlı razılıq əldə olunub.

Əldə olunmuş razılaşmanın ardınca azərbaycanlı mütəxəssislərdən ibarət heyətin sülhməramlılar tərəfindən təşkil olunmuş səfərinə bir qrup şəxsin əvvəlcədən planlaşdırılmış addımları nəticəsində maneə törədilib. Bu, Azərbaycan ictimaiyyətinin haqlı etirazına səbəb olub. Beləliklə, bir qrup vətəndaş cəmiyyəti nümayəndələri buna etiraz edərək Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarı, bu sərvətlərin Azərbaycandan Ermənistana daşınması və yalnız humanitar məqsədlər üçün nəzərdə tutulmuş Laçın yolundan sui-istifadə hallarının qarşısının alınması tələbi ilə Laçın yolunda dinc nümayişə başlayıblar.

Təbii sərvətlərin qeyri-qanuni istismarı Azərbaycanın milli qanunvericiliyi və müvafiq beynəlxalq sənədlərə əsasən yolverilməz olmaqla yanaşı, ətraf mühitlə bağlı müvafiq standartlara tamamilə məhəl qoyulmadan həyata keçirilir, bununla da ekoloji sistemə ciddi və bərpaolunmaz ziyan vurulur. Bu həmçinin özəl xarici şirkətin Azərbaycan hökuməti ilə bağladığı müvafiq müqavilələrə əsasən, sözügedən faydalı qazıntı yataqlarını istismar etmək hüquqlarını pozur. Müqaviləyə əsasən faydalı qazıntı yataqlarını istismar etmək hüququ yalnız bu xarici şirkətə məxsusdur.

Bu bütün Azərbaycan cəmiyyəti üçün haqlı və əsaslı narahatlıq mənbəyidir. Ona görə də Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatlarının müxtəlif seqmentləri, eləcə də sadə vətəndaşlar haqlı olaraq Azərbaycan xalqının milli sərvətlərinin talan edilməsinin qarşısının alınmasını, ətraf mühitə dəymiş ziyanın müvafiq mütəxəssislər tərəfindən monitorinqinin aparılmasını tələb edirlər.

Bu Ermənistanın hərbi əməliyyatların dayandırılması və bütün silahlı birləşmələrinin Azərbaycan ərazisindən çıxarılması ilə bağlı öhdəliklərinin davamlı olaraq yerinə yetirilməməsi ilə yanaşı, Laçın yolundan qeyri-qanuni hərbi və digər fəaliyyətlər üçün sui-istifadəni, o cümlədən Azərbaycanın resurslarının qeyri-qanuni daşınmasında istifadəni əhatə edir. Üçtərəfli Bəyanata zidd olaraq Ermənistan Azərbaycan ərazisində qeyri-qanuni hərbi fəaliyyətlər həyata keçirərək öz qüvvələrini ərazilərimizdən tam çıxarmamaqla yanaşı, 2021-ci ildə Ermənistanda istehsal edilmiş minalar da daxil olmaqla, Azərbaycan ərazisində piyada əleyhinə çox sayda mina yerləşdirməyi davam etdirir. Bu da yalnız keçmiş təmas xətti boyunca deyil, digər ərazilərdə də mina qurbanlarının sayının artmasına səbəb olur. Nəticədə Vətən müharibəsinin başa çatmasından bu günədək 276 vətəndaşımız mina partlayışlarının qurbanı olub, onlardan 2-si jurnalist olmaqla, 46 nəfər həyatını itirib. Həlak olan 46 nəfərdən 35-i mülki şəxsdir.

Qeyd olunmalıdır ki, BMT TŞ-yə üzv dövlətlərin demək olar bütün bəyanatlarında üçtərəfli Bəyanat üzrə öhdəliklərin yerinə yetirilməsinə dair çağırış olub. Ermənistanın sözügedən sənədi açıq-aşkar pozduğunu nəzərə alaraq, BMT TŞ-nin üzvlərinin bu cür çağırışları, nəhayət, Ermənistan tərəfindən eşidilməli və onlara əməl olunmalıdır.

Münasibətlərin normallaşdırılması məqsədilə Ermənistan ilə Azərbaycan arasında danışıqların davam etdirilməsi üçün BMT TŞ-nin üzvlərinin əksəriyyətinin çağırış etdiyini vurğulamaq da xüsusi əhəmiyyət kəsb edir. Biz bu prosesin əsası kimi, o cümlədən sərhədlərin delimitasiyası kontekstində Ermənistan və Azərbaycan tərəfindən suverenliyin və ərazi bütövlüyünün qarşılıqlı tanınması ilə bağlı çağırışları yüksək qiymətləndiririk.

Məhz Azərbaycan münaqişənin sona çatmasından sonrakı ilk gündən etibarən davamlı olaraq Ermənistanla münasibətlərin bu əsasda normallaşmasının tərəfdarıdır. BMT TŞ-də bununla bağlı çağırışlar Azərbaycanın münaqişədən sonrakı normallaşma gündəliyinin daha geniş beynəlxalq ictimaiyyət tərəfindən qəbul edildiyini göstərir.

Eyni zamanda BMT TŞ-yə üzv olan bəzi dövlətlərin qərəzli, birtərəfli mövqe nümayiş etdirməkdən çəkinməməsi dərin məyusluq doğurur. Azərbaycan ərazisinin bir hissəsinə münasibətdə yanlış istinad edilməsi xüsusi narahatlıq mənbəyidir.

Müzakirələr zamanı bildirildiyi kimi, Azərbaycan belə istinadları öz daxili işlərinə qarışma, habelə coğrafi adların istifadəsi ilə bağlı BMT-nin müvafiq tələblərinin pozulması kimi rədd edir. Azərbaycan bir daha həmin dövlətləri BMT Nizamnaməsinə və beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə əməl etməyə, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş hər hansı bəyanatlardan çəkinməyə çağırır.

BMT TŞ-nin iclasında qeyd edildiyi kimi, Azərbaycan regional sülh, sabitlik və inkişafa sadiqdir. Azərbaycanın bununla bağlı mövqeyi aydın, prinsipial və ardıcıldır, beynəlxalq hüquqa və formalaşmış beynəlxalq təcrübəyə əsaslanır.

Bəyanatda deyilir: "Biz Azərbaycanın təklifinə cavab verməyə, siyasi və hərbi təxribatlarını dayandırmağa, təcavüzkar ritorikasından və hərəkətlərindən əl çəkməyə, Azərbaycan ilə Ermənistan arasında dövlətlərarası münasibətlər çərçivəsinə daxil olan bütün məsələlərin sülh yolu ilə diplomatik həllini tapması üçün Ermənistanı birbaşa danışıqlara xoş niyyətlə yanaşmağa inandırmaq məqsədilə beynəlxalq ictimaiyyətə bir daha çağırış edirik".

# Ermənistan beynəlxalq hüququn prinsiplərini pozduğunu bildiyi halda xislətindən əl çəkmir



İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan qonşu ölkələrlə, o cümlədən Ermənistanla münasibətlərinin beynəlxalq hüququn prinsipləri əsasında qurulmasının və tənzimlənməsinin tərəfdarı olduğunu nümayiş etdirir. Lakin eyni zamanda Ermənistanın təcavüzünü və 30 ilə yaxın müddətdə davam edən işğalçılıq siyasətinin beynəlxalq hüququn əsas prinsipləri baxımından qiymətləndirilməsinin zəruriliyini vurğulamağı da unutmur.

Beynəlxalq hüququn əsas prinsipləri BMT-nin Nizamnaməsində Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə 1975-ci il Konfransının Yekun Aktında və digər mənbələrdə öz əksini tapıb. Azərbaycanın dövlət olaraq öz münasibətlərini beynəlxalq hüquq normaları əsasında qurması isə ölkə Konstitusiyasında göstərilib. Belə ki, Konstitusiyanın 10-cu maddəsi beynəlxalq münasibətlərin prinsipləri adlanır. Həmin maddədə qeyd edilmişdir ki, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Müqayisə etsək görərik ki, Ermənistanın konstitusiyasında da eyni məzmunlu 13-cü maddə var. Buna baxmayaraq, Azərbaycan Ermənistanın təcavüzü məsələsinə beynəlxalq hüququn prinsipləri çərçivəsində baxılmasını tələb etdiyi halda, Ermənistan tərəfi "xalqların öz müqəddəratını təyinetmə" prinsipinə istinad edərək təcavüzkar müharibənin səbəblərini və nəticələrini öz üzərindən atmağa çalışır.

Təcavüzkarlığın nə olduğunu bilmək üçün 1907-ci il Haaqa Konvensiyalarına nəzər salmaq kifayətdir. Konvensiyanın 42-ci maddəsində təcavüzün anlayışı verilib. Həmin anlayışa əsasən, (red. bir dövlətə məxsus) ərazinin faktiki olaraq düşmən ölkənin ordusunun nəzarəti altında olması işğal sayılır. Amma bu da hələ hamısı deyil, ölkəmizə qarşı təcavüzün məhz Ermənistan tərəfindən edilməsinin digər sübutları da var. Məsələn, Azərbaycan ərazisinə silahlı qüvvələrin Ermənistan ərazisindən daxil olması və Ermənistandan əmr, göstəriş, təlimat alması, əlavə köməkçi dəstələrin Ermənistan ərazisindən gəlməsi, Azərbaycan ərazisində vuruşan hərbçilərin Ermənistan vətəndaşı olması, müharibədə yaralanan Ermənistan vətəndaşlarının müalicə üçün Ermənistana qaytarılması, azərbaycanlı əsirlərin Ermənistana aparılması və s.

Cenevrədə yerləşən Qırmızı Xaç Beynəlxalq Təşkilatının Hüquq şöbəsinin hüquq məsləhətçisi Tristan Ferraro özünün "Beynəlxalq humanitar hüquqda işğalın başlanmasının və bitməsinin anlayışı" adlı məqaləsində işğal və təcavüz məsələsinə aydınlıq gətirmişdir. Bu məqaləyə istinad edərək deyə bilərik ki, Azərbaycan tərəfi sözügedən müharibədə beynəlxalq hüququn daha çox prinsipinə istinad edə bilir. Belə ki, Azərbaycan rəsmiləri sözügedən müharibənin beynəlxalq hüququn dövlət sərhədlərinin toxunulmazlığı və dövlətlərin ərazi bütövlüyü prinsipləri çərçivəsində həll edilməsini istəyir.

Ermənistan tərəfi isə elan edilmədən müharibəni başlamaqla beynəlxalq hüququn bir çox prinsiplərini pozub. Misal olaraq "güc tətbiq etməmək və güc tətbiq etməklə hədələməmək" prinsipini göstərmək olar. Ermənistanın kobud surətdə pozduğu digər prinsip "beynəlxalq mübahisələrin sülh yolu ilə həlli" prinsipidir. Bu prinsipi xüsusi vurğulamaq lazımdır. Çünki həmin prinsip həm də Azərbaycanın Konstitusiyasında qeyd edilib. Konstitusiyamızın 9-cu maddəsi Silahlı Qüvvələr adlanır. Bu maddənin 2-ci bəndinə əsasən, Azərbaycan Respublikası beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir. Bu da öz növbəsində ən Ali Qanunda dövlətimizin və onu qəbul etmiş cəmiyyətin tutduğu mövqeyi göstərir.

Ermənistanın Konstitusiyasının 14-cü maddəsi silahli qüvvələr və müdafiə adlanır. Müqayisə üçün bildirək ki, Ermənistanın konstitusiyasının həmin maddəsində bu dövlətin beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd etməsi təsbit edilməyib.

Bu yerdə vurğulamaq yerinə düşər ki, Azərbaycan ərazisində yaşayan ermənilərin silahlanmasının və separatçılıq meyillərinin baş qaldırmasının səbəblərindən biri də Ermənistan tərəfindən beynəlxalq hüququn "dövlətlərin daxili işlərinə aid olan məsələlərə qarışmamaq" prinsipini pozmasıdır. Ermənilərin separatçılıq çağırışları və hərəkətləri başlayarkən onlar guya azərbaycanlılarla birgə yaşamağın mümkün olmadığını vurğulayırdılar. Halbuki erməni milliyyətinin nümayəndələri Azərbaycan SSR-in iqtisadi, sosial və digər sahələrində təmsil olunurdular.

"Dövlətlərin bir-biri ilə əməkdaşlıq etməsi öhdəliyi" prinsipi də Ermənistan tərəfindən pozulur. Belə ki, son dövrdə Azərbaycan və Ermənistan arasında sərhədlərin dəqiqləşdirilməsi və çəkilməsi məsələsi aktual olduğu halda, bu prinsipin pozulması prosedurun gedişində ləngimələr və yayınmalarla müşahidə olunur.

Ermənistan tərəfinin həvəslə qabartdığı "xalqların öz müqəddəratını təyinetmə" prinsipinə gəldikdə deməliyik ki, erməni xalqı artıq bu prinsipdən bir dəfə istifadə edib və Ermənistan Respublikası adlı dövlətini yaradıb. Beynəlxalq hüquqa görə, öz müqəddəratını təyinetmə prinsipindən, adətən, hər xalq bir dəfə istifadə edir. Əgər dünyadakı xalqlar müxtəlif vaxtlarda və ərazilərdə bu prinsipdən təkrar-təkrar istifadə edərək özünə dövlətlər yaratsalar, bu hal dünyada qarşısı alınmaz xaosa və zəncirvarı olaraq beynəlxalq hüququn bütün digər prinsiplərinin pozulmasına səbəb ola bilər. Deməli, 1980-ci illərin sonlarından başlayaraq Ermənistan SSR, daha sonra isə Ermənistan Respublikası beynəlxalq hüququn əsas prinsiplərini pozmuş, "xalqların öz müqəddəratını təyinetmə" prinsipinə istinad edərək təcavüzkar, separatçı siyasətini pərdələməyə çalışmışdır.

***Vüsalə MURADXANLI,***
***hüquqşünas,***
***Azərbaycan Vəkillər Kollegiyasının üzvü***

# Ermənistanın BMT-dəki nümayəndəliyi tərəfindən Azərbaycana qarşı irəli sürülən bütün iddiaları rədd edirik

Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev Nyu Yorkda BMT Təhlükəsizlik Şurasının iclasında çıxış edib.

AZƏRTAC xəbər verir ki, daimi nümayəndə çıxışında Ermənistanın dövlət tərəfindən idarə olunan manipulyasiya, təhrif və saxtakarlıq kampaniyasına görə Təhlükəsizlik Şurasından sui-istifadə etməsindən dərin təəssüf hissi keçirdiyini bildirib. Yaşar Əliyev Ermənistanın BMT yanında daimi nümayəndəliyinin Azərbaycana qarşı irəli sürdüyü bütün iddiaları qətiyyətlə rədd edib, bunların tamamilə yalan, əsassız olduğunu bildirib.

Daimi nümayəndə deyib ki, Ermənistanın və şuranın bəzi üzvlərinin səhvən "Dağlıq Qarabağ" adlandırdıqları Qarabağ Azərbaycanın 30 ilə yaxın müddətdə erməni işğalı altında olan beynəlxalq səviyyədə tanınmış suveren regionudur və bu, Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrində bir daha təsdiq edilib. Azərbaycanın bu ərazisinin hüquqi adı hazırda Qarabağ iqtisadi rayonu və ya qısaca ekvivalenti ilə Qarabağ bölgəsidir. Laçın yolu ətrafındakı vəziyyətə gəlincə, Y.Əliyev bir daha xatırladıb ki, Azərbaycan Ermənistanın bütün iddialarını qətiyyətlə rədd edir. Laçın yolu tamamilə Azərbaycanın ərazisində, Laçın rayonunda yerləşir. Bu rayon 1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. 77 mindən çox sakini olan Laçın rayonunun əhalisi öz yurdlarını və evlərini tərk etmək məcburiyyətində qalıb, şəhər və ətraf kəndlər Ermənistan ordusu tərəfindən talan edilərək yandırılıb.

Diqqətə çatdırılıb ki, iki il əvvəl 44 günlük müharibədən sonra üçtərəfli Bəyanatın 6-cı bəndinə uyğun olaraq, Laçın rayonu Azərbaycana qaytarılarkən dövlətimiz Laçın yolunda hərəkət edən insanların, nəqliyyat vasitələrinin və yüklərin təhlükəsizliyinə zəmanət verib.

"Nə Azərbaycan hökuməti, nə də etirazçılar Laçına gedən yolu bağlayıblar. Marşrut boyu vətəndaşların, malların və nəqliyyat vasitələrinin hərəkəti ilə bağlı rejim dəyişməz olaraq qalır, sülhməramlılar isə marşrutun mühafizəsi ilə bağlı üzərinə düşən vəzifələri yerinə yetirməkdə davam edirlər. Sosial şəbəkələrdə paylaşılan videogörüntülərdə təcili yardım maşınları və humanitar yardım karvanları da daxil olmaqla, müxtəlif növ avtomobillərin maneəsiz keçidi əks olunub. Üçtərəfli Bəyanata əsasən, Laçın yolunun müstəsna olaraq humanitar məqsədlər üçün istifadə edilməsi nəzərdə tutulur. Yoldan hər hansı digər məqsədlər üçün, o cümlədən qeyri-qanuni hərbi fəaliyyətlər, məsələn, minaların basdırılması və ya Azərbaycanın təbii sərvətlərinin qeyri-qanuni dövriyyəsi üçün sui-istifadə üçtərəfli Bəyanatın şərtlərinin pozulmasıdır və buna yol verilə bilməz", - deyə daimi nümayəndə vurğulayıb.

Y.Əliyev əminliklə bildirib ki, Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə, beynəlxalq hüquqa uyğun olaraq öz suverenliyini və ərazi bütövlüyünü, vətəndaşlarının hüquq və təhlükəsizliyini bütün mümkün vasitələrlə müdafiə etməkdə davam edəcək. Vəziyyətin iddia edilən humanitar nəticələri ilə bağlı fikirlər də əsassızdır. Bölgədə yerli əhalinin istifadəsi üçün malların tədarükü və ya əsas səhiyyə xidmətlərinin göstərilməsi baxımından heç bir maneə yoxdur. Bu, Ermənistanın açıq-aşkar pis niyyətli siyasi məqsədlər üçün manipulyasiyasının növbəti təzahüründən başqa bir şey deyil.

Diplomat əlavə edib ki, Ermənistan iki ildən artıqdır 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın 4-cü bəndini pozaraq Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindən silahlı qüvvələrini və qeyri-qanuni silahlı birləşmələri tamamilə çıxarmaqdan imtina edir və orada qanunsuz hərbi fəaliyyətlərini davam etdirir. Ermənistan beynəlxalq hüququn və üçtərəfli Bəyanatın bəndlərini pozaraq, Laçın yolunun humanitar əhəmiyyəti barədə fərziyyələr irəli sürməklə yanaşı, həm də ondan hərbi məqsədlər, o cümlədən silahlı qüvvələrin şəxsi heyətinin rotasiyası və silahların bu bölgəyə ötürülməsi üçün fəal istifadə edir. Tərəflərin bütün hərbi əməliyyatlara son qoymağı öhdəsinə götürdüyü üçtərəfli Bəyanatın 1-ci bəndini pozan Ermənistan nəinki Azərbaycan ərazisinə yerləşdirdiyi yüz minlərlə mina xəritələrini bölüşməkdən imtina edir, hətta münaqişədən sonrakı dövrdə də Azərbaycan ərazisinə yeni minalar basdırmaqda davam edir. Belə ki, bu ilin avqust ayından etibarən Azərbaycanın suveren ərazisində 2021-ci ildə Ermənistanda istehsal olunan 2700-dən çox mina aşkar edilib.

Ötən çərşənbə günü Azərbaycanın Kəlbəcər rayonunda minanın partlaması nəticəsində 7 nəfər yaralanıb, 1 nəfər həlak olub. İnsidentin baş verdiyi ərazi köhnə təmas xəttindən çox uzaqda olub və Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonundan çıxarkən orada minalar yerləşdirilib. Üçtərəfli Bəyanatın imzalanmasından sonra ümumilikdə 276 Azərbaycan vətəndaşı minaların qurbanı olub, onlardan 46 nəfər, o cümlədən 35 mülki şəxs həlak olub. Məqsəd bəllidir - Ermənistan Azərbaycanın yenidənqurma səylərinin və yüz minlərlə məcburi köçkünün öz evlərinə qayıtmasının qarşısını almaq üçün bütün vasitələrdən istifadə etməyə çalışır.

Yaşar Əliyev deyib ki, Ermənistan Azərbaycanın tarixi torpaqlarında olan təbii sərvətlərinin qeyri-qanuni istismarı ilə yanaşı, bölgədə ekoloji terror törədib. "Ermənistan Laçın yolundan istifadə edərək Azərbaycan ərazisində olan faydalı qazıntı yataqlarını talan edir. Ermənilərin beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq, Azərbaycanın əvvəllər işğal olunmuş ərazisində genişmiqyaslı qanunsuz iqtisadi fəaliyyət həyata keçirmələrinə dair təkzibedilməz, yaxşı sənədləşdirilmiş sübutlar dəfələrlə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılıb. Bu torpaqlarda işğala qədər müəyyən edilmiş 151 faydalı qazıntı yatağından 52-si ilk dəfə 1993-2020-ci illərdə istismar edilib. Suveren dövlətin təbii sərvətlərinin qeyri-qanuni istismarı ilə yanaşı, mədən və karxana əməliyyatları kifayət qədər ekoloji nəzarət olmadan, tullantı sularının təmizlənməsi və ərazinin rekultivasiyası, ekoloji texniki standartlara əməl edilmədən aparılmışdır", - deyə daimi nümayəndə diqqətə çatdırıb.

Azərbaycanın regional sülhə, sabitliyə və inkişafa sadiq olduğunu deyən Y.Əliyev bildirib. Diplomat əlavə edib ki, Ermənistan ilə Azərbaycan arasında mehriban qonşuluq münasibətlərinin yaradılması tamhüquqlu regional normallaşma yolu ilə təhlükəsiz, sabit və firavan Cənubi Qafqazın qurulmasının açarıdır. Azərbaycanın bununla bağlı mövqeyi aydın, prinsipial və ardıcıldır, beynəlxalq hüquqa və beynəlxalq təcrübəyə əsaslanır. Məhz Azərbaycan münaqişənin başa çatmasından dərhal sonra Ermənistanla dövlətlərarası münasibətlərin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində bir-birinin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı tanınması və hörmət əsasında, o cümlədən sülh müqaviləsinin imzalanması yolu ilə normallaşdırılması prosesinə başlayıb.

# Azərbaycan Ermənistanla bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etdi

Azərbaycan hökuməti işğaldan azad edilmiş ərazilərdə azərbaycanlıların insan hüquqlarının kobud şəkildə pozulmasına görə Ermənistana qarşı Avropa İnsan Hüquqları Məhkəməsinə (AİHM) müraciət edib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan 2022-ci ilin may-avqust aylarında Ermənistanın Laçın şəhərini və iki qonşu kəndi tərk etməsi zamanı əmlakın, o cümlədən yüzlərlə mülki evin və digər yaşayış sahələrinin qəsdən və məqsədyönlü şəkildə dağıdılmasına dair bir sıra sübutlar təqdim edib.

Sözügedən ərazilərdə effektiv nəzarəti həyata keçirməsinə baxmayaraq, Ermənistan hökuməti bu genişmiqyaslı dağıntıların qarşısını almaq üçün heç bir addım atmayıb. Azərbaycan tərəfi həmçinin Ermənistan rəsmilərinin "yandırılmış torpaq" siyasətində fəal iştirak etdiklərinə dair sübutların da şahidi olub.

Ermənistan hökuməti Laçın yolunda sistematik insan hüquqları pozuntuları törədib. Yenicə aşkar olunmuş dəlillər göstərir ki, Ermənistan silahlı qüvvələri 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, tərk etməli olduqları ərazilərdə minalar, habelə mülki evlərdə mina tələləri yerləşdirməkdə davam edirlər. Buna üçtərəfli Bəyanatın birmənalı pozuntusu olaraq Ermənistanda 2021-ci ildə istehsal olunmuş və Laçın yolu vasitəsilə Azərbaycana gətirilmiş minalar daxildir.

Ermənistanın "yandırılmış torpaq" siyasəti çərçivəsində evlərin dağıdılması, qəsdən və spesifik olaraq mülki əmlaklarda partlayıcı qurğuların yerləşdirilməsi ilə birlikdə, məcburi köçkün ailələrin və icmaların 30 il bundan əvvəl Ermənistanın qeyri-qanuni işğalı nəticəsində tərk etməyə məcbur olduqları keçmiş evlərinə və torpaqlarına qayıtmasının qarşısını alır.

Ermənistan hökumətinin hərəkətləri azərbaycanlıların şəxsi və ailə həyatı, hərəkət azadlığı, mülk və əmlakdan dinc istifadə hüququnun pozulmasıdır. Ermənistan hökumətinin hərəkətsizlik və yardım siyasəti ayrı-seçkiliyin qadağasının, eyni zamanda münaqişənin başlamasından sonra Azərbaycanın müvəqqəti tədbirlər üçün müraciəti ilə bağlı Ermənistanın mülki əraziləri hədəf almasına mane olan AİHM-in 2020-ci ildə qəbul etdiyi müvəqqəti tədbirlərin pozulması deməkdir.

Azərbaycan insan hüquqlarının kobud şəkildə pozulması nəticəsində dəymiş ziyana görə kompensasiya, reparasiya, restitusiya, digər xərclərin qarşılanmasını tələb edir.

Azərbaycan beynəlxalq insan hüquqlarının davamlı və məqsədyönlü şəkildə pozulmasına görə Ermənistan hökumətinin məsuliyyətə cəlb edilməsi üçün səylərini davam etdirəcək.

# Etik müvəkkil vəzifəsi təsis ediləcək



Dekabrın 21-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, gündəliyin ilk 7 məsələsi - Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin və azad edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi, Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin və azad edilməsi, Gəncə Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi, Sumqayıt Apellyasiya Məhkəməsi hakimlərinin təyin və azad edilməsi, Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin və azad edilməsi, Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin və azad edilməsi haqqındadır.

Məsələlər barədə məlumat verən Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri Cavid Hüseynov bildirib ki, Azərbaycanda uğurla həyata keçirilən məhkəmə islahatlarının ən mühüm elementlərindən biri hakim kadrların təyinatıdır. Ölkə Prezidentinin fərmanı ilə iş yükünün çoxluğu nəzərə alınaraq, hakimlərin sayı 200 ştat vahidi artırılıb və bu gün həmin hakimlərin seçimi intensiv surətdə həyata keçirilir. Artıq 83 hakimin təyinatı aparılıb, 40 nəfər təyinat ərəfəsindədir, 250-yə yaxın hakimliyə namizəd seçim prosesinin müxtəlif mərhələlərindədir. Yeni təyin olunan hakimlərin təxminən 50 faizə qədərini qadınlar təşkil edirlər.

Cavid Hüseynov qeyd edib ki, hakimlərin seçilmə qaydası 2021-ci ilin martında təsdiq edilib və ötən dövr ərzində 300-dən çox hakimin fəaliyyəti qiymətləndirilib. Fəaliyyətində fərqlənən 50-yə yaxın hakim vəzifələrində irəli çəkilib, 60-a qədər hakim isə Milli Məclisin müvafiq qərarları ilə ali və apellyasiya məhkəmələrinə təyin edilib. O, hakimlərin fəaliyyətinin hərtərəfli qiymətləndirilməsinin son nəticələrinə əsasən, bu gün komitənin müzakirəsinə təqdim olunan hakimlərin ali və apellyasiya məhkəmələrinə irəli çəkilməsi, təyin olunması, həmçinin apellyasiya məhkəmələri çərçivəsində iş yerinin dəyişdirilməsi və apellyasiya məhkəmələrindən birinci instansiya məhkəmələrinə keçirilməsi ilə bağlı məsələlər barədə iclas iştirakçılarına ətraflı məlumat verib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini Qüdrət Həsənquliyev, deputat, Məhkəmə-Hüquq Şurasının üzvü Nizami Səfərov, deputatlar Azay Quliyev, Elşən Musayev, Fəzail Ağamalı, Tahir Kərimli, Əminə Ağazadə, Bəhruz Məhərrəmov, Erkin Qədirli müzakirə olunan məsələlər barəsində fikirlərini bildiriblər, qeyd və təkliflərini veriblər.

Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri Cavid Hüseynov səsləndirilən fikirlərə münasibət bildirəndən sonra iclasın ilk 7 məsələsi ilə bağlı qərar layihələri baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra gündəliyin 8-ci, 9-cu və 10-cu məsələləri barədə komitənin üzvü Nizami Səfərov məlumat verib. O bildirib ki,"Məhkəmələr və hakimlər haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin I hissəsinə uyğun olaraq, "Məhkəmələr və hakimlər haqqında" qanunun 93-cü maddəsində də hakim vəzifəsinə namizədlər üçün tələblərdə yaş senzinin ləğvi təklif olunub.

Bundan başqa, "Məhkəmələr və hakimlər haqqında" qanunun 96-cı maddəsinə ("Hakimlərin səlahiyyət müddəti") əsasən, hakim vəzifəsinə hakimlər ilk dəfə üç il müddətinə təyin olunurlar və bu müddətin sonunda hakimlərin fəaliyyəti qiymətləndirilir. Qiymətləndirmənin nəticələrinə əsasən, birinci instansiya məhkəməsinin hakimi işləmiş şəxsin yuxarı instansiya məhkəməsinə təyin olunmasına dair qərar qəbul oluna bilər. Bununla əlaqədar olaraq, "Məhkəmələr və hakimlər haqqında" qanunun 94-cü maddəsindəki "5 il" sözlərinin "3 il" sözləri ilə əvəz edilməsi, eləcə də "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 64.4-cü maddəsinə əsasən, "bir qayda olaraq" sözlərinin çıxarılması təklif olunur.

Gündəliyin 9-cu məsələsi olan "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), əsasən texniki xarakter daşıyır və Dövlət Qulluğunu İdarəetmə Şurasının fəaliyyətinin təkmilləşdirilməsinə xidmət edir.

"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində (birinci oxunuş) dövlət orqanlarında etik davranış qaydalarının tətbiqi, bu sahədə maarifləndirmə və mübahisələrin həllinə məsul olan etik müvəkkil vəzifəsi təsis edilməklə, müvəkkilə aid tələblər və onun səlahiyyətləri müəyyən olunur.

Gündəliyin digər məsələləri ilə bağlı məlumatı iclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim edib. O bildirib ki, gündəliyin 11-ci məsələsi olan "Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) "Azərbaycan Ali Məhkəməsinin 100 illiyi" medalın təsisi məsələlərini tənzimləyəcək. 12-ci məsələ olan Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) əcnəbilərin və ya vətəndaşlığı olmayanların yerli İT şirkətlərdə işləməsi üçün iş icazəsi almaqdan azad edilməsi ilə bağlı hazırlanıb.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində (üçüncü oxunuş) mobil cihazın qeydiyyatının aparılmasından yayınmağa görə inzibati məsuliyyət müəyyən edilməsi təklif olunub.

Gündəliyin 14-cü məsələsi olan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində (üçüncü oxunuş) Azərbaycan Respublikasında radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması qaydalarının pozulması ilə bağlı inzibati məsuliyyət müəyyən edilib.

Son məsələ olan Əmək Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi (üçüncü oxunuş) "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli Qanununun icrası ilə əlaqədar hazırlanıb.

Layihələrin müzakirəsində Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini Qüdrət Həsənquliyev, Erkin Qədirli, Fəzail Ağamalı, Tahir Kərimli, Bəhruz Məhərrəmov, Azay Quliyev, Nizami Səfərov çıxış edərək fikirlərini bildiriblər.

Müzakirələrin sonunda qanun layihələrinin hamısı baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin iclası olub

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) İcraiyyə Komitəsinin (İK) iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, qurumun vitse-prezidenti Çingiz Hüseynzadə İK-nin iclasının iştirakçılarını gündəlikdəki məsələlərlə tanış edib. İcraiyyə Komitəsinin gündəliyindəki məsələlər 2022-ci ilin idman yekunları, 2023-cü ilin idman tədbirləri haqda fikir mübadiləsi aparıldıqdan sonra MOK-nin 30 illik yubiley tədbirləri haqqında xüsusi təqdimatı iclas iştirakçılarının diqqətinə çatdırıb. Cari məsələlərin müzakirəsindən sonra dövlət tərəfindən verilmiş mükafatların təqdimatı keçirilib. Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin yaradılmasının 30 illik yubileyi münasibətilə və idmanın inkişafında xidmətlərinə görə Zemfira Meftahəddinova, Rəfiqə Şabanova, Xəzər İsayev, Nazir Rəhimov Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu, Murad Fərzəliyev və Mehman Kərimov "Tərəqqi" medalı ilə təltif olunublar. Nazim Hüseynov və Vaqif Əliyevə isə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilib. İdmanının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunan Ağacan Abıyev də təltif olunanlar sırasında idi.

# Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Forumu Şuşada yekunlaşıb

Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Forumunun ikinci günü ölkəmizin mədəniyyət paytaxtı Şuşada davam edib.



AZƏRTAC xəbər verir ki, əvvəlcə Gəncə qapılarını və güllələnmiş heykəlləri ziyarət edən qonaqlara şəhərdə aparılan yenidənqurma və bərpa işləri barədə ətraflı məlumat verilib.

Şuşadakı forum üzv dövlətlərin öz ərazilərində yaşayan və fəaliyyət göstərən iştirakçı dövlətlərin diasporlarının fəaliyyətinin qarşılıqlı tənzimlənməsi və koordinasiya məsələlərinin müzakirəsindən başlayıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyevin moderatorluğu ilə keçirilən forumun ikinci günündə Azərbaycan Prezidentinin Şuşa rayonu üzrə xüsusi nümayəndəsi Aydın Kərimov tədbir iştirakçılarına Şuşada aparılan abadlıq və bərpa-quruculuq işləri, eləcə də gələcək planlar barədə məlumat verib.



Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov 200 milyonluq türk dünyasının bir araya gəlməsində diasporun mühüm rolunun olduğunu bildirib, komitənin fəaliyyəti və həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verib. Forumun iştirakçısı olan Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan və Şimali Kipr Türk Respublikasının nümayəndələri diasporlar arasında ardıcıl və sistemli əməkdaşlığın qurulmasının vacibliyini vurğulayıblar.

Daha sonra 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilməsi təklif olunan tədbirlər ətrafında fikir mübadiləsi aparılıb, "Türk diasporu həftəsi"nin keçirilməsi təklif edilib.

Tədbir Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin beynəlxalq Bakı-Şuşa Forumunun iştirakçı qurumlarının birgə bəyanatının qəbul olunması ilə yekunlaşıb.

# İnternat tipli ümumtəhsil müəssisələri anlayışı təsnifatlaşdırılır

Dekabrın 21-də Milli Məclisin Elm və təhsil komitəsinin onlayn iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Bəxtiyar Əliyev bildirib ki, gündəliyə 2 məsələ daxildir.

Bunlar Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi (üçüncü oxunuş) və birinci oxunuşda olan "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsidir.

Gündəlikdəki birinci məsələ barədə məlumat verən komitə sədri bildirib ki, sənəd "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə" qanunun icrası ilə əlaqədar hazırlanıb. Buna uyğun olaraq layihədə adları çəkilən qanunlarda müvafiq dəyişikliklər təklif olunur.

Bildirilib ki, bununla bağlı "Təhsil haqqında" və "Ümumi təhsil haqqında" qanunlara eyni məzmunlu yeni maddələrin əlavə olunması nəzərdə tutulub. Əlavələrə əsasən, ümumi təhsil müəssisələri tərəfindən yetkinlik yaşına çatmayanların öz inkişaf səviyyələrinə uyğun cinsi istismar və cinsi zorakılıq təhlükələri, habelə özünümüdafiə vasitələri barədə məlumat almaları təmin edilir. Bu zaman onlara cinsi tərbiyəyə dair ümumi məlumat verilir, təhlükəli vəziyyətlərə, xüsusilə yeni informasiya və kommunikasiya texnologiyalarından istifadədən irəli gələn hallara xüsusi diqqət yetirilir. Belə məlumatların təqdim edilməsinə yetkinlik yaşına çatmayanların valideynləri və ya digər qanuni nümayəndələri cəlb edilə bilərlər. Habelə uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş şəxslər pedaqoji fəaliyyətlə məşğul ola bilməzlər.

Qanun layihəsi üçüncü oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Sonra komitə sədri bildirib ki, gündəliyin ikinci məsələsində isə qanunun 1-ci maddəsinə təklif olunan dəyişikliyə əsasən, internat tipli ümumtəhsil müəssisələri anlayışı onların növlərinə görə təsnifləşdirilərək yeni redaksiyada verilir. Layihədə internat tipli təhsil müəssisələrinin fəaliyyət prinsiplərinə görə bölünməsi, onların özlərinin də ümumi təyinatlı, inteqrasiya təlimli və xüsusi təhsil müəssisələri kimi qruplaşdırılması öz əksini tapıb.

Onlayn iclasda çıxış edən komitə üzvləri Etibar Əliyev, Müşfiq Məmmədli, Eldar Quliyev, Tamam Cəfərova, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qanun layihəsinin mühüm əhəmiyyət daşıdığını qeyd ediblər, internat tipli məktəblərdə təhsil alan uşaqlara dövlət qayğısı, onların layiqli vətəndaşlar kimi yetişdirilməsi və digər məsələlərlə bağlı qeyd və təkliflərini bildiriblər. Müzakirələrdən sonra gündəlikdəki ikinci qanun layihəsi də birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

***"Azərbaycan"***

# Beynəlxalq Bakı-Şuşa Forumunda birgə bəyanat qəbul olunub

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı-Şuşa Forumu dekabrın 21-də işini Şuşada davam etdirib. Forumun yekununda birgə bəyanat qəbul olunub. AZƏRTAC bəyanatı təqdim edir:

"Biz - 2022-ci il dekabrın 20-21-də Bakı və Şuşa şəhərlərində keçirilmiş Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı-Şuşa Forumunun iştirakçıları "Şuşa ili"ndə dünya ictimaiyyətini Azərbaycanın mədəniyyət paytaxtında salamlamaqdan qürur duyuruq.

Forumda iştirak edən dövlətlər öz diasporlarının sıx birləşməsinə hər zaman töhfə veriblər. Türk Dövlətləri Təşkilatı çərçivəsində qəbul edilmiş Türk Diasporunun Birgə Fəaliyyət Strategiyasına uyğun olaraq keçirilən ikitərəfli, o cümlədən çoxtərəfli görüşlər, müxtəlif proqram və forumlar əlaqələrimizin daha da genişlənməsinə xidmət edib. Bu illər ərzində ümumi maraqların qorunması məqsədilə diaspor sahəsində imkanlar birləşdirilib, ümumi maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə birlik və həmrəylik nümayiş etdirilib.

Xüsusilə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin diasporlarının yaxınlaşması və əməkdaşlığı istiqamətində bir sıra mühüm addımlar atılıb: bütün türk diasporları üçün birgə fəaliyyət strategiyasının müəyyənləşdirilməsi ilə yanaşı, əksər üzv dövlətlərin diaspor işlərinə cavabdeh qurumları arasında memorandumlar imzalanıb, qurum rəhbərlərinin qarşılıqlı səfərləri və görüşləri keçirilib, Bakıda və Bursada üzv dövlətlərin diaspor qurumları arasında təcrübə mübadiləsi proqramları, Berlin və Nyu Yorkda türk diasporları üçün potensialın gücləndirilməsi proqramları həyata keçirilib.

Dünyanın müxtəlif ölkələrindən diaspor təşkilatları, iş adamları, elm adamları və digərlərinin də iştirakı ilə Bakıda və Bursada Türk Diaspor forumları keçirilib və illik birgə fəaliyyət planları ilə türk diasporlarına istiqamət vermək təcrübəsinin əsası qoyulub.

Bu mənada 44 günlük müharibə zamanı türk dünyası tərəfindən göstərilən informasiya dəstəyi Azərbaycan həqiqətlərinin dünyada təbliği, Azərbaycana qarşı yönəlmiş təxribatların qarşısının alınmasında böyük rol oynayıb.

Azərbaycanın 44 günlük müharibədə Zəfərindən sonra 2021-ci ilin iyun ayında Azərbaycanla Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi türk diasporlarının Birgə Fəaliyyət Strategiyası üçün yeni üfüqlər açıb.

Diasporlarımızın gələcək fəaliyyəti ilə bağlı mühüm əhəmiyyət kəsb edən proqram xarakterli sənəddə Türk Dövlətləri Təşkilatına üzv olan digər dövlətlərin də vahid diaspor hərəkatına qoşulması, əməkdaşlığın, həmrəyliyin inkişaf etdirilməsi ciddi vəzifələrdən biri kimi ortaya qoyulub. Türk dövlətlərinin ortaq diaspor siyasətinin inkişafı ilə bağlı həssaslığı Türk Dövlətləri Təşkilatının müvafiq olaraq 2021-ci və 2022-ci illərdə İstanbul və Səmərqənd Zirvə görüşlərində qəbul edilmiş "Türk Dünyasına Baxış-2040" və "Strategiya 2022-2026" sənədlərində də öz əksini tapmışdır.

Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşünün Səmərqənd Bəyannaməsi və burada qəbul edilmiş digər sənədlər qarşıya qoyulan mühüm məqsədlərə nail olmaq, xüsusilə dünyada yaşayan türklərin milli hüquqlarının müdafiəsi istiqamətində vahid diaspor hərəkatı çərçivəsində fəaliyyətimizi daha da sıx birləşdirmək üçün əlverişli şərait yaradır.

Türk dövlətləri rəhbərlərinin də vurğuladığı kimi, Zirvə görüşləri bütün türk dünyasını narahat edən problemlərin həlli yollarının müzakirəsi baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, yaşadıqları ölkədən asılı olmayaraq, türk dünyası ölkələrində yaşayan gənclərin məktəblərdə ana dilində təhsil almalarının zəruriliyi ilə ifadə olunan problemi Türk Dövlətləri Təşkilatının daim gündəmində olmalıdır. Təəssüf ki, bir çox türkdilli dövlətlərin hüdudlarından kənarda yaşayan türkdilli xalqlar bu imkanlardan məhrum ediliblər.

Bəyan edirik ki, 200 milyonluq türk dünyası geniş bir coğrafiyanı əhatə edən böyük bir ailədir. Biz bu ailənin üzvləri olaraq türk dünyasının birliyi məqsədinə sadiq qalacaq, milli maraqlarımız naminə bir-birimizə dəstək olmağa, həmrəyliyimizi gücləndirməyə və əməkdaşlığımızı genişləndirməyə davam edəcəyik".

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyası iştirakçılarının bəyanatı

**Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərində təbii sərvətlərin qanunsuz istismarına qarşı Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyasının iştirakçıları bu aksiyanın BMT Təhlükəsizlik Şurasının iclasında bəzi dövlətlər tərəfindən birtərəfli, qərəzli şəkildə təqdim edilməsi ilə bağlı bəyanat yayıblar. AZƏRTAC bəyanatı təqdim edir:**

"Biz, qeyri-hökumət təşkilatlarını təmsil edən nümayəndələr Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində təbii sərvətlərin qanunsuz istismarına və ekoloji terrora qarşı keçirilən dinc etiraz aksiyasının 2022-ci il dekabrın 20-də BMT Təhlükəsizlik Şurasının iclasında bəzi dövlətlər tərəfindən birtərəfli, qərəzli şəkildə təqdim edilməsi, müzakirələrin yerdə real vəziyyəti əks etdirməməsi ilə bağlı təəssüfümüzü ifadə edirik.

Ermənistan və BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Fransanın bu platformadan birtərəfli şəkildə sui-istifadə etmələri, beynəlxalq ictimaiyyəti çaşdırmaları və çirkin propaqanda aparmaları qəbuledilməzdir. Bu kimi arzuolunmaz cəhdlər regionda davamlı sülhün əldə olunmasına xidmət etmir, əksinə, vəziyyətin gərginləşməsinə xidmət edir. Ermənistan, Qarabağda olan kriminal işbazlar və bir sıra müharibə cinayətkarları da qəsdən yerli əhalini öz siyasətlərinin girovuna çevirir və onların Azərbaycan tərəfi ilə təmaslarına imkan vermir, süni "humanitar fəlakət" ab-havası yaratmağa çalışırlar.

Eyni zamanda BMT Təhlükəsizlik Şurasında tamamilə əsassız şəkildə Ermənistanın Azərbaycanın suveren əraziləri haqqında iddialarla çıxış etməsi qəbuledilməzdir və bu cür yanaşma Təhlükəsizlik Şurasının təməl prinsiplərinə ziddir.

Bir daha bildiririk ki, etiraz aksiyası dinc xarakter daşıyır və vətəndaş cəmiyyətinin nümayəndələri Azərbaycanın təbii sərvətlərinin talan edilməsinə və ətraf mühitə bərpa olunması mümkün olmayan zərərin vurulmasına son qoyulması istiqamətində şüarlar səsləndirirlər. BMT Təhlükəsizlik Şurasındakı müzakirələrin haqlı narahatlığımızı nəzərə almamasını vətəndaş cəmiyyətinə sayğısızlıq, qərəzli münasibət və selektiv yanaşma kimi dəyərləndiririk.

Təəssüflə vurğulamaq istəyirik ki, dünyada sülhün və təhlükəsizliyin qorunmasına cavabdeh olan əsas qurum kimi BMT Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycan torpaqlarını 30 il ərzində işğal altında saxlamasına, etnik təmizləmə siyasətinə, Xocalı soyqırımına, 1 milyondan çox azərbaycanlının öz doğma yurdlarından qovulmasına, Azərbaycan xalqının mədəni irsinin məqsədli şəkildə dağıdılmasına və talan olunmasına, qeyri-qanuni məskunlaşdırma siyasətinə göz yumdu və özünün qəbul etdiyi qətnamələrin icrası istiqamətində heç bir addım atmadı. BMT Təhlükəsizlik Şurasının ikili standartların girovuna çevrilməsi təəssüf doğurur.

Etiraz aksiyasının keçirildiyi yerdən medianın, ayrı-ayrı sosial şəbəkə istifadəçilərinin verdiyi məlumatlardan aydın görünür ki, humanitar yük, sərnişin daşıyan nəqliyyat vasitələri, təcili tibbi yardım və digər humanitar nəqliyyat vasitələri sərbəst hərəkət edə bilir və bunun üçün aksiya iştirakçıları tərəfindən hər bir şərait yaradılır. Həmçinin ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin humanitar problemlərinin operativ şəkildə həlli üçün QHT-lər tərəfindən qaynar xətt yaradılıb. Buna görə də, erməni əsilli sakinlərin guya "blokada"ya alınması kimi iddiaların heç bir əsası yoxdur.

Biz aksiya iştirakçıları olaraq Laçın yolunun hərbi məqsədlər üçün istifadə olunmasına, təbii sərvətlərimizin talan edilərək ölkədən çıxarılmasına son qoyulmasını tələb edirik. Laçın-Şuşa-Xankəndi yolu Azərbaycan Respublikasının suveren ərazisidir.

Biz, həmçinin Ermənistan hakimiyyətinin, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qanunsuz erməni silahlı dəstələrinin erməni əsilli sakinləri təhdid etməsinə, onların Azərbaycana reinteqrasiyasına bütün vasitələrlə maneə olmasına qəti etiraz edirik. Biz erməni əsilli sakinləri birgə yaşayışa dəvət edirik.

Vətəndaş cəmiyyəti təmsilçiləri olaraq Qarabağda yaşayan erməni əsilli vətəndaşlarımızın humanitar problemləri olduğu halda, onların aradan qaldırılması üçün bütün resurslarımızı səfərbər etməyə hazır olduğumuzu bir daha bəyan edirik".

Bəyanatı adları aşağıda qeyd olunan QHT-lər qəbul ediblər:

1. Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyəti İctimai Birliyi - İlqar Orucov
2. "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyi - Azər Allahverənov
3. "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyi - Zaur İbrahimov
4. "Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyi - İsrayıl İsgəndərov
5. "Virtual Qarabağ" İnformasiya Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyi - Nurəddin Mehdiyev
6. "Vətəndaş" Tədqiqat və İnkişaf İctimai Birliyi - Günel Səfərova
7. "Sağlam Həyata Doğru" Ekoloji İctimai Birliyi - Həsənov Sadiq Hüseyn oğlu
8. "Ekoloq-2010" Ekoloji Maarifləndirmə İctimai Birliyi - Balayev Səlim Loğman oğlu
9. "Eko-Aləm" İctimai Birliyi - Yüzbaşeva Sevil İsmayıl qızı
10. Ekoloji İnformasiya İctimai Birliyi - Muradlı Musa Heydər oğlu
11. "EkoSfera" Sosial Ekoloji Mərkəzi - Firuzə Sultanzadə
12. "Ekoleks" Ekoloji Hüquq Mərkəzi İctimai Birliyi - İsayeva Sevil Hacıbala qızı
13. "Eko-TES" Ekoloji Tədqiqatlar və Maarifçilik İctimai Birliyi - Nəzərov Çingiz Manaf oğlu
14. Ekoloji Maarifçilik və Monitorinq İctimai Birliyi - Yusubova Qəmzə Xanlar qızı
15. "Mədəniyyətin və Milli Ənənələrin Təbliği" İctimai Birliyi - Etibar Məmmədov
16. "Sosial - İqtisadi və Ekoloji İnkişaf" İctimai Birliyi - Rahilə Mehtiyeva
17. Yaşıl Dünya Ekoloji Maarifləndirmə İctimai Birliyi - Cəfərli Elman Niyazil oğlu
18. Ekoloq Ətraf Mühitin Qorunmasına Yardım İctimai Birliyi - Hüseynli Rübabə Əlişirin qızı
19. "Ekoloji Maarifçiliyə Yardım" İctimai Birliyi - Hüseynov Tarverdi Tapdıq oğlu
20. Gənclər üçün Təhsil Mərkəzi - Fəxrəddin Həsənzadə
21. Səma və Ekososial-İqtisadi İnkişafa Yardım İctimai Birliyi - Həsənova İradə İsrafil qızı
22. "Səyyahlar" Təbii Sərvətlərin və Ətraf Mühitin Araşdırılması və Tanıdılması İctimai Birliyi - Rəşad Məmmədli
23. "Ortaq Dəyərlər" İctimai Birliyi - Aqil Camal
24. "Sağlamlığa Xidmət" İctimai Birliyi - Elçin Muxtarlı
25. "Sudan İstifadə Sahəsində Mütəxəssislər" İctimai Birliyi - Amin Məmmədov
26. "Davamlı Turizmin İnkişafına Dəstək" İctimai Birliyi - Nərminə Qəribova
27. "Hüquq Dünyası" Hüquqi Təbliğat İctimai Birliyi - Zaur Quliyev
28. "Gənclərin Töhfəsi" İctimai Birliyi - Məhsəti Hüseynova
29. "Qadın və Uşaqların İnnovativ Maarifləndirilməsinə Dəstək" İctimai Birliyi - Aynur Zülfüqarova
30. Milli Qeyri-Hökumət Təşkilatları Forumu - Rauf Zeyni
31. Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı - Cəlil Xəlilov
32. Beynəlxalq Avrasiya Mətbuat Fondu - Umud Mirzəyev
33. Konstitusiya Araşdırmalar Fondu - Əliməmməd Nuriyev
34. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası - Sahib Məmmədov
35. D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüququnun Müdafiə Cəmiyyəti - Novella Cəfərova
36. İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi İctimai Birliyi - Səltənət Qocamanlı
37. "Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi" İctimai Birliyi - Səadət Bənənyarlı
38. "Sosial Hüquqların Araşdırılması" İctimai Birliyi - Mayis Əliyev
39. Biosfer İctimai Birliyi - Qorxmaz İbrahimli
40. "Azad İstehlakçılar" İctimai Birliyi - Eyyub Hüseynov
41. "Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyi - Füzuli Rzaquliyev
42. "Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyi - Emin Həsənli
43. "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyi - Ramil İsgəndərli
44. İctimaiyyətlə Əlaqələrin İnkişafina Kömək İctimai Birliyi - Şəlalə Həsənova
45. "Demokratiyanı Öyrənmə" İctimai Birliyi - Mirəli Hüseynov
46. "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyi - Cəsarət Hüseynzadə
47. "Azərbaycan Uşaqları" İctimai Birliyi - Kəmalə Ağazadə
48. Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatı - Asif Əsgərli
49. Təmiz Dünya Qadınlara Yardım İctimai Birliyi - Mehriban Zeynalova
50. "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyi - Fikrət Yusifov
51. "Mediada İnnovativ Təşəbbüslərə Dəstək" İctimai Birliyi - Müşviq Ələsgərli
52. "Bakı Natiqlik Məktəbi" İctimai Birliyi - Elçin Mirzəbəyli
53. "Vətəndaş Maarifləndirilməsi" İctimai Birliyi - Elşad Məmmədli
54. Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyi - İlqar Hüseynli
55. Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyi - Faiq İsmayılov
56. "Sağlam İnkişaf və Maarifləndirmə" İctimai Birliyi - Anar Xəlilov
57. Azərbaycan-Amerika Gəncləri İctimai Birliyi - Vüqar Əhmədov
58. Azərbaycan Jurnalistlər Şəbəkəsi - Ayaz Mirzəyev
59. "Elmi Araşdırmalar" İctimai Birliyi - Telman Qasımov
60. Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiəsi Assosiasiyası - Dilarə Əfəndiyeva
61. "Siyasi Texnologiyalar Mərkəzi" İctimai Birliyi - Vəli Əlibəyov
62. Azərbaycan Gənclərinin Hüquqlarının Müdafiəsi Mərkəzi İctimai Birliyi - Elçin Salmanov
63. "Əsgər Ailələrinə Dəstək" İctimai Birliyi - Mətanət Əsgərqızı
64. "Jurnalistika və İnkişaf Mərkəzi" İctimai Birliyi - Elməddin Muradov
65. "Avropaya İnteqrasiya Mərkəzi" İctimai Birliyi - Səyyad Məcidov
66. "İqtisadi və Sosial Araşdırmalara Yardım" İctimai Birliyi - Əyyub Kərimli
67. "Qürur" Şəhid Ailələri Xeyriyyə İctimai Birliyi - Naibə Behbudova
68. "Müvəkkil Hüquq Mərkəzi" İctimai Birliyi - Səməd Vəkilov
69. "ELM" Gənclərin Sosial-İntellektual İnkişafına Dəstək İctimai Birliyi - Səbuhi Abdullayev
70. "Kamillik" Vətəndaşların Hüquqi Maarifləndirilməsi İctimai Birliyi - Niyaz Niftiyev
71. QEYD Sosial Maarifləndirmə İctimai Birliyi - Tural Nurməmmədov
72. Qadın və Uşaqların Təhsilinə Dəstək İctimai Birliyi - Sevinc Fədai
73. Hüquqi Sosial Yardım və Maarifləndirmə İctimai Birliyi - Fariz Əkbərov
74. Qloballaşan Dünyaya İnteqrasiya İctimai Birliyi - Ağayev İlkin
75. "Tərəqqi" Gəncliyin İnkişafı İctimai Birliyi - Səfərov Raci
76. "Dayaq" Sosial Maarifləndirmə İctimai Birliyi - Hicran Alməmmədova
77. "Oriqami" Uşaq və Yeniyetmələr İctimai Birliyi - Namiq Nəcəfov
78. Səhiyyə və Sağlam Həyat İctimai Birliyi - Könül Əlizadə
79. Azərbaycan Əlillər Cəmiyyəti - Xədicə Mikayılova
80. "Qadın dünyası" İctimai Birliyi - Kifayət Niftəliyeva
81. "Uşaq və Yeniyetmələrə Dəstək" İctimai Birliyi - Fərhad Abdulov
82. "Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi" İctimai Birliyi - Nadir İsmayılov
83. İnnovativ Təşəbbüslərə Dəstək İctimai Birliyi - Abbas Pənahov
84. Hüquqi və Demokratik İslahatlar Mərkəzi İctimai Birliyi - İlham Əliyev
85. Gənclərin Mədəniyyətlərarası Əməkdaşlıq Liqası İctimai Birliyi - Elçin Çobanzadə
86. Sosial Dayaq İctimai Birliyi - Qərənfil Niftəliyeva
87. "Xankəndi" Məcburi Köçkünlərə Dəstək İctimai Birliyi - Xatirə Vəliyeva
88. "Müharibə Veteranı Qadınlarına Sosial Yardım" İctimai Birliyi - Radə Abbas
89. Həqiqət Tarixi Araşdırmalar İctimai Birliyi - Elnarə Abbasova
90. "20 Yanvar Şəhid Ailələrinin Hüquqlarının Təmin Olunması" İctimai Birliyi - Maral Zamanova
91. Milli Dəyərlər üzrə Maarifləndirmə İctimai Birliyi - Gülşən Behbudova
92. "Şəhid Ailələrinə Maddi və Mənəvi Dəstək" İctimai Birliyi - Nəzakət Həsənova
93. Azərbaycan Təfəkkür Gənclər Assosiasiyası İctimai Birliyi - Emin Şirvanzadə
94. Jurnalist Qadınlar Assosiasiyası - Sevil Yusifova
95. "Səssiz Dünya İşarət Dilində Danışan Əlillərə və İdmançılara Dəstək" İctimai Birliyi - Aidə Səfərova
96. "Optimist" Sosial Problemlərin Həllinə Yardım İctimai Birliyi - Habil Niftalı
97. "Regional Sosial-İqtisadi İnkişaf üzrə Maarifləndirmə" İctimai Birliyi - Elnarə Məhərrəmova
98. "Gənclərin Təşəbbüsünə və İnkişafına Dəstək" İctimai Birliyi - Toğrul Allahverdiyev
99. "Media Araşdırmaları və Monitorinq Mərkəzi" İctimai Birliyi - Şahbazov Şadman
100. "Şəhid Ailələrinə Sosial Dəstək" İctimai Birliyi - Almaz Zeynalova
101. Sakura Azərbaycan-Yaponiya İctimai Birliyi - Təranə Hüseynova
102. Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi - Orduxan Qəhrəmanzadə.

## Ermənistan müharibə cinayətlərinə görə cavab verəcək

### Bu ölkənin beynəlxalq məhkəmələrdə məsuliyyətə cəlb edilməsi üçün Azərbaycan səylərini davam etdirəcək

Vətən müharibəsində işğaldan azad edilən torpaqlarımız özündə 30 il ərzində Ermənistanın törətdiyi cinayətlərin izlərini daşıyır. Yüz minlərlə vətəndaşımızı tarixi torpaqlarından zorla didərgin salaraq, hüquqlarını, eləcə də mülkiyyət hüquqlarını pozan, onlara mənəvi və külli miqdarda maddi zərər vuran erməni vandalları vəhşiliklər törədərək bütün yaşayış yerlərini talayıb dağıdıblar, xalqımıza məxsus tarixi, dini, mədəni irsi məhv ediblər.




Erməni vəhşiləri işğal altında saxladıqları ərazilərimizdə sərvətlərimizin talanmasını həyata keçirib, ekoloji terrora əl ataraq "yanmış torpaq" siyasəti həyata keçiriblər.

### İşğal olunmuş ərazilərdəki mülkiyyət hüququnun pozulmasını tanıyan ilk sənəd

Təəssüf ki, Ermənistan 30 il ərzində işğal olunmuş ərazilərdə azərbaycanlıların insan hüquqlarını kobud surətdə pozmasına görə beynəlxalq səviyyədə heç bir məsuliyyətə cəlb olunmayıb.

Azərbaycanlı məcburi köçkünlərin işğal olunmuş ərazilərdəki mülkiyyət hüququnun pozulmasını tanıyan, işğal faktını təsdiq edən ilk və hələ ki, yeganə sənəd İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə 2015-ci ildə qəbul etdiyi qərardır.

İnsan Hüquqları üzrə Avropa Konvensiyasının Azərbaycan Respublikasının vətəndaşları Laçın rayon sakinləri Elxan Çıraqov, Adışirin Çıraqov, Ramiz Cəbrayılov, Akif Həsənov, Fəxrəddin Paşayev və Qaraca Cəbrayılovun 2005-ci il 6 aprel tarixli iddiaları üzrə 2015-ci il iyunun 16-da qəbul etdiyi qərarda "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası"nın 8-ci, 13-cü və 14-cü maddələrinin və Konvensiyaya dair 1 saylı Protokolun 1-ci maddəsinin pozulduğu əksini tapıb. Lakin qərarın qəbulundan yeddi ildən çox vaxt keçməsinə baxmayaraq, Ermənistan üzərinə qoyulan öhdəlikləri yerinə yetirmir, zərərçəkmiş kimi tanınan altı nəfər Azərbaycan vətəndaşına vurduğu mənəvi və maddi ziyana görə təzminat ödəmir. Həmçinin qərara əsasən, cavabdeh dövlət azərbaycanlı qaçqınların və məcburi köçkünlərin hüquqlarının bərpası üçün xüsusi mexanizm yaratmalı olsa da, bu məsələ də Ermənistan tərəfindən icra olunmamaqdadır.

### Ermənistan Laçın yolunda sistematik insan hüquqları pozuntuları törədib

Azərbaycan Vətən müharibəsində əldə etdiyi parlaq zəfər sayəsində Ermənistanın 30 illik işğalına son qoyduğu kimi, keçmiş məcburi köçkün vətəndaşlarının pozulan hüquqlarını da bərpa edəcək və Ermənistanı törətdiyi əməllərə görə beynəlxalq hüquq qarşısında cavab verməyə məcbur edəcək.

Artıq Azərbaycan hökuməti işğaldan azad edilmiş ərazilərdə azərbaycanlıların insan hüquqlarının kobud şəkildə pozulmasına görə Ermənistana qarşı Avropa İnsan Hüquqları Məhkəməsinə (AİHM) müraciət təqdim edib.

Bununla bağlı Xarici İşlər Nazirliyindən məlumat verilib ki, Azərbaycan 2022-ci ilin may-avqust aylarında Ermənistanın Laçın şəhərini və iki qonşu kəndi tərk etməsi zamanı əmlakın, o cümlədən yüzlərlə mülki evin və digər yaşayış sahələrinin qəsdən və məqsədyönlü şəkildə dağıdılmasına dair bir sıra sübutlar təqdim edib.

Sözügedən ərazilərdə effektiv nəzarəti həyata keçirməsinə baxmayaraq, Ermənistan hökuməti bu genişmiqyaslı dağıntıların qarşısını almaq üçün heç bir addım atmayıb. Azərbaycan hökuməti həmçinin Ermənistan rəsmilərinin "yandırılmış torpaq" siyasətində fəal iştirak etdiyinə dair sübutların da şahidi olub.

Məlumatda qeyd olunur ki, Ermənistan hökuməti Laçın yolunda sistematik insan hüquqları pozuntuları törədib. Yenicə aşkar olunmuş dəlillər göstərir ki, Ermənistan silahlı qüvvələri 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən tərk etməli olduqları ərazilərdə minalar, habelə mülki evlərdə mina tələləri yerləşdirməyə davam edib. Buna, üçtərəfli Bəyanatın birmənalı pozuntusu olaraq Ermənistanda 2021-ci ildə istehsal olunmuş və Laçın yolu vasitəsilə Azərbaycana gətirilmiş minalar daxildir.

### Ermənistanın "yandırılmış torpaq" siyasəti

"Ermənistanın "yandırılmış torpaq" siyasəti çərçivəsində evlərin dağıdılması, qəsdən və spesifik olaraq mülki əmlaklarda partlayıcı qurğuların yerləşdirilməsi ilə birlikdə, məcburi köçkün ailələrinin və icmaların 30 il bundan əvvəl Ermənistanın qeyri-qanuni işğalı nəticəsində tərk etməyə məcbur olduqları keçmiş evləri və torpaqlarına qayıtmasının qarşısını alır", - deyə qeyd olunan XİN-in məlumatında bildirilir ki, Ermənistan hökumətinin hərəkətləri azərbaycanlıların şəxsi və ailə həyatı, hərəkət azadlığı, mülk və əmlakdan dinc istifadə hüququnun pozulmasıdır. Qeyd olunur ki, Ermənistan hökumətinin hərəkətsizlik və yardım siyasəti ayrı-seçkiliyin qadağasının, eyni zamanda münaqişənin başlamasından sonra Azərbaycanın müvəqqəti tədbirlər üçün müraciəti ilə bağlı Ermənistanın mülki əraziləri hədəf almasına mane olan AİHM-in 2020-ci ildə qəbul etdiyi müvəqqəti tədbirlərin pozulması deməkdir.

Azərbaycan Ermənistandan insan hüquqlarının kobud şəkildə pozulması nəticəsində dəymiş ziyana görə kompensasiya, reparasiya, restitusiya, digər xərclərin qarşılanmasını tələb edir. Azərbaycan beynəlxalq insan hüquqlarının davamlı və məqsədyönlü şəkildə pozulmasına görə Ermənistan hökumətinin məsuliyyətə cəlb edilməsi üçün səylərini davam etdirəcək.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*



# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Laçın yolu yalnız humanitar təyinatlıdır

### Ermənistanın bu yoldan hərbi cinayətlər törətmək üçün istifadəsinə imkan verilməyəcək

Ermənistan tərəfi 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatının müddəalarını yerinə yetirmir. Üç ölkə liderinin sözügedən tarixdə imzaladığı bəyanatın dördüncü bəndinə zidd olaraq erməni silahlı qüvvələri hələ də Azərbaycan ərazilərindən çıxarılmayıb.







Sənədin doqquzuncu bəndi isə pozularaq bölgədə bütün nəqliyyat-kommunikasiya yollarının açılmasına maneçilik törədilir. Eləcə də Ermənistan tərəfindən Laçın yolundan həm hərbi təxribatlar, həm də qeyri-qanuni iqtisadi fəaliyyət üçün istifadə olunaraq üçtərəfli Bəyanatın altıncı bəndinə zidd fəaliyyət göstərilir.

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində separatçı rejimin "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarını və Laçın yolu vasitəsilə sərvətlərimizin talanmasını həyata keçirməsi buna real nümunədir.

#### Laçın yolundan sui-istifadə edilməsinin qarşısı alınır

Vətən müharibəsinin qələbə ilə başa çatmasından sonra Azərbaycan Ermənistana münasibətlərin normallaşdırılması, sülhə nail olunması üçün təkmil sülh modeli təqdim edib. Həmçinin qalib Azərbaycan sülh sazişinin bağlanması istiqamətində böyük əzm və iradə nümayiş etdirib. Laçın avtomobil yolunun vaxtından xeyli əvvəl istifadəyə verilməsi də bunun bariz nümunələrindən biridir.

Lakin ötən müddət ərzində Ermənistan tərəfi 2020-ci il üçtərəfli Bəyanatında əks olunmuş və sonrakı bəyanatlarla bir daha təsdiq olunmuş öhdəliklərini pozmağa yönəlik davranışlar sərgiləyib, kommunikasiyaların açılmasını, sərhədlərin delimitasiyasını yubadıb, Birinci Qarabağ müharibəsində əsir düşmüş minlərlə azərbaycanlının taleyi və kütləvi məzarlıqlar haqda məlumat verməkdən yayınıb və s.

Eyni zamanda məlum olub ki, Ermənistan Laçın yolundan öz ölkəsində istehsal olunan minaları Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi rayonuna daşımaq və Azərbaycana qarşı təxribatlar törətmək məqsədilə istifadə edib. Belə ki, bu ilin avqustundan etibarən Azərbaycanın suveren ərazilərində 2021-ci ildə Ermənistanda istehsal olunmuş piyada əleyhinə 2728 mina aşkar edilib. Ermənistan istehsalı olan minalar yerləşdirilmiş sahə artıq Rusiya sülhməramlı kontingenti və Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin rəhbərliyi, eləcə də Azərbaycanda akkreditə olunmuş səfirliklərin hərbi attaşeləri tərəfindən yoxlanılıb.

Bu barədə dekabrın 12-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqı Şərq Tərəfdaşlığı Xarici İşlər Nazirlərinin görüşündə məlumat verərək bildirib ki, minaların Azərbaycan ərazisinə gətirilməsi yalnız humanitar məqsədlər üçün nəzərdə tutulan Laçın yolundan sui-istifadə edilməsidir.

#### Humanitar keçidə heç bir maneə yoxdur

Dekabrın 12-dən Şuşa-Laçın yolunda ekofəallarımız və QHT nümayəndələrimiz Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində separatçı rejimin təbii sərvətlərimizi talamasına, ekologiyamıza qarşı terror törətməsinə, "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarını həyata keçirməsinə qarşı etiraz edirlər. Vətəndaş cəmiyyətimizin üzvləri Azərbaycanın sözügedən ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarının dayandırılmasını, bütün təbii sərvətlərin istismarının Azərbaycan Respublikası qanunvericiliyi əsasında həyata keçirilməli olduğunu bəyan edirlər.

Ekoloji hüquqların müdafiəsi sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, ictimai fəalların tələbləri arasında Şuşa-Laçın yolundan hərbi məqsədlər, minaların, silah-sursatın və talan olunan təbii sərvətlərin daşınması məqsədilə istifadə edilməsinə də son qoyulması var. Vətəndaş cəmiyyətinin nümayəndələri Laçın yolundan hərbi məqsədlər üçün deyil, üçtərəfli Bəyanatda razılaşdırıldığı kimi yalnız humanitar məqsədlər üçün istifadə edilməli olduğunu bildirirlər.

Rəsmi İrəvan isə hər zaman olduğu kimi, Azərbaycan ictimaiyyətinin haqlı narazılığını nümayiş etdirdiyi dinc etiraz aksiyası ilə bağlı qərəzli iddialar səsləndirir, guya Laçın yolunun bağlanması, bölgədə humanitar fəlakət yaşanması, etnik təmizlənmə həyata keçirilməsi barədə böhtan və yalan xarakterli məlumatlar yayır.

Lakin faktiki olaraq Şuşa-Laçın yolu Rusiya sülhməramlıları tərəfindən bağlanıb. Dekabrın 12-dən etibarən davam edən aksiya zamanı etirazçılar tərəfindən Laçın yolundan humanitar yükləri daşıyan avtomobillərin keçidinə heç bir maneçilik törədilməyib.

Bu isə, həm də onu göstərir ki, Azərbaycan vətəndaş cəmiyyətinin üzvlərinin, QHT nümayəndələrinin, ekofəalların və könüllülərin iştirakı ilə keçirilən dinc etiraz aksiyası sayəsində Laçın yolundan öz təyinatı üzrə, yalnız humanitar məqsədlərlə istifadə edilməsinə nail olunub. Başqa sözlə, daha Laçın yolunda erməni separatçılarının at oynatmasına, Azərbaycana qarşı təxribatlar törətməsinə imkan verilmir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Milli mübarizənin nümunəsi

**Ekofəalların, vətəndaş cəmiyyəti nümayəndələrinin və media mənsublarının ekoloji terrora son qoyulması tələbi ilə Şuşa-Laçın yolunda başlatdıqları etiraz aksiyası 10 gündür ki, davam edir.**





Bu aksiya Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərdə faydalı qazıntı yataqlarının qanunsuz istismarının qarşısının alınması məqsədilə keçirilir. Aksiya iştirakçıları "Ekoterrora son!", "Mina terroruna son!", "Təbiəti qoruyaq!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!" kimi şüarlar səsləndirir, tələbləri yerinə yetirilməyənə qədər aksiyanı davam etdirəcəklərini bildirirlər.

Ermənilər isə həmişə olduğu kimi, riyakar xislətlərinə uyğun olaraq bu aksiyanın guya mülki əhali üçün problemlər yaratdığını iddia edir, hadisələrə müxtəlif don geyindirməyə çalışırlar. Lakin elə sülhməramlılar da görür ki, bu aksiya ekoloji tarazlığı bərpa etmək məqsədilə təşkil edilib, sivil formada həyata keçirilir və heç bir təhlükə ehtiva etmir.

Laçın yolunda keçirilən aksiya xalqımızın milli birliyinin növbəti təzahürü, həmrəyliyimizin təcəssümüdür. Təsadüfi deyil ki, aksiya başlayan gündən ictimaiyyət nümayəndələri Şuşaya gedərək ekoaksiyaya dəstək olmağa can atır, tələblərimizi əzmkarlıqla səsləndirir və dünyaya sülh mesajı ötürürlər.

#### Minlərlə gənc aksiyaçılara qoşulmaq üçün məqam gözləyir

Aksiya iştirakçısı, Gənclər üçün Təhsil Mərkəzinin rəhbəri Fəxrəddin Həsənzadə deyib ki, Şuşa-Laçın yolunda keçirilən aksiyanın əsas səbəbi Azərbaycanın suveren ərazilərində ermənilər tərəfindən törədilən ekoloji terrordur: "Aksiyanın məqsədi "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarının, ətraf mühitin çirklənməsinin, oradakı su hövzələrinin tamamilə yararsız hala düşməsi və meşə massivinin qırılmasının qarşısını almaqdır. Biz hüquqlarımız çərçivəsində tələblərimizi irəli sürür, ekoloqlarımızın həmin faydalı qazıntı yataqlarında monitorinq aparmasına şərait yaradılmasını tələb edirik. Tələblərimiz yerinə yetirilənə qədər bu aksiyanı davam etdirəcəyik. Beynəlxalq hüquqa görə, bizim öz ərazilərimizdə monitorinq keçirməyə tam haqqımız var. Elə buna görə də xalqımız həmrəylik nümayiş etdirir, minlərlə gənc aksiyaçılara qoşulmaq üçün məqam gözləyir".

F.Həsənzadə qeyd edib ki, ermənilərin Qarabağda ekosidi uzun illərdir ki, davam edir, ərazilərimizdə hektarlarla meşə massivləri qırılıb, təbii sərvətlərimizin qeyri-qanuni istismarı zamanı ətraf mühit, ən çox da su hövzələri çirkləndirilib: "Aksiya iştirakçılarının əsas tələbi də bu ekosidə son vermək, suveren ərazilərimizdə ekoloji mühitə nəzarəti ələ almaqdır. Hər gün yüzlərlə könüllü, vətəndaş cəmiyyəti institutlarının nümayəndəsi, jurnalist və qeyri-hökumət təşkilatı üzvü aksiyaya qoşulurlar. İştirakçıların əhvali-ruhiyyəsi çox yüksəkdir. Fəallar gecə-gündüz demədən, şaxtalı hava şəraitinə məhəl qoymadan "ekoloji terrora son!" deyir. Onlar bir dəqiqə belə olsa, postu tərk etmir, ocaq ətrafında səhərə kimi Vətən naminə şüarlar səsləndirməyi özlərinə borc bilirlər".

Gənc fəalın sözlərinə görə, ermənilər həmişə olduğu kimi, yenə də vəziyyətdən sui-istifadə edib iyrənc təbliğatla məşğul olur, azərbaycanlıları sülhməramlılarla qarşı-qarşıya qoymağa çalışırlar: "Onlar aksiya iştirakçıları ilə sülhməramlılar arasında hansısa problemlərin yaşandığına dair əsassız iddialar səsləndirirlər. Hər kəs şahiddir ki, sülhməramlılarla fəallar arasında heç bir insident yaşanmır, aksiya iştirakçıları tərəfindən problem yaradılmır. Əksinə, bizim gənclər Rusiya hərbçilərinə su, yemək və başqa azuqələr təklif edirlər. Şahidi olmuşam ki, Rusiya sülhməramlılarından bəziləri bizi salamlayır, azərbaycanlılara "qardaş" deyə müraciət edirlər. Bu baxımdan, bəzi xarici dairələrin, eləcə də ermənilərin növbəti iddiaları reallığı əks etdirmir. Bu təxribatdan başqa bir şey deyildi".

#### Sülhməramlılar zirehli texnikanı kənara çəkiblər

F.Həsənzadə bildirib ki, biz humanist xalq olduğumuza görə ölkəmizdə yaşayan bütün şəxslərin hüquqlarını qorumağa çalışırıq: "Aksiya artıq 10 gündür ki, davam edir. Rusiya sülhməramlıları bu günlər ərzində bir daha əmin oldular ki, bizim aksiya özündə kin-küdurət ehtiva etmir, biz ermənilərdən fərqli olaraq nasist siyasət həyata keçirmirik. Ekofəallar dinc erməni əhaliyə problem yaratmır, humanitar yardım daşıyan maşınların keçidinə əngəl olmur. Ermənistanın təbliğ etdiyi kimi, guya bəzi erməni gənclərin və şagirdlərin İrəvandan Xankəndiyə dönə bilməmələri həqiqəti əks etdirmir. Ona görə ki, Xankəndi Azərbaycan ərazisi olduğu üçün orada yaşayan ermənilər də bizim vətəndaşlarımız hesab edilirlər və onların sərbəst hərəkətlərinə heç bir maneə törədilmir".

Aksiya iştirakçısı onu da qeyd edib ki, sülhməramlılar Şuşa-Laçın yolunda yerləşdirdikləri zirehli texnikanı kənara çəkib, postların yerini qismən dəyişiblər: "Bunun səbəbi odur ki, Rusiya hərbçiləri bizim aksiyanın dinc xarakter daşıdığının şahidi olublar. Onlar biz tərəfdən heç bir təhlükə hiss etmədikləri üçün zirehli texnikanı kənara çəkiblər. Aksiya sivil ermənilərə, eləcə də sülhməramlılara qarşı hansısa təhlükə yaradılması məqsədilə təşkil edilməyib. Aksiya iştirakçıları onlar üçün ayrılmış ərazidən bir addım belə irəli atılmırlar ki, bu, təhlükə kimi başa düşülməsin".

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

## Kəskin hava şəraiti aksiya iştirakçılarını qətiyyən qorxutmur



Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarının monitorinqinin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı ekoloqların, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin və fəalların Laçın-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası artıq on gündür davam edir.

AZƏRTAC xəbər verir ki, dekabrın 20-də günorta saatlarından yağan qar Şuşanı ağ örpəyə bürüyüb. Havanın şaxtalı, ərazinin qar olmasına baxmayaraq, aksiya iştirakçıları Xankəndi-Laçın yolundadırlar. Onlar mütəmadi olaraq ekoloji terrora son qoyulması ilə bağlı şüarlar səsləndirirlər.



# İranda son 4 ayda 506 nəfər qətlə yetirilib

İran İslam Respublikasında etiraz aksiyaları ilə bağlı qeyri-sabit vəziyyət hökm sürməkdədir. Azərbaycan İnsan Haqları Cəmiyyəti xəbər verir ki, Təbrizin Əndişə şəhərindəki Şəkiba məktəbində təhsil alan 16 yaşlı yeniyetmə qız Həsti Həsənpur hökumət məmurları tərəfindən öldürülüb.






Bildirilir ki, Həsti Həsənpurun dekabrın 7-də öldürülməsinə baxmayaraq, ailəsi məsələnin ictimailəşdirilməməsi ilə bağlı təhlükəsizlik idarəsi tərəfindən təhdid edildiyinə görə məlumat gec yayılıb.

İranın Hüquq Müdafiəçiləri Qrupunun xəbər agentliyi dekabrın 20-si axşam saatlarına olan məlumatında hökumət məmurları tərəfindən qətlə yetirilən etirazçıların sayı açıqlanıb. Qurumun yaydığı məlumatda sentyabrın 17-dən dekabrın 21-dək ölkədə davam edən etiraz nümayişlərində 69-u uşaq olmaqla 506 nəfərin hökumət məmurları tərəfindən öldürüldüyü bildirilib. Bununla yanaşı, məlumatda 18457 nəfərin saxlanıldığı, onlardan 652 nəfərinin tələbə olduğu qeyd edilib.

Xəbər verilir ki, bu müddət ərzində 161 şəhərdə etirazçılar İranın idarəetmə sisteminə qarşı nümayişlər həyata keçirib və 144 universitetin tələbələri bu etiraz aksiyalarını dəstəkləyiblər.

Bu arada "Günaz.tv" telekanalı xəbər verir ki, İranda qadın haqları uğrunda etirazların zorakılıqla yatırılmasını araşdırmaq üçün Birləşmiş Millətlər Təşkilatı tərəfindən banqladeşli vəkil, pakistanlı hüquq eksperti və argentinalı insan haqları müdafiəçisindən ibarət qrup təyin edilib.

Tehranın ötən ayın 24-də BMT İnsan Haqları Şurasının 47 üzvü tərəfindən bəyənilən bu beynəlxalq araşdırma qrupunun yaradılmasına qarşı çıxması səbəbindən üç hüquq müdafiəçisinin öz missiyasını yerinə yetirmək üçün İrana səfər etmək ehtimalı azdır.

Qeyd edək ki, noyabrın sonlarında Birləşmiş Millətlər Təşkilatının İnsan Haqları Şurası Tehran hökumətinin iranlıların inqilabi qiyamını yatırtması ilə bağlı xüsusi iclasında repressiyalarla bağlı beynəlxalq faktaraşdırıcı komitənin yaradılmasını nəzərdə tutan qətnaməni təsdiqləyib.

İnsan Hüquqları Şurasının 25 üzvü bu qətnamənin lehinə, altı üzvü əleyhinə səs verib, 16 üzv isə bitərəf qalıb.

Bildirilir ki, şuranın 2023-cü ilin yayında baş tutacaq 53-cü sessiyasında bununla bağlı hesabat təqdim edilməlidir.

Son məlumata görə, Zəncandakı İncəsənət Universitetinin tələbəsi və "Tərbiyəti Müdərris" Universitetinin Həmkarlar İttifaqı Şurasının keçmiş katibi Zəhra Əliəkbər Cəm həbs edilib. Dekabrın 19-u gecə saatlarında təhlükəsizlik qüvvələri tərəfindən tutulan fəalın saxlanılma səbəbi və hara aparıldığı bilinmir.

Böyük Britaniyanın Baş naziri Rişi Sunak bildirib ki, Britaniya hökuməti İranın düşmənçilik fəaliyyətinin qarşısını almaq üçün daha çox vaxt sərf edəcək.

Hökumət başçısının dediyinə görə, o, Tehran hökumətinin iranlı etirazçılara münasibəti, nüvə proqramı və regionda sabitliyi pozan digər hərəkətlərindən getdikcə daha çox narahatlıq keçirir.

Böyük Britaniyanın Baş naziri İranda davam edən etirazlarla bağlı suala cavab olaraq deyib: "İrandakı etirazlardan aldığımız mesaj çox aydındır - İran xalqı hökumətdən razı deyil. Biz isə İran xalqının yanındayıq. Rusiya və Ukrayna yeni ildə birnömrəli xarici siyasət problemimiz olaraq qalsa da, mən İranın davranışından getdikcə daha çox narahat oluram".

Rişi Sunak daha sonra Tehran hökumətinin İrandakı etirazçıları susdurmaq davranışını iyrənc adlandırıb.

Öz növbəsində Amerika rəsmiləri "Tehranın ABŞ və İranın Birgə Hərtərəfli Fəaliyyət Planının həyata keçirilməsinə tez bir zamanda qarşılıqlı qayıdış imkanını öldürdüyünü" bildirib. Bunu ABŞ Dövlət Departamentinin Mətbuat xidmətinin rəhbəri Ned Prays deyib.

Bundan əvvəl Pentaqon rəhbərinin siyasi məsələlər üzrə müavini Kolin Kal bildirib ki, İranın nüvə proqramı üzrə Birgə Hərtərəfli Fəaliyyət Planının bərpası məsələsi yaxın perspektivdə öz aktuallığını itirib.

ABŞ Prezidenti Co Bayden də İranla imzalanmış nüvə sazişinin artıq "öldüyünü" etiraf edib, lakin bunu rəsmən elan etməkdən boyun qaçırıb.

İranın "Mehr" Xəbər Agentliyinə müsahibə verən siyasi şərhçi və jurnalist Seyid Mustafa Xoşhəşim Tehranın repressiv sanksiyaların ləğvi üçün danışıqları davam etdirməyə hər zaman hazır olduğunu, lakin İranla münasibətlərdə yüksək tələblər irəli sürən Amerika tərəfinin aylarla davam edən fasilə götürdüyünü bildirib.

**Rizvan CƏFƏROV,**
**"Azərbaycan"**

# Xankəndi-Laçın yolundakı aksiyanın iştirakçıları isti geyimlə təmin olunublar

Azərbaycanın Qarabağ bölgəsindəki faydalı qazıntı yataqlarının ermənilər tərəfindən qanunsuz istismarının dayandırılması, bu ərazilərdə ekoloji terrora son qoyulması məqsədilə dekabrın 12-dən Xankəndi-Laçın yolunda başlayan etiraz aksiyası artıq on gündür davam edir.




AZƏRTAC xəbər verir ki, bölgədəki sərt hava şəraiti nəzərə alınaraq ölkə ictimaiyyəti tərəfindən aksiya iştirakçılarına müxtəlif cür dəstək və yardımlar göstərilir. Belə ki, dekabrın 21-də "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri ictimai dəstək nəticəsində toplanmış papaq, əlcək, şərf və digər isti geyimləri aksiya iştirakçılarına paylayıblar. Bölgədə hökm sürən kəskin hava şəraitinin davam edəcəyi nəzərə alınaraq qarşıdakı günlərdə də aksiya iştirakçılarının zəruri isti geyimlərlə təmin olunması nəzərdə tutulur.






# Raket və Artilleriya Qoşunlarında döyüşatışlı təlim keçirilir

Cari il üzrə döyüş hazırlığı planına uyğun olaraq Raket və Artilleriya Qoşunlarının bölmələri ilə döyüşatışlı taktiki təlim keçirilir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, plana uyğun olaraq bölmələr daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılaraq ərazidə açılma, atəş mövqeyinin tutulması və texnikaların döyüş vəziyyətinə gətirilməsi üzrə normativləri yerinə yetiriblər.

Təlimin keçirilməsində əsas diqqət raket və artilleriya bölmələrində komandirlərin idarəetmə vərdişlərinin təkmilləşdirilməsinə, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına, eləcə də döyüş əməliyyatları zamanı fəaliyyətlərin planlaşdırılması və digər qoşun növləri ilə qarşılıqlı əlaqənin inkişaf etdirilməsinə yönəldilib.

Real döyüş şəraitinə uyğun keçirilən təlimdə şərti düşmən hədəflərinin sərrast atəşlə məhv edilməsi üzrə qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirilib.

**Ana dili problemi cənub ədəbiyyatında**

# Azərbaycan türkcəsinə İranın düşmən münasibəti

I Şah İsmayıl dönəmində saray və beynəlxalq əlaqələr dilinə çevrilən Azərbaycan türkcəsi onun ölümündən sonra öz statusunu get-gedə itirsə də uzun illər boyu İranın şimal-qərbini, Tükiyənin şimal-şərqini və demək olar ki, bütün Cənubi Qafqazı əhatə edən geniş coğrafi məkanda aktiv ünsiyyət vasitəsi, yazılı ədəbiyyat, sonralar isə mətbuat dili olmuş, sərbəst şəkildə işlədilmişdir. Onun tarix boyu dəyərlər daşıyıcısı kimi ən aktiv şəkildə istifadə olunuğu mərkəzlərdən biri də təbii ki, Cənubi Azərbaycan adlandırılan ərazidir. Azərbaycan türkcəsində ilk çap kitabının - Füzulinin *"Divan"ının* 1825-ci ildən başlayaraq Təbrizdə dəfələrlə nəşr olunması, böyük maarifçi M.H.Rüşdiyyənin 1888-ci ildə ana dilində yeni tipli ibtidai məktəblər təsis etməsi və onların sayını Təbrizdə ona çatdırmaqla bu dili faktik olaraq ölkənin tədris sisteminə daxil etməsi, eləcə də ana dilində *"Vətən dili", "Ana dili"* və sairə adda yeni dərsliklər, dərs vəsaitləri hazırlaması da bu baxımdan təsadüfi deyil.

Əslində, Azərbaycan, Xorasan, Kirman, Bəlucistan və Fars məmləkətlərindən ibarət federativ bir dövlət kimi idarə olunan və XX əsrin əvvəllərinədək *"Məmaliki-Məhrusə"* adlandırılan İranda konstitusiya olmadığından uzun illər boyu rəsmi dövlət dili anlayışı da olmamışdır. Yəni hər məmləkət öz dilindən sərbəst şəkildə istifadə etmişdir.

Məşrutə dönəmində isə ana dilində təhsil mərkəzləri say və keyfiyyət baxımından xeyli artıb inkişaf etməklə, xalq kütlələrinin daha geniş təbəqələrini əhatə etməyə başlamışdı. Azərbaycanda bütün elanlar və tələbə qəbulları ana dilində olmuş, hər kəs öz fikir və düşüncələrini ana dilində yazıb ifadə etmişdir.

Məşrutə inqilabının lideri Səttar xan apardığı mübarizənin ağırlığına, meydana çıxan maddi və mənəvi çətinliklərə baxmayaraq, doğma Azərbaycan türkcəsini yüksək keyfiyyətlə tədris etmək üçün müsabiqə təşkil etmək təşəbbüsü irəli sürmüş, dili gözəl və mükəmməl səviyyədə mənimsəyən şagirdlər üçün qızıl medallar təsis etdirmişdi.

Amma inqilabi hərəkatın geniş yayıldığı həmin dövrdən başlayaraq transformasiya nəticəsində həm də fars millətçiliyinin şovinizm mərhələsinə keçidi baş vermiş, assimilyasiya rəsmi dövlət siyasəti səviyyəsinə qaldırılmağa başlanmışdı. Buna isə qəribə də olsa, ilk konstitusiya və farslara hakim xalq statusu verən ilk seçki qanunu təkan vermişdi. Belə ki, konstitusiya Tehrana xüsusi üstünlük yaratmaqla 156 məclis üzvünün 60 nəfərinin buradan seçilməli olduğunu təsbit etmişdi. Əhalisi ondan 6-7 dəfə çox olan Azərbaycana isə cəmi 12 deputat yeri ayrılmışdı. Bundan başqa, konstitusiya fars dilinə dövlət dili statusu vermişdi.

Araşdırmalar göstərir ki, İranda Azərbaycan türkcəsinə qarşı ögey münasibət bu və ya digər dərəcədə həmişə mövcud olsa da, onun rəsmi səviyyədə "gözdən salınması" Qacarlar hakimiyyətinin son dövrü ilə bağlıdır. Elə buna görə də görkəmli söz ustadı M.Ə.Möcüz "türk oğlu türk olan" şahın öz ana dilinə münasibətini ürəkağrısı ilə belə təsvir edir:

*Dünən şeir ilə bir namə apardım şahi-İranə,*
*Dedi: "Türkcə bilmirəm, məni sən uşaq sayırsan?"*
*Özü türk oğlu türk, əmma deyir türki cəhalətdir,*
*Xudaya, müzməhil qıl təxtidən bu ali-Qacari!*

İranda Azərbaycan türkcəsinə qarşı açıq rəsmi basqılar isə real olaraq 1925-ci ilin dekabrında Rza xanın hakimiyyətə gəlməsindən sonra başlamışdır. O, Qacar xanədanının sonuncu nümayəndəsini devirməklə yanaşı, həm də ölkədə əsrlər boyu davam etmiş türk şahlarının hökmranlığına son qoydu. İranda türk şahları dönəmi qapandı və Pəhləvilər dönəmi başladı. Siyasi hakimiyyətdən məhrum edilmiş türklər nəinki öz ana dillərinin az-çox rəsmi hüququnu itirdilər, həm də ondan yalnız öz evlərində istifadə etmək məcburiyyətində qaldılar.

İstər yeni şah, istərsə də onun himayədarları taxt-tacla bağlı planlarını reallaşdırdıqdan sonra ilk növbədə son 25 il ərzində İranda baş verən sosial və siyasi çaxnaşmaların, milli azadlıq hərəkatlarının təbiətini diqqətlə təhlil edərək idarəçiliyin boşalmış mexanizmlərini "bərkitməyə" başladılar. 1928-ci ildən ölkədə *"tək İran milləti"* yaratmaq adı altında farslaşdırma siyasətinin icrasına başlandı. Rza xanın assimilyasiya siyasəti bütün etnik qrupları əhatə etsə də, daha çox ölkənin ən böyük etnik toplumu olan Azərbaycan türklərinə qarşı sərtliyi ilə diqqəti cəlb edirdi.

Assimilyasiya siyasətinə "etibarlı elmi əsas"lar da tapılmışdı. Farslaşmış "düşüncə adamları" S.Hasan Tağızadə, Mahmud Afşar, C.Mirzə Qacar, S.Əhməd Kəsrəvi kimi "sapı özümüzdən olan baltalar"ın, fars millətçiliyinə bayraqdarlıq edən erməniəsilli Mirzə Melkum xan, gürcüəsilli Məlükül-Şüarayi Bahar, yəhudiəsilli M.Əli Furuğinin geniş təbliğ olunan "irs"ləri bu baxımdan "təkzibedilməz qaynaqlar" hesab olunurdu. Rəsmi təbliğat maşını bu "qaynaq"lara əsaslanaraq Azərbaycan türkcəsini "fars dilinin səlcuqlar dövründə türkləşmiş pozuq bir ləhcəsi" elan edirdi.

1930-cu illərdə Cənubi Azərbaycanda bir sıra məsul dövlət vəzifələrində işləmiş A.Mostofi hətta yas yerində azərbaycanlılara öz ölülərinə ana dilində ağı deməyə belə icazə vermədiyini etiraf edərək deyirdi: *"Mən onlara başa salırdım ki, siz Daryuşun və Kambizin əsl xələfləri, nə üçün Əfrasiyab və Çingizin dilində danışırsınız".* Bu həmin şəxs idi ki, müsahibələrinin birində açıq-aydın şəkildə milli təhqirə keçərək demişdi: *"Yonca yeyib məşrutə alan Azərbaycan türkləri ələf yeyib İranı abadlaşdırarlar".*

Rza xan hakimiyyətinin ilk illərində Azərbaycanda maarif işlərinə rəhbərlik etmiş Ə.Möhsüni Təbrizdə azərbaycanlı ziyalıları toplayaraq maarif idarələrində və məktəblərdə türkcə danışığın yasaq olduğunu bildirdikdən sonra bəyan etmişdi: *"Məktəblərdə hər kəs türkcə danışsa, eşşəyin noxtasını onun başına salıb, axura bağlayın".* Bu da azmış kimi, azərbaycanlıların evlərində, kitabxanalarında ana dilində olan kitabları topladıb yandırırdılar. Hətta iş o dərəcəyə çatmışdı ki, məktəblərdə, ictimai yerlərdə "cərimə sandıqları" qoyur, ana dilində danışanları yalnız ora pul atmağa məcbur etməklə inzibati cəzalardan azad edirdilər.

Doktor Rza Bərahəni xatirələrində orta məktəbdə təhsil aldığı dövrdə türkcə hazırladığı divar qəzetinin zorla ona yedirdildiyindən bəhs edir...

Rza xan taxta əyləşən kimi həyata keçirdiyi tədbirlərdən biri də "fars dilini yabançı sözlərdən təmizləmək" oldu. 1926-cı ildə xüsusi komissiya təşkil edərək "əcnəbi söz" adı altında bütün türk sözlərini əsrlər boyu formalaşmış hərbi terminologiyadan çıxartdı. Sonra bu "iş"i genişləndirib yer, dağ, çay və yaşayış məntəqəsi adlarının dəyişdirilməsinə, daha sonra insanların adına və soyadına tətbiq etdi.

Qeyri-fars xalqların dillərinə qarşı yürüdülən bu genosid siyasəti 1934-cü ilin payızında özünün daha bir iyrənc üzünü göstərdi - İran Məclisi ölkədə başqa dillərdə məktublaşmaya, şikayət və ərizələrə baxmağa yasaq qoymaq haqda qanun qəbul etdi.

Ölkənin qeyri-fars xalqlarının dilinə və mədəniyyətinə qarışı bu cür qeyri-insani yanaşma 1941-ci ilin avqust ayına qədər davam etdi. Həmin vaxt ölkənin cənubu Böyük Britaniya, şimalı isə sovet qoşunları tərəfindən işğal olundu. Rza xan taxtdan salınıb CAR-a sürgün edildi.

21 Azər hərəkatından sonra fəaliyyətə başlamış Milli Hökumət Azərbaycan muxtariyyəti yaratmaqla Azərbaycan dilini rəsmi dövlət dili elan etdi, azərbaycanlıların öz ana dilində danışmaları, yazıb-oxumaları üçün müvafiq şərait hazırladı. Məktəblərdə ana dilində dərslərin keçirilməsi təmin olundu. Savadsızlığı aradan qaldırmaq üçün qəti addımlar atıldı.

II Dünya müharibəsi başa çatdıqdan və sovet qoşunları Cənubu Azərbaycandan çıxarıldıqdan sonra İran hərbi hissələri 1945-1946-cı illərdə fəaliyyət göstərmiş Milli Hökumətin mövcudiyyətinə qəddarlıqla son qoydu. Tezliklə məlum oldu ki, qarşılıqlı razılaşmaya əsasən, şahın taxta oturdulmuş oğlu Məhəmmədrza Pəhləvi şovinistlikdə atasından heç də geri qalmır. Onun özü üçün icad etdiyi "Şahənşah, Ariyanmehr" *("Şahlar şahı, Arilərin günəşi")* titulunun daşıdığı anlam da bunu sübut edirdi. Cənubi Azərbaycanda ədəbiyyat, təhsil, mədəniyyət, mətbuat sahəsində yaranmış canlanma "Arilərin günəşi"nin göstərişi ilə qəddarlıqla söndürüldü. Ana dilində nəşr edilmiş kitab, qəzet və jurnallar yığılıb yandırıldı. Xalqın təzəcə çiçəklənən azadlıq arzularını rejimin "repressiya şaxta"sı bar verməden vurdu. Hətta iş o dərəcəyə çatdı ki, şovinist şah 1958-ci ildə Nazirlər Kabinetinin iclasında heç bir siyasi və hüquqi dəyərə məhəl qoymadan maarif nazirinə xüsusi tapşırıq verdi: elə edin ki, uşaq bağçalarında, məktəblərdə fars dilini icbari etməklə qeyri-farslar ana dillərini unutsunlar.

Cənubda ana dilinin hüquqları uğrunda mübarizənin öncüllərindən biri olan böyük ziyalı və fikir adamı Həbib Sahirin aşağıdakı misraları bu durumu anlamaq baxımından olduqca ibrətamizdir:

*Anlatdılar, get məktəbə, uşaq oxut,*
*Dərsdən sonra, dön evinə...*
*Yada qul ol, dərdə alış, farsca danış,*
*Əsirliyi, dərvişliyi təlqin elə uşaqlara!*

Həmin dövrdə İranda Azərbaycan türkcəsinə qarşı münasibətin nə dərəcədə eybəcər bir forma aldığını şahın milliyyətcə Azərbaycan türkü olan anası Tacəlmülk Ayrımlının xatirələrindən də aydın şəkildə görmək olar. Belə ki, o öz divanını ana dilində çap etdirmək istədikdə, oğlu belə demişdi: *"Xalq məni bir başqası ilə əvəz etmək istəyindədir. Mələkə ananın şeir yazması - özü də bu dildə - yaxşı nəticə verməz!"...*

Bütün bunlar onu göstərir ki, İranda Azərbaycan türklərinin ana dilindən istifadə hüququ dövlət səviyyəsində açıq formada Rza şah və onun oğlu Məhəmmədrza şah dönəmində pozulmuş, problemin bu şəkildə ortaya çıxmasında istər beynəlxalq amillər, istər yeni mərhələyə yüksəlmiş fars şovinizmi, istərsə də dövlət rəhbəri kimi bu şəxslərin fərdi insani keyfiyyətləri və İran cəmiyyətinin idarə edilməsi, inkişafı ilə bağlı təsiri altına düşdükləri millətçi siyasi görüşlər həlledici rol oynamışdır.

Bu hüquq pozuntusu isə aşağıdakılarla nəticələnmişdir.

- *Azərbaycan türkləri nəinki ana dilinin rəsmi dairələrdə istifadə hüququndan, həm də onun mətbuatda, ədəbi yaradıcılıqda istifadə hüququndan məhrum edilmişlər;*
- *ana dilində nəşr edilmiş kitab, jurnal və qəzetlərin yığışdırılıb məhv edilməsi, türkcə toponimlərin farsca ilə əvəzlənməsi səbəbindən Azərbaycan türklərinin tarixi yaddaşına və milli-mədəni dəyərlərinə böyük zərbə vurulmuşdur.*
- *ana dilində təhsil sistemi tamamilə məhv edilmiş, azərbaycanlı uşaqlar məktəbə ayaq basanda anlamadıqları bir dillə qarşılaşmış və bu dildə təhsil almağa məcbur edilmişlər;*
- *ana dilində təhsilin olmaması səbəbindən uşaqların böyük bir hissəsi (xüsusən kənd yerlərində) təhsildən kənarda qalmış, çağdaş bilik və bacarıqlara yiyələnə bilməmişlər;*
- *Azərbaycan türkcəsi təbii inkişafdan məhrum edildiyindən, onun lüğət fondu lüzumsuz ərəb və fars sözləri hesabına genişlənmiş və çətin anlaşılan bir duruma düşmüşdür;*
- *milli hüquqlar uğunda mübarizə aparan ziyalıların böyük bir hissəsinin misli görünməmiş fiziki və mənəvi basqılara məruz qalması, məhv edilməsi səbəbindən xalqın genefonduna böyük zərbə vurulmuşdur.*

***(ardı var)***

***Fikrət SÜLEYMANOĞLU,***
***Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisi***

*(Əvvəli qəzetin 21 dekabr sayında)*

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 12 noyabr (Çərşənbə axşamı günü) tarixli XXXVII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Səşənbə, 5 səfərülmüzəffər sənə 1337.
12 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalətın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birindən Bakı üçün 24, başqa şəhərlərə 35 rubledir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

### ELANİ-RƏSMİ [RƏSMİ ELAN]

Acil ehtiyacat [ehtiyaclar] və istimdad [kömək istəmək] üçün telefonla gündüzləri 25-80, gecələri 6-23 nömrəli Polis Müfəttişi-Ümumiliyinə [Baş Polis Müfəttişliyinə] müraciət ediniz.

### AZƏRBAYCAN ŞURAYİ-MİLLİ RƏYASƏTİNDƏN

Azərbaycan Cümhuriyyəti Hökumətinin qərarına və Heyəti-Vükəla Rəisi Fətəli xan Xoyski müraciətinə binaən [əsasən], Azərbaycan Şurayi-Millisinin noyabrın 16-sında iniqad edəcəyi [təşkil ediləcəyi, qurulacağı] bütün Azərbaycan vətəndaşlarına elan ilə bərabər, Şurayi-Milli əzasının [üzvlərinin] yövmi-məzkurda [deyilən gündə] Bakıda bulunmalarını rica ediram. Hər nə səbəbdənsə xüsusi dəvətnamə alammamış olan əzanın işbu elannamə ilə iktifa etmələri [kifayətlənmələri] müstədadır [xahiş olunur].

*Azərbaycan Şurayi-Millisi Rəisi Rəsulzadə Məhəmməd Əmin*

### ELANİ-RƏSMİ [RƏSMİ ELAN]

Polis Müfəttişi-Ümumiliyindən

1. Əvvəlcə dəxi elan olunduğu üzrə qadın, erkək, bilcümlə [bütün] erməni əhalinin Tiflis, İrəvan və sair hər hangi məmaliki-xariciyyəyə [xarici məmləkətə] əzimətləri [gedişləri] tamamən sərbəstdir.
2. Əzimət edəcəklər səyahət vərəqələrini almaq üzrə Polis Müfəttişi-Ümumiliyinə müraciət edəcəklərdir.
3. İşbu əsər tarixi-elandan [elan tarixindən] etibarən beş gün Bakıda müntəşir [nəşr olunan] bilümum [bütün] qəzetələrdə nəşr ediləcəkdir.

### TELEQRAF XƏBƏRLƏRİ

**Şuraların altıncı ictimaısı [yığıncağı]**

Moskva - Mərkəzi İcra Komitəsinin mətbuat bürosu xəbər verir ki, təşrini-saninin [noyabrın] 6-sında Sverdlovun sədarəti [sədrliyi] ilə Ümumrusiya Vəkillər Şurasının 6-cı ictimaı vaqe olmuşdur. İctimada böylə bir qətnamə qəbul edilmişdir:

*Ümümrusiya Vəkillər Şurasının 6-cı Fövqəladə İclası Rusiya əleyhinə müharibə aparmaqda olan Şimali Amerika, İngiltərə, Fransa, İtaliya və Yaponiya hökumətlərinə bütün cahan naminə dübarə [bir daha] izhar etməyi [bildirməyi] kəndi vəzifəsindən sanaraq, qan tökülməsinə xitam vermək üçün sülh əqdi [bağlanması] haqqında müzakirat [müzakirələr] başlanmasını təklif edir.*

*Sədr: Sverdlov; katib: Avanesov*

### ERMƏNİ-GÜRCÜ MÜNASİBATI [MÜNASİBƏTLƏRİ]

**Tiflisdə idareyi-örfiyyə [fövqəladə vəziyyət]**

8 təşrini-sanidə Gürcüstan Hökuməti böylə bir əmrnamə nəşr etdirmişdir:

*Gürcüstan Demokratik Cümhuriyyəti Hökuməti bununla elam edir [bildirir] ki:*

*1. Milisiya naçalniki əmrinə baxmayaraq, Tiflis şəhəri əhalisi bu vaxtadək silahı verməmişlər. Halbuki silah üç gündək verilməli idi. Alınan məlumata görə, Tiflisdə silah və əczayi-nariyyə [partlayıcı maddə] anbarları mövcuddur.*

*2. Tiflis və ətrafında Gürcüstan Hökuməti və təşkil edilmiş nizam və qayda əleyhinə təbliğat davam etməkdədir.*

*3. Hərbi nöqteyi-nəzərindən böyük əhəmiyyəti haiz [əhəmiyyət daşıyan] dəmiryolu körpüsü partladılmışdır. Alınmış məlumata görə, lazımlı anbarları və müəssisələri dağıtmaq üçün sui-niyyət hazırlanmış.*

*4. 1, 2 və 3-cü maddələrə məbni [əsasən], Tiflis və ətrafında qanlı qardaş müharibəsi, əksinqilab, xarici qüvvənin müdaxiləsi sui-niyyəti olduğu üçün Tiflis və dairəsi [ətrafı] idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] altında elan olunur.*

*General-qubernatorluğa general Mazniyev təyin edilir. Tiflisdəki hərbi qüvvə bütünlüklə işbu zata [bu şəxsə] tapşırılır. Nizami hissələr, milisiya, xüsusi quberniya taboru və başqa Tiflisdəki qitələr [hərbi hissələr] və Nəftluqidan Didubeyədək dəmiryolu da müşarileyhə [adıçəkilən şəxsə] tapşırılır.*

*Əmr 9 təşrini-sani [noyabr] 1918 sənə gecə saat 12-dən etibarən qüvvəni haiz olur [qüvvəyə minir].*

*Hökumət sədri: Jordani[ya]*

* * *

- Daxiliyyə Nəzarəti əmri mövcibincə [Daxili İşlər Nazirliyinin əmrinə əsasən] sabiq Zaqafqaziya Komissarlığı Maliyyə komisarı Karçikyanın evində təftiş icra edilmişdir. Karçikyan hal-hazırda İrəvanda Ermənistan Hökumətində Ümuri-Nafiə [Sosial Təminat] naziridir.

- Təşrini-saninin [noyabrın] 8-ndə şəhər milisiya əzası [üzvləri] "Kavkazskoye slovo" qəzetəsi idarəsinə gəlib, işbu qəzetə mühərriri Levan Kipianini Daxiliyyə Nəzarəti əmri ilə həbs etmək istəmişlərdir. Kipiani bu vaxt idarədə yoxmuş.

- Erməni siyasi heyətinin təkidatı [təkidləri] ilə Erməni Cümhuriyyəti əmvalının [mallarının] Mantaşevin evində olan anbardan cəbbəxanaya (arsenala) nəql edilməsi müvəqqətən dayandırılmışdır. Gürcüstanda olan Ermənistan vəkili Camalyan Ermənistan Cümhuriyyətinin Tiflisdə qalan əmvalının hamısının tezliklə İrəvana nəql edilməsindən ötrü icazə verilməsinin lazım olduğunu Gürcüstan Hökumətinə bildirmişdir.

- Məzkur [adıçəkilən] Camalyan, Bakuriani-Tsalka dairəsinə cəm olan Axalkələk qaçqınlarının dəhşətli halını Ermənistan Cümhuriyyətinin Kiyevdə olan komissarına xəbər vermişdir. Türklər bu qaçqınların öz vətənlərinə övdət etmələrinə [qayıtmalarına] razı olmayırlar. Bununla bərabər Gürcüstan Hökuməti də bu qaçqınları qeyri yerlərdə yerləşdirməyə buraxmır. Açıq havada yaşayan bu qaçqınların öz vətənlərinə qaytarılmalarının təxirə salınması ilə bir çoxlarının tələf olmasını xəbər verib, Camalyan Kiyev komissarlığından bu barədə əfkari-ümumiyyəyə [ictimaiyyətə] məlumat verilməsini xahiş etmişdir.

- Nəqliyyat işlərini qaydaya salmaq lazım gəldiyindən, Camalyan Gürcüstan Hökumətinə müraciətlə, nəqliyyat işlərinə münasibəti olan məsələləri, erməni heyəti nümayəndələri [ilə] bir yerdə həll etməkdən ötrü Gürcüstan Hökuməti tərəfindən vəkillər təyin edilməsi xahişində bulunmuşdur.

- Erməni siyasi heyəti Gürcüstan Xariciyyə Nəzarətinə [Xarici İşlər Nazirliyinə] müraciət edib, silah təslim edilməsi əmrinin müvəqqətən Tiflisə varid olan [gedən] Ermənistan ordusu zabitanına [zabitlərinə] dəxi şamil olub-olmadığının izhar edilməsini [bildirilməsini] xahiş etmişdir.

### GÜRCÜ PARLAMANINDA

Təşrini-saninin [noyabrın] 7-sində Çxeidzenin sədarəti [sədrliyi] altında Gürcüstan Parlamanının iclası vaqe olmuşdur. Erməni mətbuatının Gürcüstan Hökuməti əleyhinə təşviqatda bulunması haqqında Sosial-Demokrat firqəsinin istizahı [izahatı] müzakirə edilir.

Lomtatidze sözə başlayıb deyir ki:

Bu axır zamanda, xüsusən Gürcüstan Hökuməti ilə demokratiyası [xalqı] ancaq öz qüvvələri ümidinə qaldıqları bir vaxtda, bizim istiqlaliyyətimiz və demokratik üsuli-idarəmiz əleyhinə həddən ziyadə qızğın təşviqat və təhəmmül ediləmməz [dözülməz] çıxışlar yapılmaqdadır. Şəhər və kənd əhalisi arasında qövlən [sözlə], feilən [əməli olaraq] və mətbuat vasitəsilə geniş bir surətdə təşviqat davam etməkdədir. Körpünün partladılmasına və demokratik hökumətimizin endirilməsi haqqında əhali arasında yapılan gizlin təşkilata iktifa etməyib [kifayətlənməyib], qardaş millətlərin demokratiyası [xalqı] arasında qırğın salmaqdan ötrü millətlər arasında olan münasibatın [münasibətlərin] kəskinləşməsinə çalışmaqdadırlar. Bu barədə bir para Tiflis qəzetələri ədəb dairəsindən kənara çıxmışlardır. Bu qəzetələrdən birində namuslu mətbuata yaxışmayan böylə bir məqalə oxuyuruq:

*"Ənvər bəy erməni millətini Türkiyədə məhv etməkdədir. Xan Xoyski bu cinayəti Azərbaycanda və Jordaniya Hökuməti Demoktatik Gürcüstanda icra etməkdədirlər. Gənc Türklər, müsavatçılar və "sosialistlər" bir yerə cəm olub erməni millətinin məhv edilməsi qanlı siyasətini silah və təərrüz [hücum] vəsilələri ilə feilən icraya qoymaqdadırlar. Bütün aləmi-insaniyyət qarşısında bütün millət, yüzlərcə və minlərcə məhv, qaçqınlar dəxi həlak olmaqdadırlar. Gürcüstanda da həmçinin erməni millətinin qalanı tələf edilməkdədir. Cavaxetiyanın Gürcüstan torpağına daxil edilməsi üçün Bakurianidə və Tsalkanın hündürlüklərində olan erməni qaçqınlarını qırıb məhv etmək lazım gəldiyindən, Ənvər və Tələtlər planı üzərinə onlar tələf edilməkdədirlər. Bunun qarşısı alınmalıdır. Ənvər bəy cinayətinin Gürcüstanda da icraya qoyulmasına biz razı ola bilmərik. Erməni Hökuməti, Gürcüstanda yaşayan hamı erməni əhalisi və Tiflisdə olan bütün erməni təşkilatları heç bir tələfata baxmayaraq, Gürcüstan Hökumətini erməni millətinin məhv edilməsini tezliklə dayandırmağa məcbur etməlidirlər."*

Bu məqalədə yazılanların hamısının hökumətə məlum olub-olmadığını sual ediriz.

Şimdiyə qədər mehriban yaşayan bilümum [ümumiyyətlə] Qafqaziya və baxüsus [xüsusən] Gürcüstan və Ermənistan demokratiyasının [xalqlarının] düşmənləri qanlı tufan qaldırmaqla Demokratik Gürcüstanda hərc-mərcliyə bais olub, Gürcüstan Hökumətinin endirilməsinə çalışmaqdadırlar. Hərgah bunlar Hökumətə məlumdursa, qanlı tufanın qarşısı alınmaq üçün nə kimi tədbirlər ittixaz edildiyi [tədbirlər görüldüyü] sual olunur.

Alqışlarla qarşılanan Hökumət Sədri Jordaniya böylə bəyanat verir:

Vətəndaşlar! Məsələ xeyli ciddi və bu məsələ ətrafında əhali arasında cürbəcür şayiələr intişar etməsinin [yayılmasının] Hökumətə mövsuq surətdə [sənədləri ilə, sübutları ilə] məlum olduğundan, Hökumət vagüzar edilən [tapşırılan] bir həftə müddətindən istifadə etməyərək, bu suala tezliklə cavab verməyi qərara almışdır. Burada deyilir ki, bu axır günlərdə Tiflisdə müəyyən mətbuat tərəfindən beynəlmiləl toqquşmasına bais ola biləcək təşviqat aparılmaqdadır. Bədbəxtanə [təəssüf ki], burası həqiqətdə də böylədir. Bu axır 4-5 gün ərzində "Orizon" qəzetəsində (başqa əhəmiyyəti olmayan məsuliyyətsiz qəzetələrdən sərfi-nəzər [digər əhəmiyyətsiz və məsuliyyətsiz qəzetləri bir kənara qoysaq belə]) böylə məqalələr dərc edilməkdədir ki, bu qəzetə ruhunun bu axır günlərdə böylə dəyişilməsinə nə bais olduğunu anlamaq mümkün deyildir. Əqəliyyəti [azlığı] təşkil edən millət nümayəndələri birinci gün Parlamana daxil olduqda bizimlə mehribananə bir surətdə işləyəcəklərini bəyan etdilər. Mən bu sözlərin sədaqətən [doğru; səmimi] deyildiyinə inanıb, hal-hazıra qədər də bu rəydə olmuşam. Lakin bədbəxtanə, həmin nümayəndələr mənim bu nəzəriyyatıma şərik olmamışlardır. Mən qəzetələrin çıxışına o qədər əhəmiyyət verməzdim. Lakin mənim əlimdə başqa sübutlar dəxi vardır.

Təşrini-saninin [noyabrın] 6-sında mənə bir çox daşnaklardan mürəkkəb bir heyət təqdim edilmişdi. İşbu gündə də məlum olduğu üzrə "Orizon" qəzetəsi bu məsələ barəsində bir çox məqalə yazmış imiş. Mənim yanıma gələn heyətlər Tiflisi təhdid edən eşalonları yadıma salırdı. Onlar səhv edirlər ki, guya mənə böylə gözükmüşdür. Onlar bilirlər ki, o heyətləri biz öz yanımızdan buraxammayız. "Orizon" heyətləri də o şəkildə. ("Sizin" deyə səda eşidilir. Gurultulu alqış.) Mən bu heyətin əfradını [fərdlərini, üzvlərini] tanımayırdım. Fəqət bir nəfər Bələdiyyə Məclisi sədri müavini Yağcıyanı tanıyırdım. Bu zat, heyətin namından [adından] söylədi ki, işbu heyəti özü təşkil edərək gəlmişdir ki, erməni əhalisinin çıxışı qarşısını almaqdan ötrü təşəbbüsatda bulunsun və mənim cavabımı tələb etdi. Mən mütəhəyyir [heyrətə düşmüş] idim. Əfsus ki, mən erməni qəzetlərini oxumayıram. Böylə olur ki, erməni qəzetələrinin o günkü nömrələrində çıxışlar var imiş. Mən, nə vaqe olmuş deyə sorduqda, cavab verdi ki, Türkiyə fərari [qaçqın] erməniləri öz ölkələrinə buraxır, fəqət Gürcüstan buraxmaq istəmir. Bundan dolayı, erməni milləti namından mənə etiraz etmək qəsdi ilə gəlmişlərdir. Bunların ikinci töhməti Bakurianidəki qoşun dəstəsinin guya fərarilər əkməyi ilə dolanaraq, fərariləri ac buraxmaqlarıdır.

İşbu ittihamlardan əvvəlincisi məni çox düşündürmüşdür. Mən sual etdim ki, həqiqətənmi onlar Gürcüstanın qaçqınları buraxmamağına inanırlar? Heyət əzası [üzvləri] bu işin mühəqqəqliyinə [doğruluğuna] inandıqlarını söylədilər. Bunlar o qədər ürəklə dedilər ki, mən bir qədər şübhəyə düşdüm. Mən xəyal etdim ki, Hökumət belə əmr verməmiş, ola bilsin ki, general Makayev özündən bu işi etmişdir.

Mən bunların "Orizon" qəzetəsi müfəttinliyi [fitnəkarlığı] qurbanı olduğunu bilsəydim, şübhəyə düşməzdim. Bunlar getdikdən [sonra] mən Hərbiyyə nazirini dəvət edib, işin nə şəkildə olduğunu söylədim. Hərbiyyə naziri mütəhəyyir [heyrətdə] qalaraq, böylə işin olmamağını söylədi. Biz teleqrafən general Makayevi çağırdıq. Biz Makayevi təyin etdiyimizin səbəbi məlum olsun gərək. Bu zat [şəxs] Axıska qəhrəmanıdır. Bu zat bir para Bakı başçıları kimi erməni hissələrini qoyub qaçan deyildir. (Ümumi alqış.) Bu general öz vəzifəsini axıradək ifa edənlərdəndir. Bunu Axıska sabiq Bələdiyyə rəisi Zoryan təsdiq edə bilər. Bu zat milli qırğın əleyhinə olduğu üçün müsəlmanlar miyanında [arasında] hüsni-rəğbət qazanmışdır.

*(mabə'di var)*

### QƏZETƏLƏRDƏN

**Bavariya Hərbiyyə vəzirinin müraciətnaməsi**

Bavariya Hərbiyyə vəziri əhaliyə xitabən bir müraciətnamə nəşr etmişdir. Müraciətnamədə deyilir ki:

Hal-hazıra qədər bizim müttəfiqimiz Avstriyaya təqdim edilən mütarikə şəraiti [atəşkəs şərtləri] düşmənə bizim sərhədimizi cənub və şərq tərəfdən təhdid etmək imkanını verir. Bu müharibə müddətində mərdanəlik və fədakarlıq göstərən Bavariya camaatı öz qüvvəsinə etimadla bu mümkünatı [ehtimalı] asudə bir surətdə qarşılaya bilər. Narahat olmaq üçün heç bir əsas yoxdur. Vətənin təhlükədən təmin edilməsi üçün lazımi tədbirlər görülərək feilən [əməli surətdə] icraya qoyulmaqdadır. Əhali inanmalıdır ki, vətənimiz gözlənilməyən bir həlakətlə [məhv olmaq təhlükəsi ilə] təhdid edildiyi zaman dərhal xəbərdar ediləcəkdir.

**Almaniyada əsgərlərin azadı**

Alman vəzirinin [nazirinin] binagü-zarlığı [sərəncamı] ilə 1870-1871-ci illərin müharibəyə iştirak etməyən saldatları bilatəxir [təxirə salınmadan] vətənlərinə göndərilməlidirlər.

**Almanların dinc əhali ilə rəftarı**

Belçika qəzetələrində dərc edilən "Şimali bank" elanında deyilir ki, alman məmurlarının səy və fəaliyyəti sayəsində bankın pulları və hamı sənədləri salamat qalmışlardır. Lill şəhəri təxliyə edildiyi zaman alman komanda heyətinin əmrinə görə, bankın hər bir işləri siyahı üzərinə xüsusi qutulara doldurulub, xüsusi zabit mühafizəsi altında Brüksel şəhərinə gətirilmişdir. Alman məmurları burada xüsusi mənzil tutub, bankı orada yerləşdirdikdən sonra əməliyyata başlamışlardır.

**Bolşeviklər Avropada**

Danimarka qəzetələri xəbər verirlər ki, Rusiya bolşevikləri Avropanın bir para hissələrində, o cümlədən Danimarkada da ciddi təşviqata başlayıb, Kopenhaqda çıxış yapmışlardır. Rusiya bolşevikləri Avropada sülh əqd edilməsi [bağlanması] ilə özlərinin Rusiyadakı mövcudiyyətlərinin təhdid altına düşməsini anlayıb, bütün cahan inqilab atəşini tezliklə yandırmağa çalışırlar. Rusiya bolşeviklərinin böyük sərmayəyə malik olduqları müşahidə edilir. Bunlar Avropada ancaq sindikalistlərə istinad etməkdədirlər. Bolşeviklərin Stokholmda dəxi çıxış yapmaları qeyd edilməkdədir.

**Vilsonun notası**

Müttəfiq dövlətlər Amerika ilə Almaniya arasında olan müxabirata [danışıqlara] lazımınca bələd olmuşlardır. Onlar yanvarın 8-ində Vilsonun Konqreyə etdiyi müraciətnaməsindəki və həmçinin başqa müraciətnamələrində göstərilən şərait [şərtlər] üzərinə Almaniya ilə sülh əqd edilməsinə [bağlanmasına] razı olduqlarını izhar etməkdədir [bildirməkdədir]. Lakin onlar hər halda göstərməlidirlər ki, dənizlərin azad buraxılmasına aid 2-nci maddə cürbəcür təbir və təfsiratı mövcib olduğundan [müxtəlif yozumlara və şərhlərə ehtiyacı olduğundan], Müttəfiq dövlətlərdən bir paraları qəbul edə biləcəklərdir. Onlar Sülh Konfransına gələnə qədər bu məsələlərin sərbəst təfsiri [şərh edilməsi] hüququnu saxlamalıdırlar. Vilson tərəfindən Konqreyə verilən müraciətnamədə zəbt edilən yerlərin təcdid [bərpa] və təxliyə edilməsi və təmizlənməsi lüzumu qeyd olunur. Müttəfiq dövlətlərin zənnincə, bu məsələdə heç bir şübhə ola bilməz. Onlar bu məsələyə öylə məna verirlər ki, Almaniya Hökuməti Müttəfiqlərin dinc əhalisinə quruda, suda və havada vurulan zərər və ziyanı təmin etməlidir. Notanın axırında deyilir ki, Vilson bu təbirata [yozuma] razı olub, marşal Foş isə Almaniya Hökumət vəkillərini mütarikə şəraitini [atəşkəs şərtlərini] xəbər verməkdən ötrü qəbul etmək icazəsinə malik olmuşdur.

**Kuban və Ufa Hökuməti**

Təşrini-əvvəlin [oktyabrın] 24-ündən Yekaterinodardan Ukrayna Teleqraf Acentəliyinə xəbər verirlər:

Ufada təşkil edilmiş Hökumətə əlaqə [bağlılıq] məsələsində nahiyə hökuməti qət etmişdir ki, Kuban Ufa Hökumətindən ayrı olduğu üçün əlaqə məsələsi əməli əhəmiyyətini qeyb edir. Nahiyə hökuməti fəqət [yalnız, sadəcə] Kuban əhalisi iştirak edə biləcəkləri bir hökuməti təsdiq edə biləcəkdir. Bundan dolayı işbu məsələ növbətdən götürülmüşdür. Nahiyə hökumətinin əqidəsində cənub-qərbi hökumətlərin başlıca məsələləri bolşeviklərlə mübarizə olmalıdır. Buna görə bolşeviklər əleyhinə Kuban, Don, Ukrayna, Terek, Gürcüstan, Ermənistan, Azərbaycan hökumətləri qüvvələrindən mürəkkəb bir cənub-qərb cəbhəsi təşkil etməlidir. Cəbhə təşkili və layihəni qövldən feilə gətirmək üçün bir konqre dəvəti qət edilmişdir.

### MAARİF NAZİRİ HƏZRƏTLƏRİ İLƏ MÜSAHİBƏ

Srağagün dövlətli Maarif naziri həzrətlərinin hüzuruna qəbul olaraq Maarif Nəzarətinin təsəvvüratı [düşüncələri, planları] haqqında bir qədər müsahibədə bulunduq.

Milli maarif xüsusunda nazir həzrətləri bizi maraqlandıran bir çox suallara kafi və şafi [qənaətbəxş] cavablar verərək, məmləkətimizin istiqbalına [gələcəyinə] olan ümidimizi bir qat daha təqviyə buyurdular [artırdılar]. İbtida [əvvəla] burasından başlanır ki, məktəblər tamamilə milliləşir. Böylə ki, ibtidai məktəblərdə çocuqlar öz ana dillərində oxuyacaqlar (türklər türk, ruslar rus, ermənilər erməni dilində və ilaxir). Rüşdiyyə və edadi məktəblərə gəlincə, bunları birdən-birə milliləşdirmək on minlərcə uşağı elm məbədindən qovmaq kimi olduğundan, böylə məktəblərin yuxarı siniflərində dərslər hələlik sabiqki qayda ilə getməlidir və ancaq aşağı siniflər milliləşərək rüşdiyyələrin birinci və ikinci sinifləri, edadilərin isə iki ehtiyat [hazırlıq] və birinci, mümkün olsa ikinci sinifləri milliləşərək dərslər türk dilində gedir. Fəqət, həman bu siniflərdə dəxi uşaqlar türkcəni bilmirlər. Türklərin bir qismi və ümumiyyətlə qeyri-türklər, müvəqqət olaraq bunlar üçün dəxi ayrıca siniflər açılır.

Mövcud məktəblər haqqında böylə tədbirlər görməklə bərabər, Azərbaycanda ümumiyyətlə maarifin zəif bir dərəcədə olduğunu dərklə, bir çox yerlərdə yeni məktəblər açılmışdır, bir çoxları da açılacaqdır.

Şübhəsiz ki, Azərbaycanda məktəb şəbəkəsi açmaq üçün yalnız Maarif Nəzarətinin arzusu və pul buraxılması kifayət etməz. Müəllimlər lazımdır. Müəllimimiz isə azdır. Bunu Maarif naziri həzrətləri bilirlər. Binaileyh [ona görə], əvvəlcə müəllimlər hazırlanmasına çox diqqət verilmişdir. Müəllimlərimiz az, həm də əksəri türk dilini yaxşı bilmədiyindən, şimdiki şərait altında müəllimliyə yaramaz idilər. Bunları türk məktəbi müəllimliyinə hazırlamaq üçün qabaqcadan Gəncə, Şəki və sairlərində müəllimlər kursları açmışdır. Burada 200-dən ziyadə müəllim hazırlanmışdır. Eyni zamanda müəllimlərin miqdarını artırmaq qəsdilə darülmüəllimin [seminariya; pedaqoji məktəb] məsələsinə artıq dərəcə diqqət verilərək, ibtida [əvvəla] Qori darülmüəllimini Qazax şəhərinə köçürülmüş və islah edilmişdir [təkmilləşdirilmişdir]. Gəncə darülmüəllimini milliləşdirilmişdir, Bakı darülmüəllimatı [qızlar seminariyası] dəxi darülmüəlliminə [oğlanlar seminariyasına] mübəddəl edilərək [çevrilərək] milliləşdirilir. Bunlardan maəda [başqa] Zaqatalada və Ağdamda birər darülmüəllimin açılmasl layihəsi verilmişdir.

Yeni darülmüəlliminlərdən birisinin nə üçün Şuşada deyil, Ağdamda açılmaq istənildiyinin səbəblərini sordum. Nazir həzrətləri kəndi mülahizələrini izah buyurdular. Mən də dəxi zənni-acizanəmi ərzlə [acizanə fikrimi ərz edərək], darülmüəlliminin Şuşada olmasının Ağdamda açılmaqdan daha övla [vacib] olduğu haqqında mülahizələrimi söylədim. Nazir həzrətləri darülmüəlliminin Şuşada açılmasına hüsni-təvəccöh ibraz etdilər [rəğbət göstərdilər].

(Bu xüsusda mülahizələrimə qarşı hüsni-təvəccöhündən naşi [rəğbət göstərdiyi üçün], nazir cənablarına təşəkkürümü ərz etməyi kəndimə vicdani vəzifə sanıram.)

Nəhayət, tələbələrin məktəbi-hərbiyyəyə [hərbi məktəbə] alınmaları haqqındakı sualıma cavabən nazir həzrətləri tələbələrin məmləkət üçün mədəni bir qüvvə təşkil etdiklərini və ümummədəni işlərdə çalışmalarının daha nafe [faydalı] olduğunu qeydlə bəyan etdilər ki, bainhəmə [bununla belə] hal-hazırda bu cəhətdən tələbələrin xidmətinə daha çox ehtiyacımız var. Bilxassə [xüsusən] ki, burada tələbələr mövcudiyyətimizi müdafiə edəcək qüvvənin başında durmaqla bir tərəfdən tarixi bir zamanda yeni əmələ gəlmiş dövlətimizə, vətənimizə artıq dərəcə kömək etmiş olarlar; eyni zamanda xalqın avam sinfindən təşəkkül edən əsgərlər üçün bir mədəni rəhbərimiz olarlar. Bu mülahizə ilədir ki, bu vaxtadək darülfünuna [universitetə] getməyib Azərbaycan daxilində qalmış və məmaliki-əcnəbiyyəyə [xarici ölkələrə] gedib də darülfünuna girmiş olan tələbələrin həpsi məktəbihərbiyyəyə alınacaqdırlar.

*Xəlil*

### NURİ PAŞA HƏZRƏTLƏRİ ŞƏRƏFİNƏ BÖYÜK BİR ZİYAFƏT

10 təşrini-sani [noyabr] yekşənbə [bazar] gününün axşamı Bakı şəhər əhalisi tərəfindən qəhrəman Ordumuzun şanlı komandanı Nuri paşa həzrətləri şərəfinə Yay klubunun zalında böyük və mütəntən [təntənəli] bir ziyafət verildi.

Klubun içi və dəhlizləri gözəl və pürqiymət [bahalı] xalılarla döşənmiş, divarları dəxi alqırmızı bayraqlarla bəzənmişdi. Yuxarıda böyük musiqi orkestri, aşağıda da həm Osmanlı və həm Azərbaycan türklərinə məxsus milli sazəndə və xanəndələr tərənnümsaz olmaqda idilər.

Hökumət əhlindən ümum nazirlərimiz Baş Nazirlə bərabər, şəhərimizin bütün böyük məmurları, ümum zabitan əfəndilər, İran konsulu cənabları, ziyalılarımız, böyük tacirlərimiz və sair əyan və əşraf ziyafətdə hazır idilər.

Nuri paşa həzrətlərinin salona vürudu [gəlişi] əsnasında musiqi orkestri tərənnümsaz olub, məclis əhli səfbəsteyi-ehtiram durub [ehtiramla səf tutub dayanıb], paşa həzrətlərini səmimiyyətlə salamladılar. Bə'dəhu [ondan sonra] hər kəs miz başında özünə məxsus olan yerini tutub ziyafət başlandı.

Yemək əsnasında Baş nazirimiz Fətəli xan Xoyski həzrətləri birinci olaraq bəliğ bir nitq söyləyib, Azərbaycan türklərini bəndi-əsarətdən [əsarət zəncirindən] xilas ilə naili-səadət olması yolunda tökülən Osmanlı-türk qanına işarə ilə: "Bu qan və bu qan tökülən mübarək yerlər heç bir vaxt unudulmaz və xatirdən çıxmaz" buyurdular. Bə'dəhu [ondan sonra] Nuri paşa həzrətlərinə müraciətən idareyi-kəlam edərək [sözünə davam edərək], Azərbaycan türklərinin təşəkkürati-əmiqanələrini [dərin təşəkkürlərini] paşa həzrətlərinə bildirib, qədəh qalxızdı. O halda bütün hüzzar [orada olanlar, iştirak edənlər] ayağa duraraq müzəffər və şanlı komandanımız paşa həzrətlərinin şərəfinə şərbət-nuş olub [içkilərini içərək], sürəkli alqışlarla izhari-məsərrət və şadmani etdilər [sevinc və şadlıqlarını nümayiş etdirdilər].

Həqiqət, bu böyük məclisdə hamının, baxüsus [xüsusilə] Bakı əhlinin olmazın dərd, möhnət, bəla və zillət çəkdikləri və olmazın həqarətlərə düçar olduqları, ağarmış saç-saqqallarından, solğun çöhrələrindən, məhzun gözlərindən bəlli olan üzlərində bu axşam o qədər bəxtiyarlıq və bundan dolayı o dərəcə şükrüsəna əlaimi [minnətdarlıq və təşəkkür əlamətləri] peyda və hüveyda [aşkar] idi ki, keçmiş qara günlərin fəna təsirləri bu gün nail olduğumuz ağ günlərin sürurbəxş əsərləri [sevinc bəxş edən təsirləri] müqabilində unudulmaq üzrə olduğu aydın və aşkar idi.

Əvət! Fəna təsirlər unudular, fəqət o təsirləri buraxan qara günlər unudulmaz. Onları unutmaq üçün ya filosof olmalıdır, ya laübali [hissiz, duyğusuz; laqeyd].

Nə qərib təsadüf:

Təqribən bir il bundan əqdəm [əvvəl] bu gün ayulduzlu türk bayrağı ilə donadılmış [bəzənmiş] olan bu salonda bolşevik Suxartsev, Nikolay zamanına məxsus bir hakimi-müstəbid vəziyyətini alaraq hüquqi-siyasiyyə və insaniyyələri xüsusunda ağız açmağa cürət edən Bakı müsəlmanlarını təhdid yolu ilə "Bakıda daşı daş üstündə qoymaram" deyə meydan oxuyurdu. Buna qarşı olaraq Şurayi-Milli rəisi Rəsulzadə Məhəmməd Əmin yoldaşımız: "Əvət, biz istirdadi-hüquq [hüququmuzu geri almaq] yolunda mübarizə edəriz. Nəticədə bizə ya istiqlaliyyətimiz qalar, ya uçurulmuş daşlar. Fəqət, əmin olunuz, müvəqqəti müzəffəriyyət sizin üzərinizdə olsa da, daimi zəfər bizimdir" deyə gələcəkdən xəbər vermişdi.

Bu axşam, Rəsulzadə cənabları öz səlis nitqində bu fəqərəni [hadisəni; hekayəni] yada salıb, qanlı və haqşikən [haqqı tapdalayan] Suxartsevlərin rəcəz oxuduğu bu meydanda bu gün daimi və əzim bir türk zəfərinin bayram edilməsinə işarə ilə haqq sözün haqq yerinə düşməyindən dolayı izhari-məsərrət və məmnuniyyət eylədi [sevincini və məmnuniyyətini nümayiş etdirdi].

Əvət; əgər Suxartsev bu axşam klub salonuna bir nəzər yetirib də, bu al bayraqları, bu şanlı komandanları, bu qəhrəman zabitləri, bu cəsur əsgərləri, bu bəşşaş [şad] və bəxtiyar çöhrələri görsəydi, hədəsinin nə qədər gülünc və bica [puç] olduğunu özü də etirafa məcbur olardı.

Rəsulzadə nitqinə davam edərək: "Siyasi üfüqdə qara buludlar görünən kimidir, lakin bu qara buludlara qarşı Nurilərimizin zülmətşikən [zülməti parçalayan] nuru var" dedikdə, bütün əhli-məclis ayağa qalxıb paşa həzrətlərini xüsusi bir təzim və təbcil [tərif] ilə alqışlamağa başladılar.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 12 noyabr (Çərşənbə axşamı günü) tarixli XXXVII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Bir ildən bəri əziz müsafirimiz və keçirdiyimiz qara günlərə bizimlə bərabər şərik olan Ruşəni bəy həzrətlərinin bəliğ [bəlağətli] nitqi o qədər yanıqlı və o qədər atəşin idi ki, hazirun üzərində böyük bir təsir buraxdı. Qayeyi-amalımıza yetmək, istirdad edilmiş [geri alınmış] hüququmuzu son qüvvəmizlə saxlamaq və bu yolda hər bir fədakarlığa hazır olmaq üçün bu gecənin şərəfinə yəmin [and içmək] lüzumundan bəhslə əhliməclisin ruhunu yüksəldirdi.

Hazirun aramızda oturan bir zatın [şəxsin] nitqinə müntəzir görünürdü [nitqini intizarla gözləyirdi]. Bu zatın illərdən bəri eşitmədiyi səsini eşitmək, fikrini bilmək, nəzəriyyatından xəbərdar olmaq istəyirdi. O möhtərəm zat, sevgili üstadımız Əhməd bəy Ağayev idi ki, nitq söyləmək üçün yerindən qalxarkən salonda dərin bir sükunət əmələ gəlib, hər kəs bütün diqqətini ona tərəf ətf etdi [yönəltdi].

Əhməd bəyin nitqində bəzilərinin gözlədiyi atəş yox idi, amma həqiqi bir səmimiyyət var idi: "Mən Bakını İstanbulda və İstanbulu Bakıda görüb də özümü o qədər bəxtiyar görürəm ki, daha ölsəm də qəmim yoxdur, dünyadan kam almış gedərəm" kimi sözləri o qədər səmimi bir lisan [dil] və lisani-hal ilə [hal dili ilə; ümumi görünüşü, jestləri, mimikası və s. ilə] söyləyirdi ki, eşidənlər dəxi özünü Əhməd bəy kimi bəxtəvər və bəxtiyar hiss edirdilər. Biz Əhməd bəyin nitqini icmala cəsarət etməyib, tamamilə qəzetəmizdə dərc üçün lütfən bizə göndərmək ümid və istidası [xahişi] ilə oxuyucularımızı səbrə dəvət edirik.

Bu qədər nitq və alqışlara cavab olaraq Nuri Paşa həzrətləri gözəl İstanbul şivəsi ilə ruhumuza ləzzət verən və məzmunca qəlbimizi bir taqım əndişələrdən təmiz qılmaqla sürurü-şadmaniyi-binəhayətimizi mövcib olan [sonsuz sevinc və şadlığımıza səbəb olan] qayət bəliğ və səlis bir nitq iradı ilə [nitq söyləməklə] məclis əhlini şərəfyab [şərəflənmiş] və minnətdar buyurdular.

Bu nitqin təsiri ilə idi ki, hər kəsdə gələcəyə artıq əndişəsiz bir nəzər əmələ gəlib, kəndində böyük bir ümid, yüksək bir ruh hiss edərək xoşbəxt və xoşvaxt bir hal ilə bir-birini təbrik edib, məclisə xitam verdilər.

*Ayn.*

## İQTİSADİYYAT

### III
### Həyati-iqtisadiyyəmizdə qadınlarımızın vəzifəsi

Həyat bizdən ötrü ağır günlər hazırlamış imiş. Hürriyyətimizi, tarixi hüququmuzu yenidən ələ gətirmək üçün bir çox əza və əziyyətlər görməli, bir çox qurbanlar verməli imişik. Azadə həyatımız top gumburtuları, tüfəng şaqqırtıları altında nəşvünəma tapmalı [inkişaf etməli] imiş.

Nə isə, üzərimizə düşəcək ağırlıqları qəbul etməli, heç olmazsa gələcək vətənimiz yavrularını təmin etməliyiz. Zənciri-əsarət altında zəif düşmüş vətənimizin xarabazar deyil, millət bağı olmağına çalışmalıyız. Bütün əskini [köhnəni] yaddan çıxarıb, fəqət [yalnız] yeni həyat üçün mübarizədə bulunmalıyız.

Qadınlıq yardımı təcrübəsizliyimizi azaldacaq, bizi mübarizeyi-həyatiyyəyə [həyat mübarizəsinə, ölümqalım mübarizəsinə] silahlandıracaqdır.

Qadınlıq zor bir qüvvədir. Qadınlıq həyat məcrasını ən az zamanda bütünlüklə dəyişmək qüvvəsinə malikdir. Fəqət bizim işbu zor qüvvəmiz yatmış. Biz işbu dövlətdən mədəniyyatımız [mədənlərimiz], ölkə sərvətimizdən istifadə etmədiyimiz kimi istifadə edəmmirik.

Halbuki xüsusi bir hərəkət, haydi qadınlıq oyandı, şimşək itiliyi, qılınc kəskinliyi kimi, mütəşəkkil olaraq mübarizeyi-həyatiyyə üzərinə yürüyəcəkdir.

Bu kütlə, işçilərdə işə həvəs, həyata məhəbbət artıracaqdır.

Zamani-maziyə [keçmiş zamana] bir nəzər salalım. Qadınlıq oynamış rolları təsəvvür edəlim. Təbakərallah [Allahın bərəkətindən], qadınlıq nə yapma mış, hangi bir xarabazarı gülüstan, hangi gülüstanı xarabazar etməmişdir?

Roma filosoflarını əqlisəlim [sağlam məntiq], kamali-müstəqim [doğru kamal] sahibi fəqət qadınlıq etmişdir. Dini-islamın təbliğ və intişarında [yayılmasında] qadınlıq xüsusi bir yer tutmuşdur. Qadınlığın zərif əllərini bütün islam intişarı siyasətində görmək mümkündür.

İşbu qiymətdar qüvvədən şimdi biz də istifadə etməliyiz. İşbu xariqüladə qüvvəni həyati-iqtisadiyyəyə [iqtisadi həyata] tətbiq etməliyiz.

Qadınlıq özü-özlüyündə bu vəzifənin hüsn [gözəllik], zərafət və lüzumunu anlayacaq, bu cəhəti də yavrusu kimi zərif dillər, gözəl mahnılarla bəsləməyə çalışacaqdır.

Qadınlığı da iqtisad bayrağı altına çağırmalıdır.

Əski həyatımızda qadınlıq böyük rollar oynamış. Vaxtilə nənələrimiz babalarımızla bərabər yaşayıb, azadə quşlar kimi bir əmək əmmişlər [birgə işləmişlər; birgə zəhmət çəkmişlər]. Türk milləti qocaman Qafqaziyanın asumana doğru yüksələn sıldırım qayalarının behiştmənzər [cənnət mənzərəli] yamaclarında, gen Anadolunun zümrüd bağlarında, ixtiyar Kiçik Asiyanın qarlı səhralarında, şad Azərbaycanın yüksək sinəsində bir həyat sürmüşlər. Fəqət, zərafət [və] lətafətlə biri-birindən ayrılan işbu iki [nəfər] bir tarlada çalışıb, bir bucaqda məsləhətlər etmişlər. Qadında erkəyə şəfqət, erkəkdə qadına məhəbbət olmuşdur.

Bunu yenidən təcdid [bərpa] etməlidir. Qadını yeni tarlaya, yeni bucağa, iqtisad tarlası, iqtisad bucağına sövq etməlidir.

İqtisad – həyatın mahnısı, hüsnizərafətidir. İqtisad olduğu yerdə xəndə [gülüş] çox, göz yaşı, qəm az olacaqdır. İşbu xəndəni, qəm azlığını qadından başqası yaradacaqmı?

Qadınlıq daima vətənin qüsuratını [qüsurlarını] erkəkdən tez anlamış. Osmanlı qadınlığını nəzərə alalım. Donanma inşası üçün Müdafieyi-Milliyyədə qadınlıq çox çalışmışdır. Halhazırı demirəm.

Biz etiraf etməliyiz ki, iqtisadi ruhsuz, biz yeni qüvvələr hazırlamaqdan məhrumuq. Halbuki millətə vətən yaratmaq, milləti yeni həyatı qəbul edər hala gətirməkdən ötrü yeni qüvvə lazımdır.

Yeni qüvvə cavanlarımızdan ibarət olacağı təbiidir. Cavanlarımız işbu qüvvə sırasına daxil ola bilərlərmi? Əlbəttə xeyr!

Cavanlarımız şəbabətlərində [gəncliklərində] yorulmuşlar, xəstə düşmüşlər. Xüsusi bir işdən naşi [ötrü] həyatdan bilmərrə [tamamilə; bütünlüklə] usanırlar. Öylə zənn edilməsin ki, həqiqətən bizdə istedad yox, çalışqanlığa həvəs yoxdur. Burası böyük xəta, böyük səhvdir. Biz çalışmadıq, çalışqanlıq qüvvəmiz (кинетическая энергия) feilə tətbiq edilmədi. Təbiət qanunu mövcibincə [təbii qanuna əsasən] salamat qaldı. Fəqət üzlərini bətalət [süstlük; tənbəllik] tozu örtdü.

Qadınlıq şu tozu təmizləyəcək, şu qüvvəni yay kimi çərtəcək [cücərdəcək]. İştə o vaxt istedadi-milliyəmiz, zənnimizdəki çalışqanlığımız zahir olacaqdır.

Qəvi [güclü] toplar gurultusu altında bizim də fəaliyyət vulkanımız partlasın. Qəvi şrapnel dolusu altında bizim də həyatımız parlasın, məmləkətimiz fəaliyyəti yenilənsin.

Qadınların kağız üzərində mürəkkəblə yazdıqları, mərmər üzərində həkk etdikləri, yürəkləri diktələri əsrlərlə unudulmaz, fəqət yürəkləri ilə yürəklərə yazdıqları dünya yaşadıqca, bəlkə bir az da fəzlə yaşayacaq, təbii almaz kimi şüa buraxacaqdır.

Həyati-hazirəmizdə [indiki həyatımızda] erkəyin qafası quruyur, təbii hərarətini qeyb edir. Qadınlıq işbu qafaya yol bulacaq olarsa yeni hərarət, yeni qüvvə verməyə qadir olacaqdır.

Həyati-milliyyəmizi sevəcək olarsaq, vətən abadlığını diləyəcək olarsaq, mədəniyyət istərsək, qadınlığa qafalarımıza yol verməliyik. Yürəklərimizi qadın qələmi üçün lövh [lövhə] etməliyik.

Hal-hazırda qadınlıq böyük rollar ifa edə bilər. Yenə tarixə baxalım. İslam qadını məqsəd ardınca getmiş, amal mübəlliğəsi [təbliğatçısı], məfkurə müntəşirəsi [ətrafa yayan] olmuşdur. İslam ordusunun qələbəsi qadına mənsubdur. Ərəb qadınları erkəkləri hərbə təşviq edir, yaralılara su daşıyır, ərəb qadını müharibə edirmiş. O vaxt o icab etmiş [lazım gəlmiş], qadınlıq onu yapmış. Hal-hazırda isə başqası icab edir, başqasını yapmalıdır. Böylə olarsa, islam ordusu qələbəsi kimi yeni həyat qələbəsinə də nail olarız zənn edirəm.

Bütün cahana nəzər salalım: insaniyyət kütləsini millət deyil, dinlərdə böləlim. İslam dininə 600 milyona baliğ [çatan] bir hissə düşür. Möhtərəm qarein [oxucular], işbu rəqəmin nisfini [yarısını] pozalım. 300 milyonluq bir qüvvəmiz yoxdur.

Həyat yeyib, içib, yatmaqdan ibarətmi əcəba? Əlbəttə, xeyr. Həyat, fəqət fəaliyyətdir. Bizim islam qadınları isə içib, yeyib, yatır, təbah [puç] olur!

Düşünülürmü? 300 milyonluq bir kütleyi-islam həyati-islamiyyədə iştirak etmir. Əcəba vahiməli röya deyilmi?

Burası kifayət etməyir. Fəzlə olaraq mabəqi [yerdə qalan] 300 milyonda da həyata məhəbbət oyatmayır, bu da təbah olur.

Məcburən tarixə baxmalıyız. İslamın altun dövründən sonrakı səhifələri seyr edəlim. Şüəramızı [şairlərimizi] görəlim. Birində ruh yox! Qəzəlləri şikayət, qitələri qəm mahnısı. Misraları ələm zəngüləsi.

Filosoflarımızı oxuyalım. Yahu, burası başqa bir həngamədir. Həyat sıfır, başqa bir şey yox.

Halbuki biz də başqaları kimi müxtəre [ixtiraçı], mübde [icadçı], dahi olardıq. Bizdə də başqaları kimi təməddün [mədəniyyət], tərəqqi duyğuları oyanardı. Biz insan deyilmiyiz əcəba?

Cəhalətimizin səbəbini tinət [xasiyyət; xarakter], istedadımızda arayan filosoflarımız (?!) gözlərini silib yanlarındakı çadrapuş [çadra örtmüş] Misir mumyası mühərrik məhbəsə [ayaqlı həbsxanaya] baxsınlar. Baxsınlar da, ümdə səbəbi düşünsünlər!

Biz bu vaxtadək kişilərdən məsələni düşünmək diləyirdik. Qadınlıq qüvvəsinin feilə tətbiq edilməsini rica edirdik. Əfsus ki, nəticə vermədi.

Osmanlı qadınlığı özü-özlüyündə məsələnin mühüm olduğunu anladığından naşi [anladığı üçün], zor bir qədəm atmışdır. Yumruğunu düyümləyərək "Haydi, yol ver, yürüyəcəyəm" deyə həyata qədəm basdı. İstanbul qadınlığı inqilabı – millət inqilabıdır. Millət, məmatdan [ölümdən] həyata üz döndərmək istəyir.

Bizim Azərbaycan qadınları böylə yapmaqdan müvəqqəti olaraq məhrumdurlar. Binaileyh [ona görə], üzümü Osmanlı qadınlığına tutub, işbu mumyanı da yaddan çıxartma[ma]ğı təklif edirəm. Mən yalvarammaram, göz yaşı töküb iltica edəmmərəm [yalvar-yaxar ola bilmərəm]. Fəqət bildiyim, oxuduğum, eşitdiyim həqiqəti göstərəcəyəm. "Qadınlıq, millətin böylə, həyatın şöylə!" deyəcəyəm. Biz yatdığımız zaman, nargilə içdiyimiz zaman, təsəttür oyunu oynadığımız zaman, bağırdığımız, çağırdığımız, öldüyümüz zaman, Avropa oyaq idi.

Bütün iqtisadi həyatımızı ələ alıb, dallarımız üzərinə minib, istədiyi yerə sürər, sevdiyi məhəldə [yerdə] saxlardı. Cümlənizə məlumdur. Ölkəmiz, ölkəniz, ölkələri quru namdan ibarət ola durmağa məhkum idi. Barmaq qədər bir dəmiryolu çəkmək lüzumu görülərsə, "Ağa avropalı, çevir" deyə vətənimiz ovalarını göstərirdik. "Ağa Avropa" da istifadə etmiş, qazanmış. Avropada şadlıq olduğu zaman biz ağlayırdıq. Avropa böyüdüyü zaman, biz kiçilirdik. Şimdi də bir o qədər!

Çizmələrimizi belə Avropadan almağa məcburuz. Sərvəti-milliyəmiz dağlar aşaraq, dəryalar üzərək, havalardan süzüb avropalılar cibişdanlarına girir. Öz ciblərimiz isə boş.

Həyati-iqtisadiyyəmiz düşkün. Əvvəla iştə bu cəhəti düzəltməkdən ötrü qadınlıq çalışmalıdır.

Baxınız, qadınlıq Avropada nə yapırsa, siz də yapınız. İngiltərədəki müstəhlikin [istehlakçılar] (kooperativ) hərəkətində qadınlar böyük rollar oynadılar. Qadınlar orada istehlak təbliğatı aparır, konfranslar verirlər. Xalqı təbliğ və təşviq edirlər.

Yaxud Cəmahiri-Müttəhidədəki [Birləşmiş Ştatlardakı] "Liqa Potrebiteley"də qadınlar fəaliyyəti, yaxud yenə oradakı müskirat [içki] əleyhinə yapılan qadınlıq mübarizəsi və qeyridə qadınlıq daima qalib olmuşdur.

İştə türk qadını nə kimi təşəbbüsata düşəcək olarsa, qalib gələcəyinə əminəm. Millətimiz yorulmuş, əzilmiş, vətənimiz xaraba qalmış, abadlığımız bayqular yuvası olmuş.

İştə türk qadını! Millətimiz istirahəti, vətənimiz təravəti, abadlığımız bəzəyi sənsən! Sənin mahi-növün [yeni doğan ay kimi olan siman] yorulmuşlara qüvvət, əzilmişlərə rahat verəcəkdir.

Haydi, bismillah!..

*Tələbə Ayn. Əbdül.*

## BAKI XƏBƏRLƏRİ

**Ərzaq şöbəsində**

- Bələdiyyə İdarəsinin Ərzaq şöbəsi Skobelev qardaşlarının dəyirmanına müraciətlə, şöbəyə məxsus bir vaqon buğdanın üyüdülməsini rica etmişdir. Buğdanı 75 faizlə üyüdərək, xəstələrdən ötrü "mannaya krupa" çıxarılmalıdır.

- Əhali arasında çay təqsimindən dolayı bir çox əsassız şayiat [şayiələr] dəvəran etməkdədir [gəzməkdədir]. Mərkəzi Ev Komitəsi tərəfindən verilən çayın əksəriyyən brusinka olduğunu söyləyirlər. İşbu şayiat möhtəkirlər tərəfindən öz mallarını işə vermək qəsdi ilə buraxılmışdır. Ərzaq şöbəsi tərəfindən Mərkəzi Ev Komitəsi vasitəsilə əhaliyə buraxılan çay ən eyi çaydır. Ərzaq şöbəsinin bu vaxtadək pis çayı olmamışdır. Əhali möhtəkirlərin buraxdıqları şayiata əhəmiyyət verməməlidirlər.

**Sahibsiz qalmış dükan və anbarlar haqqında**

- Bakı istila edildikdən sonra qaçmış sahibləri tərəfindən buraxılmış dükan, anbar və bir çox bağlı mağazalar xüsusunda Bakı Valiliyi Daxiliyyə Nəzarətindən isticvab [cavab] istəmişdir ki, bunlar açılıb icarəyə verilə bilərmi, ya yox?

- Daxiliyyə Nəzarəti [Daxili İşlər Nazirliyi] tərəfindən Bakı Valiliyi üçün məxaricdən ötrü 50 min rublə istiqraz açılmışdır.

- Bakı Valiliyi idarəsi əski mənzilindən Ağa Yusif Dadaşovun dərya kənarındakı evinə köçmüşdür.

**Şübhəli əşxasın tövqifi**

- 8 təşrini-sanidə [noyabrda] Rəhmani köyündə yaşayan Leonti Axunov 2-nci polis məntəqəsi müfəttişinə məlum etmişdir ki, o, evdə olmadığı halda naməlum bədəfkarlar [bədniyyətlər] tərəfindən qapı qıfılı sındırılmış və mənzilindən 2640 rublə dəyərli ənva' [müxtəlif] əqsami-əşya [şeylər, ev əşyaları] oğurlanmışdır. Bu xırsızlıqda şübhələn[il]miş Silvestrov Vasili tövqif [həbs] edilibdir.

- Cümə axşamı 7 təşrini-sanidə [noyabrda] Balaxanıda yaşayan, Tambov vilayəti əhalisindən Foti Kuznetsovun özü evdə olmadığı zaman naməlum bədəfkarlar tərəfindən qapısının qıfılı sındırılaraq, 1226 rublə fiyatlı un evdən aparılmışdır. Bu xüsusda mal sahibi 4-üncü polis məntəqəsinə məlum etmişdir. Şübhə üzündən İran təbəəsi Fətullah oğlu Paşa tövqif [həbs] edilmişdir.

**Bomba partlayışı**

6 noyabrda öylədən [günortadan] sonra Sabunçuda yaşayan Mixail Sıçevun dəhlizində ehtiyatsız davranıldığından dolayı bomba partlayışı vaqe olur. Bu partlayışdan məzkur [adı çəkilən] Mixailin 12 yaşlı İvan adlı bir oğlu ağır, qızı Qalina isə yüngül surətdə yaralanırlar. İvan üç gündən sonra Sovet Syezd xəstəxanasında vəfat edir. Məlum olduğu üzrə bu nagəhani [qəfil] partlayış, atanın evdə olmadığı halda oğlunun çaqı (bıçaq) ilə bu bombanı qurdaladığından nəşət etmişdir [meydana gəlmişdir]. Şu bombanı, Mixail Sıçevin dediyinə görə, Balaxanı şoru (gölü) yanından görüb, evə gətirmişdir.

**Silah tövqifi [götürülməsi]**

Samur nahiyəsində Axtı kəndi sakini Dağıstanlı Əziz oğlu Əbdülxan evində təftiş nəticəsində bir tapança ələ gətirilmişdir.

**Qala köyündə**

Bakı qalabəyisinə 5-inci Suraxanı polis məntəqəsi verdiyi məlumatdan anlaşılmış ki, Gülbala oğlu Hidayətin çobanı Şükür oğlu Əhmədxanı Qala köyündə öldürmüşlər. Qalabəyinin ciddi tədabiri [tədbirləri] nəticəsində çobanın əski ağası Qafar oğlu Əbdüləhəd çodar [malqara alverçisi] tərəfindən qətl edilmiş olduğu anlaşılır. Səbəbi də onun xidmətindən çıxıb, başqasına getdiyidir.

* * *

- Rus Milli Şurasının əzası [üzvləri] Strelkovski, Kotkov, Bartsov Bakıya azim olmuşlar [yola düşmüşlər].

## LƏNKƏRAN NÜMAYƏNDƏLƏRİ DÖVLƏT KONTROLU HÜZURUNDA

Təşrini-saninin [noyabrın] 8-ində Lənkəran heyəti əzasından [üzvlərindən] Teymur bəy Bayraməlibəyov cənabları Dövlət Müfəttişi Əbdüləli bəy Əmircanlı həzrətlərinə təqdim edilmişdir. Nümayəndə Lənkəran və ətrafı müsəlmanlarının Avetisov və İlyaşeviç dəstələrindən gördükləri əza və əziyyəti Müfəttiş həzrətlərinə ərz etmişdir. Bununla bərabər, nümayəndə Lənkərandakı Bakı qaçqınlarının da ağır hallarını təsvir etmişdir. Mərkəzi Kaspi Donanması Bakıya gəlmək üçün vapor verməyərək, bunlar xüsusən müsəlmanları çox incidirlər. Bakıdakı Lənkəran fərarilərinin də əhvalı yoxsulluqdan dolayı fəna bir surət kəsb etmişdir. Müfəttiş həzrətləri demişlər ki, siyasi təriqlə [yolla] Hökumət həmin qəza əhvalını yaxşılaşdırmağa müvəffəq olmuşdur. Ən yaxın zamanda müxabirat [əlaqə; xəbərləşmə] və vapor hərəkatı [gediş-gəlişi] başlanacaqdır.

## DƏRBƏNDDƏN BİZƏ YAZIRLAR

Şəhərdə həyat adi qaydaya düşmüşdür. İxtilaf bərtərəf edilmişdir [aradan qaldırılmışdır]. Dəmiryolu hərəkatı başlanmışdır. Xəzinə müsadirə edilmiş paranı verməyi dəröhdə etmişdir [öhdəsinə götürmüşdür].

Bahalıqla mübarizə başlanmışdır. Ətin girvənkəsi iki rublədən satılır. Bazarda əkmək boldur.

Əfsus ki, bu vaxtadək Bakı ilə posta müxabiratı [poçt əlaqəsi] başlanmamışdır.

Bələdiyyə Rəisi Heydərovun müqəddəratı naməlumdur. İşbu zat [şəxs] işlərindən naşi [ötrü] Petrovska getmişdi. Müxabirat [əlaqə; xəbərləşmə] başlanmamışdır. Qəzetə və posta yoxluğundan şəhərdə min növ şayiat [şayiələr] dəvəran edir [gəzir]. Yollardakı quldurluq və yağma [talan] bərtərəf edilmişdir [aradan qaldırılmışdır].

*Aleksanov*

## GÜRCÜSTANDA

**Axalkalak və Axıska əhalisinə müraciət**

Gürcüstan Hökuməti Axalkalak və Axıska əhalisinə xitabən böylə bir müraciətnamə nəşr etmişdir:

Bir çox səbəblərdən dolayı Gürcüstan Hökuməti bu vaxtadək Axalkalak və Axıska və Axalıq qəzaları əhalisinin həyatını təmin edə bilməmişdir. Xarici qüvvə ilə bir neçə ay Gürcüstandan ayrılmış işbu nahiyə yenidən Gürcüstana mülhəq edilir [birləşdirilir]. Türkiyə Hökuməti Gürcüstana xəbər vermişdir ki, oraları təxliyə edir. Bundan naşi [ötrü] Gürcüstan Hökuməti aylarla yağmaya [talana] məruz qalmış əhalinin həyatını təmin etməyə çalışacaqdır. Gürcüstan Hökuməti buraya sülhmüsalimət [əmin-amanlıq] verməyi öz öhdəsinə götürür.

Bir para qara fikirli əşxas [şəxslər] əhali arasına əsassız şayiələr çıxarırlar. Müsəlman əhalisini Gürcüstan Hökuməti qıracaq deyə böylə-böylə müfət-tinliklərdə bulunurlar [fitnəkarlıq edirlər]. Gürcüstan Hökuməti elam edir [bildirir] ki, bilafərqi-millətüdin [millət və din fərqi olmadan] bütün işbu qəzalar əhalisi bir nəzərdə görülüb, sülh və müsalimətlə yaşamaları üçün tədbirlər ittixaz edilir [tədbirlər görülür]. Gürcüstan Hökuməti Axalkalak və Axıska qəzaları əhalisinin bilafərqi-millətüdin müttəfiq və müttəhidən [birgə] yeni Hökumətə işbu ciddi bir vaxtda müavinətdə [yardımda] bulunacaqlarına qəviyyən [güclü bir şəkildə] etiqad eylər.

* * *

* Təşrini-saninin [noyabrın] 12-sində Tiflisdə bir günlük türk və rus lisanlarında bir qəzetə nəşr ediləcəkdir. İşbu "Qardaş təhəssürü" [kədəri] nam [adlı] qəzetə, Bakı və Şamaxı hadisati-əliməsinə [faciəli hadisəsinə] ithaf edilərək mədaxili bu hadi-satdan [hadisələrdən] zərərdidə olanlar [zərər görənlər] nəfinə [xeyrinə] gedəcəkdir.

* Təşrini-saninin 8-ində xüsusi trenlə Tiflisdən Bakıya Gürcüstan mürəxxəsliyi [nümayəndəliyi] rəvanə olmuşdur [yola düşmüşdür].

* Tiflisdə alınmış xəbərlərə görə, türklər Batumun bir neçə tabyalarını [istehkamlarını] təmizləmişlər. Top və başqa ləvazimat İstanbula göndərilmiş, qoşun da Türkiyəyə getmişdir. Burada nizamdan ötrü bir az qoşun qalmışdır.

* Poti mövqifi [stansiyası] naçalniki təşrini-saninin 5-i saat 10-da bütün mövqif naçalnikləri və alman mürəxxəsliyinə [nümayəndəliyinə] böylə bir teleqram göndərmişdir:

"Almaniya komandasının əmri mövcibincə [əmrinə əsasən] Potiyə əzimət edən [gedən] alman qoşunlarının Tiflisə geri qaytarılmasını rica edirəm."

## ERMƏNİSTANDA YENİ KABİNƏ

Bu günlərdə Ermənistanda yeni kabinə təşkil edilmişdir. Kabinəyə atidə [aşağıda] mündəric [yazılan] əşxas [şəxslər] intixab edilmişdir [seçilmişdir]:

Sədrəzəm [Baş nazir] Kaçaznuni (daşnak), Daxiliyə naziri Aram Manukyan (daşnak), Xariciyyə naziri Tiqranyan (daşnak), Xariciyyə naziri müavini Məlik-Qaragözyan (Erməni Milli firqəsi), Maliyyə naziri Enfiacjan (Erməni Milli Firqəsi), Hərbiyyə naziri general Axverdov (firqə xaricində), Ədliyyə naziri Arutyunov (Erməni Milli Firqəsi), Maarif naziri Atabəyov (firqə xaricində), Nafiə [Sosial Təminat] naziri Karçikyan (daşnak), Dövləti kontrol [Dövlət Müfəttişi] Bərbəryan (Milli Firqə).

## TÜRKCƏ SAVADLI

Təcrübəli bir nəfər şəxs lazımdır ki, Varansovski küçədə nömrə 7, "Professional" yazı kabinəsində yazı işlərinə məşğul olsun.

*257 3-1*

## QƏND VƏ ÇAY

Bakı Şəhər İdarəsinin Ərzaq şöbəsi ümuma elan edir ki, mədənlərdə, yəni Sabunçu, Bülbülə, Balaxanı, Ramanı, Zabrat, Suraxanı, Əmirhacıyan və Binəqədidə (mədənlərdə) təşrini-saninin [noyabrın] 12-sindən etibarən hər nəfərə ¾ girvənkə qənd 3 manatdan və ½ girvənkə çay, girvənkəsi 28 manatdan camaat arasında paylanmağa başlanacaqdır. Çay və qənd təşrini-saninin 13-ündən 20-sinə kimi xüsusi təqsim edici [paylayıcı] bir mərkəzdən buraxılacaqdır. Bu vaxt müddətində camaat bunları almalıdır. Əks surətdə Şəhər İdarəsinin Ərzaq şöbəsi heç bir kəsdən və ev komitəsindən şikayət qəbul etməyib ərzaq buraxmayacaqdır.

Qənd və çay ev komitələrinə məhəlli [yerli] ərzaq acentələri tərəfindən təsdiq olunmuş siyahılar üzrə buraxılacaqdır. Doğru siyahı göstərməyən ev komitələrinə ərzaq buraxılmayıb, rüəsası [idarəçiləri] təhti-məsuliyyətə [məsuliyyət altına] alınacaqdır.

Qənd və çay almaqdan ötrü komitələr aşağıdakı qərar üzrə kəndi məhəllərinə [ərazilərinə] müraciət etməlidirlər:

Sabunçu – Sabiq Ərzaq Komitəsinin skladı [anbarı], Neft Mədənçiləri Şurası Xəstəxanası qarşısında.

Balaxanı – Bakı Neft Şirkəti 8-inci qruppa.

Ramanı – Ramanı şosesində Krasilnikovun mülkü.

Zabrat – Volçkinski küçədə Pitoyev Kompaniyası evi.

Suraxanı – Nobel Qardaşları Şirkəti mülkü.

Binəqədi – Tsentralnı [Mərkəzi] küçədə Orucəli Babayevin mülkü.

Əhaliyə məlum olunur ki, çay bağlı olmayıb açıq təslim ediləcəkdir.

Ərzaq şöbəsi

* * *

Türk Ocağına üzv olmaq istəyənlər hər gün sabah saat 10-dan saat 1-ədək Nikolayevski küçədə Hüseynovun mülkündə sabiq "Raboçi klub" mənzilində Türk Ocağına rücu [müraciət] etməlidir.

247

**Bakı Ovçular Cəmiyyəti İdarəsi**

Bununla, 1 yanvar 1918 tarixindən əqdəm [əvvəl] yazılmış üzvlərə elan edir ki, bu ilin 25 təşrini-saniyə [noyabrına] kimi üzvlük haqlarını iadə, 2 fotoqraf və ovçuluq şəhadətnaməsi almaq üçün beş rublə vermələrini rica edir. Əski vərəqələri təqdim etmək məcburidir.

İdarənin sabiq notarius Tsimmermanın kantorundan köçdüyünə görə, üzvlük haqqı hər gün axşam saat 6-dan sonra 7-inci məhəlli ev komitəsində qəbul olunur. (Telefonnı caddədə, nömrə 10). Telefon nömrə 28-49.

*Sədr: Q. Rayevski*
*Katib: V. Kozis*
*258 1-1*

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün saat 9-1-ədək, saat 4-7-yədək. Telefon 5-30. Adres: Parapet, Kolyubakinski küçədə nömrə 39. "Azərbaycan" qəzetə idarəsinin yanında.

*237*

**Diş təbibəsi Altmanın diş müalicəxanası**

Naxoşları qəbul edir saat 8-dən 1-ə kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

*245*

**O. A. Salmanın**
**Diş kabinəsi və süni diş müalicəxanası**

Dişlərə və ağza müalicə edir, ağrısız çıxarır, doldurur, qızıl və kauçuk üzərində süni dişlər qayırır və qızıldan qapaqlar qayırır. Qəbul edir hər gün saat 9-dan 2-yə kimi, 4-dən 7-yə kimi. Naberejni caddədə Dombrovski pereulokda [döngədə] Mehdiyevin 7 nömrəli evində. Telefon nömrə 30-02.

*253*

**Berlin Darülfünununun həkimi**
**L. Melkumyans**

Əmrazi-tənasüliyyə [cinsi xəstəliklər] və dəri naxoşlarını qəbul edir. Qan damarlarına "606" və "916" dəvalarını istemal [tətbiq] edir. Hər gün saat 2-4-ə kimi.

Ünvan Birjevoy caddədə Malakan bağçası qarşısında həkim Temirxanyanın müalicəxanasında. Telefon nömrələri 29-85 və 32-77.

*255*

**Həkim Arşak Ayrapetoviç Akopyans**

Əsəbi və daxiliyyə naxoşluğuna mübtəla olanları axşam saat 3-dən 6-ya kimi qəbul etməyə başlamışdır.

Ünvan: Balaxanski caddədə nömrə 10, İstanislavski caddənin küncündən 3-üncü ev. Telefon 55-26.

Saat 3-ə kimi 32-77 nömrəli telefon ilə danışmaq mümkündür. (16-ncı xəstəxana).

*256*

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Teleqraf xəbərləri: Şuraların altıncı ictiması***

"...təşrini-saninin 6-sında Sverdlovun sədarəti ilə Ümumrusiya Vəkillər Şurasının 6-cı ictiması vaqe olmuşdur.": Fəhlə, Kəndli, Kazak və Əsgər Deputatlarının Altıncı Ümumrusiya Fövqəladə Qurultayı 6-9 noyabr 1918-ci ildə Moskvada baş tutmuşdur.

***Bolşeviklər Avropada***

"Bunlar Avropada ancaq sindikalistlərə istinad etməkdədirlər.": XIX əsrin sonu – XX əsrin əvvəllərində fəhlə hərəkatında ortaya çıxan sindikalizm cərəyanına görə fəhlələr, sənaye müəssisələri və sahələri konfederasiyalarda, yaxud sindikalarda birləşməli idilər.

***Maarif naziri həzrətləri ilə müsahibə***

"Rüşdiyyə və edadi məktəblərə gəlincə...": Rüşdiyyə – ibtidai siniflərdən sonrakı mərhələ; edadi – isə rüşdiyyədən sonrakı, universitetdən əvvəlki mərhələ (indiki lisey) kimi başa düşülməlidir.

***Nuri paşa həzrətləri şərəfinə böyük bir ziyafət***

"...Suxartsevlərin rəcəz oxuduğu bu meydanda…": "rəcəz oxumaq" döyüş və ya güləşdən əvvəl rəqiblərin qarşılıqlı olaraq bir-birilərinə şeirlə meydan oxuması deməkdir.

***İqtisadiyyat***

"İslam dininə 600 milyona baliğ [çatan] bir hissə düşür.": Qəzetdə "600" yerinə "400" getmişdir.

***Gürcüstanda***

"İşbu «Qardaş təhəssürü» nam qəzetə...": Burada söhbət "Qardaş qayğısı / Братская скорбь" qəzetindən gedir.

***Ermənistanda yeni Kabinə***

"...Xariciyyə naziri müavini Məlik-Qaragözyan...": Qəzetdə "Məlik-Karqanov" kimi getmişdir.

"Erməni Milli firqəsi": Erməni Xalq Partiyası nəzərdə tutulur.

"...Maliyyə naziri Enfiacjan…": Qəzetdə "Efendjanyans" kimi getmişdir.

# Fransada növbəti tətillər başlayır

## Ölkə əhalisi qiymətlərin kəskin bahalaşması səbəbindən bayram süfrəsinə qənaət etmək məcburiyyətindədir

Fransada 23 dekabra planlaşdırılan dəmir yolu reyslərinin üçdəbiri qatar nəzarətçilərinin tətili səbəbindən ləğv edilib.

Yerli medianın xəbərlərinə görə, ölkənin Milli dəmir yolu şirkətinin (SNCF) nəzarətçilərinin tətili xristianların Milad bayramını qeyd etdiyi bu həftəsonu qatarların hərəkətində fasilələrə səbəb olacaq. Həftəsonu gözlənilən 800 000 sərnişindən təxminən 200 000-nin səyahət edə bilməyəcəyi proqnozlaşdırılır.





### Dəmiryolçular maaşlarının artırılmasını tələb edirlər

Dəmiryol dispetçerləri daha yüksək maaş və qatar maşinistlərinə bərabər status tələb edirlər. Məlumatlara əsasən, Fransa dəmiryolçuları Yeni il bayramlarında da tətil edə bilərlər. "Le Parisien" qəzeti xəbər verir ki, həmkarlar ittifaqları danışıqlar zamanı şirkət rəhbərliyinin təklifləri ilə razılaşmayıb və tətil çağırışını qüvvədə saxlayıb. Bildirilir ki, nəzarətçilərə karyera yüksəlişi imkanı yaratmaqla yanaşı, ildə 600 avro müavinət təklif olunub.

Xatırladaq ki, bu ayın əvvəlində keçirilən tətildə 10 minə yaxın fransız dəmiryolçusu iştirak etmişdi. Aksiya nəticəsində qatarların 60 faizi işləməmişdi.

Paris Nəqliyyat Agentliyinin həmkarlar ittifaqları tətil hərəkatını davam etdirməyə və gücləndirməyə çağırıb.

### Yüksək inflyasiya, artan qiymətlər

Əhalinin maddi rifahına mənfi təsir göstərən yüksək inflyasiya fransızları Milad yeməyini azaltmağa məcbur edir.

"France 3" telekanalının xəbərinə görə, Fransada yeni il yarmarkalarında sakinlərin alıcılıq aktivliyində azalma qeydə alınıb. Əhalinin böyük qisminin büdcəsi nəzərəçarpacaq dərəcədə azalıb, buna görə də vətəndaşlar Milad şam yeməyinə xərclərini ixtisar etməyə məcburdurlar. Bunu həm alıcılar, həm də satıcılar təsdiqləyirlər.

Məsələn, satıcıların dediklərinə görə, alıcılar malların qiymətini daha diqqətlə öyrənməyə, az miqdarda ərzaq almağa, habelə endirimli məhsullar seçməyə başlayıblar. İnsanlar hətta bayramlarda belə qənaət etmək üçün ənənəvi fuaqra (qazın, yaxud ördəyin qaraciyərindən hazırlanan paştet) və digər delikateslərdən imtina etməyə hazırdırlar. Müştərilərdən biri deyir ki, insanlar küncə sıxışıblar, hələ 5 il əvvəl masanın üstündə olanları indi almaq çətinləşib.

Satıcılardan biri şikayətlənir ki, xərcləri azaltmaq üçün fransızlar porsiyaları diqqətlə ölçürlər, məsələn, düz 250 qram çəkməyi xahiş edirlər, halbuki əvvəllər buna fikir verən olmurdu...

Fransızlar artıq dekabrın əvvəlindən hətta belə sadə görünən yumurtaların bahalaşmasından narazılıq edirlər. Onların qiyməti 2 avrodan 5 avroya qalxıb. Çörək, zeytun yağı, şirələr, balıq, uşaq yeməkləri, delikateslər, praktiki olaraq, hər şey bahalaşıb.

Xatırladaq ki, fransız analitikləri ötən ayın sonunda Fransada inflyasiyanın 12 faiz olduğunu bildirmişdilər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***




# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# Devalvasiya Ermənistanın çöküşünü sürətləndirir

## Əhalinin 90 faizi qaz və elektrik enerjisinin dəyərini ödəyə bilmir, yığılıb qalan borc milyon dollarla ölçülür

Hazırda məğlub İrəvan böyük iqtisadi problemlərlə üzləşməkdədir. Bunun bir səbəbi də son dövrlərdə dünya iqtisadiyyatında yaranan qeyri-müəyyənlik və qlobal böhranın digər ölkələrlə müqayisədə Ermənistana daha çox dağıdıcı təsir göstərməsidir.

Xüsusən də Rusiyada rublun kursunun aşağı düşməsi Ermənistan iqtisadiyyatı üçün böyük fəlakət sayılır. Rusiyaya qarşı sanksiyalara görə nüfuzlu "Fitch Rating" Agentliyi Ermənistanın ÜDM-in artımı ilə bağlı proqnozunu 5,3 faizdən 1,3-ə endirmişdi.

Qeyd olunur ki, cari ildə Ermənistanda inflyasiya 9,9 faiz qeydə alınıb. Son bir ilə kimi Ermənistanın ixracının 28 faizi, idxalının 37 faizi, turizm axınının, birbaşa xarici investisiyaların və pul köçürmələrinin 40 faizi Rusiyanın payına düşüb. Həmçinin proqnozlaşdırılır ki, pul köçürmələrində gözlənilən azalma ilə yanaşı, Ermənistanda ev təsərrüfatlarının istehlakı azalacaq və iqtisadi artıma mənfi təsir göstərəcək. Ermənistan iqtisadiyyatı üçün əhəmiyyətli risk xarici valyutada olan dövlət borcunun böyük payı, nisbətən zəif xarici maliyyə və geosiyasi risklərdir.

Ekspertlər bildirirlər ki, vəziyyəti gərginləşdirən amillərdən biri də ölkəyə gələn miqrantlardır. Tələbin əhəmiyyətli dərəcədə artması ərzaq, mənzil alqı-satqısı, kirayə, restoran və hotellər, gözəllik salonları, taksi, maliyyə və poçt xidmətləri sahələrində qiymət artımına səbəb olub. Ermənistana çoxlu valyuta axını səbəbindən dollar və avronun dəyəri aşağı düşüb ki, bu da bir sıra problemlər yaradır. Mərkəzi Bankın məlumatına görə, avqustda xaricdən fiziki şəxslərin Ermənistan banklarındakı hesablarına 472 milyon 283 min dollar köçürülüb. Bu, ötən ilin eyni ayı ilə müqayisədə təxminən 2,5 dəfə çoxdur. Ümumilikdə bu ilin yanvar-avqust aylarında Ermənistanda fiziki şəxslərin hesablarına 2 milyard 910 milyon dollar vəsait köçürülüb.

"4rd.am" saytının 28 yaşlı proqramçı Suren Qurgenlə hazırladığı reportajında qeyd edilir ki, o da xaricdən köçürmələr alır. Dolların devalvasiyası onun gəlirlərinə xeyli təsir edib. Qazancının dramlara çevrilməsindən o, indi keçən illə müqayisədə təxminən 20 faiz zərər çəkir: "Bundan əlavə, o, mənzil kirayələyir və indi aylıq kirayə haqqı olaraq 200.000 dram (təxminən 510 dollar) ödəməlidir, halbuki keçən il ödəniş cəmi 160.000 dram (təxminən 400 dollar) idi. Mənzil sahibi şərt qoyub: ya Qurgen ilin sonunda mənzili boşaltmalıdır ki, o, öz mənzilini baha qiymətə ruslara verə bilsin, ya da qalmaq istəyirsə, daha çox pul ödəməlidir".

Vurğulanır ki, hazırda vəziyyət tamamilə iflasa uğrayan Ermənistan üçün daha faciəvidir. Heç bir istehsalı olmayan, iqtisadiyyatı çökən ölkədə ümumi daxili məhsulun (ÜDM) artımı bu durumda mümkün olmayacaq. Əksinə, sözügedən sahədə tənəzzül olması və böyük geriləmənin yaşanması tamamilə gözləniləndir. Hazırda əsas proqnozlar ondan ibarətdir ki, Ermənistanda dolların və digər xarici valyutaların qiyməti bundan sonra da artacaq. Elə bu səbəbdən ölkədə zəruri ərzaq mallarının qiyməti getdikcə qalxır.

Hökumət dramın möhkəmlənməsi üçün imkanların mövcud olmadığını bildirir. Çünki valyuta ehtiyatları çox azdır. Xaricdən, xüsusən də Rusiyadan köçürülən pulların miqdarının azalması isə daha böyük iqtisadi problemlərə yol açır. Mətbuatın yazdığına görə, un və un məhsulları (çörək) və dənli bitkilərin qiyməti orta hesabla 7,4 faiz, süd məhsulları və pendirin qiyməti orta hesabla 5,8 faiz, yumurtanın qiyməti isə 13,1 faiz artıb. Əhalinin ödəmə qabiliyyəti isə daha çox azalıb. Hazırda əhali qrupu arasında istehlak olunan təbii qazın və elektrik enerjisinin dəyərinin ödənilməsində ciddi problemlər yaşanır. Son hesablamalara görə, əhalinin 90 faizi qaz və elektrik enerjisinin dəyərini ödəyə bilmir və onların borcu milyon dollarla ölçülür.

Bütün bunlar isə Ermənistanı qarşıdakı günlərdə daha böyük problemin gözləməsi deməkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Dağlıq və dağətəyi rayonlarda yollar buz bağlayacaq

Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasının bəzi yerlərində gün ərzində havanın arabir yağıntılı olacağı gözlənilir. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 3-6°, gündüz 7-9° isti, Bakıda gecə 3-5°, gündüz 7-9° isti olacaq. Atmosfer təzyiqi 770 millimetr civə sütunu, nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şərq rayonlarında havanın az yağıntılı olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-4°, gündüz 5-9° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacağı ehtimal edilir. Dağlıq və dağətəyi rayonlarda yollar buz bağlayacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, dağlarda 8°-dək şaxta, gündüz 4-9° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Ayrı-ayrı yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı proqnozlaşdırılır. Gecə və səhər yollar buz bağlayacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8°, yüksək dağlıq ərazilərdə 12-14° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı bildirilir. Gecə və səhər yollar buz bağlayacaq.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 3°-dək isti, gündüz 4-8° isti olacağı ehtimal edilir. Gecə yollar buz bağlayacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi şərq rayonlarında havanın az yağıntılı olacağı proqnozlaşdırılır. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 2-7° isti, dağlarda gecə 7-12° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı ehtimalı var. Gecə və səhər yollar buz bağlayacaq.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şərq rayonlarında yağış yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-4°, gündüz 5-9° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə yağış yağacağı proqnozlaşdırılır. Bəzi yerlərdə duman olacaq. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1-4°, gündüz 5-8° isti, dağlarda gecə 0-3° şaxta, gündüz 1-3° isti olacaq.

# İzdiham səbəbindən Argentina millisinin bayram paradı yarımçıq qalıb

Qətərdə keçirilən Futbol üzrə Dünya Çempionatının qalibi olan Argentina millisinin oyunçularının Buenos-Ayresdə keçirilməli olan bayram paradı yarımçıq qalıb.

AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, buna Argentina paytaxtında yaranan izdiham səbəb olub.

Belə ki, paytaxt küçələrinə çox sayda insanın çıxması millinin futbolçularını daşıyan avtobusun şəhər mərkəzinə gedib çatmasına imkan verməyib. Bildirilir ki, futbolçular kuboku nümayiş etdirmək üçün eyvanına çıxmalı olduqları Prezident Sarayına helikopterlə gediblər.

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə anası

**ƏSLİ SEYİDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev, şöbənin əməkdaşları Mehdi Qurbanov, Kəmalə Əzimova, Ziya Qurbanov, Həsən Şirinov, Cahid Məmmədov, Gülarə İbrahimova və Seymur Əşrəfli Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə anası

**ƏSLİ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov və şöbənin əməkdaşları Rövşən Muradov, Nadir Sultanov, Sevinc Rəhimova, Nigar Qurbanova, Əkbər Salehov, Sevil İbrahimova və Gita Süleymanova Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə anası

**ƏSLİ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Aqil Abbasa əzizi

**MƏHƏMMƏDƏLİ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və komitənin kollektivi elm və təhsil nazirinin müşaviri Nicat Məmmədliyə atası

**YUNİS MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının müdiri, professor Alış Qasımov Sumqayıt Şəhər Polis İdarəsinin rəisi Fəqan Azadəliyevə bacısı

**SEVİNC XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikası elm və təhsil nazirinin müşaviri Nicat Məmmədliyə atası

**YUNİS MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Dövlət Universitetinin rektoru, professor Elxan Hüseynov və universitetin kollektivi Sumqayıt Şəhər Polis İdarəsinin rəisi Fəqan Azadəliyevə bacısı

**SEVİNC XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Mətbuat xidmətinin prokuroru Əbdülsəməd Əzizliyə atası

**RƏHBƏR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İba Həsənov, Mütalib Şirinov, Vahid Alışov, Aydın və Qəşəm Məmmədovlar, Rasim, Fikrət və Rafiq Hüseynovlar, Akif və Rəşad Hacıyevlər, Şamo və Emin Mustafayevlər Azərbaycan Respublikası Baş Prokurorluğunun əməkdaşı Eldar Həmzəyevə bacısı

**MAHİRƏ ƏKBƏR QIZI HƏMZƏYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Biznes Universitetinin rektoru, professor İbad Abbasov və professor-müəllim heyəti Azərbaycan Respublikası elm və təhsil nazirinin müşaviri Nicat Məmmədliyə atası

**YUNİS MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Günay Sığorta" ASC-nin rəhbərliyi və kollektivi cəmiyyətin İdarə Heyətinin sədr müavini Kamalə Arif qızı Əliyevaya anası

**CƏMİLƏ FƏRƏC QIZI MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 538-97-96, 539-84-41, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6491**
**Sifariş 3697**
**Qiyməti 40 qəpik**